RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 103 (8419) ÇƏRŞƏNBƏ AXŞAMI, 2 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin 111-ci hədiyyəsi



## Prezident qlobal pandemiya ilə mübarizə dövründə də xoşməramlı missiyasını davam etdirərək daha 1336 məcburi köçkün ailəsinə sevinc bəxş etdi

"İndi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik".

Artıq illərdir ölkəmizdə əlamətdar günlərdə, bayramlarda Prezident İlham Əliyevin iştirakı ilə sosial, ictimai əhəmiyyət kəsb edən obyektlərin istifadəyə verilməsi ənənəyə çevrilib. Ötən həftə, may ayının 28-i - Respublika günündə dövlət başçısı bu ənənəyə bir daha sadiq qaldı.

### 1336 mənzil, 280 yerlik uşaq bağçası, 960 yerlik məktəb binası, xalçaçılıq və naxış emalatxanası

Cənab İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyeva daha 1336 məcburi köçkün ailəsinə sevinc bəxş etdilər. Dövlət başçısı bu münasibətlə keçirilən tədbirdə geniş çıxış edərək indiyədək həyata keçirilən layihələrdən, görülən işlərdən söz açdı.

Lökbatan qəsəbəsinin şimal-şərqində, bir az da dəqiq desək, Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində yerləşən bu qəsəbədə sayca 3-cü kompleks istifadəyə verildi. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihələr minlərlə ailənin mənzil problemini həll edib.

"Qobu Park-1"-də 1026 ailəlik doqquzmərtəbəli 11 yaşayış binası, "Qobu Park-2"-də 1300 ailəlik onmərtəbəli 13 bina, "Qobu Park-3" yaşayış kompleksində isə onmərtəbəli 13 yaşayış binası inşa olunub və 20 min əhalinin məskunlaşmasına xidmət edən bu işlər 2 il ərzində, qısa bir müddətdə icra edilib. Bütövlükdə, Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcək.

Cənab İlham Əliyev xüsusi olaraq vurğuladı ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılırsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər.

Yeni kompleksin ərazisində 280 yerlik uşaq bağçası, 960 yerlik məktəb binası inşa olunub. Məktəb zəruri tədris avadanlığı ilə təchiz edilib, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli imkan yaradılıb. Bundan başqa, ərazidə "Xarı bülbül" xalçaçılıq və naxış emalatxanası inşa edilib. İlk dəfə həyata keçirilən bu layihənin məqsədi məcburi köçkünlərin məşğulluğunun artırılması və sosial rifah halının daha da yaxşılaşdırılmasıdır. Burada həm xalça toxumağın sirləri öyrədiləcək, həm də istehsal prosesi təmin ediləcək. Layihəyə il ərzində "Qobu Park-1", "Qobu Park-2" və "Qobu Park-3" yaşayış komplekslərində, həmçinin Qaradağ rayonu ərazisində yaşayan 70 məcburi köçkün cəlb ediləcək. Toxuculuğun sirlərinə daha dərindən yiyələnənlər emalatxanalarda müəllim kimi çalışacaq, digərləri isə evlərində dəzgahlarla təmin olunacaqlar. Onlar hədiyyəlik xalçalar toxuyacaqlar. Layihə çərçivəsində xalçaların satışı da təmin ediləcək. Emalatxanada Qarabağın maddi-mədəni irsinə aid zərgərlik nümunələrinin hazırlanması da planlaşdırılır. Məhsullar yerli bazarla yanaşı, məcburi köçkünlərin əl işləri kimi xarici bazara da çıxarılacaq. Burada uşaqlar üçün ustad dərslərinin, rəsm dərnəyinin və xarici dil kurslarının təşkili də nəzərdə tutulur.

Yaşayış kompleksində 1336 mənzil var. Onların 156-sı bir, 580-i iki, 384-ü üç, 216-sı dördotaqlıdır. Bütün mənzillər mətbəx mebeli, soyuducu, fərdi kombi sistemi ilə təchiz edilib.

Ardı 7-ci səh.

# Azərbaycan pandemiya ilə mübarizədə nümunə hesab olunur



İyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, bankın prezidenti Masatsuqu Asakavanı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sabahınız xeyir, cənab prezident. Sizi görmək çox xoşdur.

**Masatsuqu ASAKAVA:** Sabahınız xeyir, cənab Prezident. Çox sağ olun. Gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb bizimlə görüşdüyünüzə görə təşəkkür edirik. Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Burada söhbət təkcə bir sıra layihələrdən getmir, həmçinin bizim birgə regional əməkdaşlığımız da mövcuddur. Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsi olmuşdur.

Şəxsən Sizinlə və hökumətinizlə birbaşa əlaqə mən və heyətim üçün olduqca vacibdir. Biz etibarlı tərəfdaşınız olaraq COVID-19 pandemiyasının yayıldığı və neftin qiymətinin kəskin aşağı düşdüyü bir vaxtda Azərbaycanın atdığı addımları tam şəkildə dəstəkləyirik. Bu, bizə ölkənizin ehtiyaclarına uyğun optimal cavab tədbirləri hazırlamağa imkan verəcəkdir.

Bu videokonfransa Asiya İnkişaf Bankının Direktorlar Şurasında Azərbaycan üzrə icraçı direktor Antoni Makdonald, bankın vitse-prezidenti Şiksin Çen, Mərkəzi və Qərbi Asiya üzrə baş direktor Verner Lipax və bankın Azərbaycan ofisinin direktoru Nariman Mannapbekov da qoşulub.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, cənab prezident. İlk növbədə, sizi Asiya İnkişaf Bankının prezidenti seçilməyiniz münasibətilə təbrik etmək və fəaliyyətinizdə uğurlar arzulamaq istərdim.

Ardı 2-ci səh.

## *Birinci vitse-prezident Mehriban ƏLİYEVA:*

## "Bütün balalara möhkəm cansağlığı, sevgi, sevinc, xoşbəxt gələcək arzulayıram!"

Birinci vitse-prezident Mehriban Əliyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə rəsmi "İnstagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Balaca soydaşlarımızı 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bütün balalara möhkəm cansağlığı, sevgi, sevinc, xoşbəxt gələcək arzulayıram!"



# Ölkənin bütün imkanları əhalinin sağlamlığının qorunmasına və sosial müdafiəsinin təminatına yönəlib

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST Mərkəzinin açılışında iştirak ediblər.

DOST Mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcək. Burada əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Mərkəzin gün ərzində 500, il ərzində isə 150 mindən çox vətəndaşa xidmət göstərmək imkanı var.

Dövlətin apardığı siyasət liberal iqtisadiyyatın inkişaf yoludur. Lakin bu inkişafın hədəfi Azərbaycan vətəndaşının sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Dövlət tərəfindən əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə qəbul etdiyi ardıcıl qərarlar da bunu sübut edir. Təkcə ötən il bu məqsədlə qəbul edilən iki sosial paketdən 4 milyon 200 mindən çox Azərbaycan vətəndaşı faydalanıb.

Uğurla aparılan sosial siyasət davamlı xarakter daşıyır. Son 16 ildə bu istiqamətdə görülən işlərə nəzər yetirdikdə görürük ki, ölkənin iqtisadi imkanları artdıqca sosial sahəyə daha çox vəsait ayrılır. Başlıcası isə odur ki, bu vaxt sosial qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlətin yaratdığı imkandan faydalanır. Məsələn, əvvəllər fərdi mənzillər və yaşayış binaları qaçqın və məcburi köçkünlər üçün tikilirdisə, indi şəhid ailələri və Qarabağ müharibəsi əlilləri də yeni evlərlə təmin olunurlar.

Məlum olduğu kimi, koronavirus pandemiyası dünya iqtisadiyyatına ciddi ziyan vurur. Bütün ölkələrdə iş yerləri bağlanır, işsizlik çoxalır. Nəticədə əhalinin sosial müdafiəyə olan ehtiyacı da artır. Dünya üzrə milyonlarla insan bu bəla üzündən ciddi sosial problemlərlə üzləşir. Sözsüz ki, dünyaya açıq olan Azərbaycanın iqtisadiyyatına da pandemiyanın mənfi təsiri var. Buna baxmayaraq, Prezident İlham Əliyev koronavirusun ölkə ərazisində yayıldığı ilk gündən bəyan etdi ki, bu çətin günlərdə dövlətin əsas məqsədi əhalinin sağlamlığını qorumaq və sosial müdafiəsini təşkil etməkdir.

Ardı 7-ci səh.



# Pandemiya vəziyyəti davam edir, arxayınlaşmaq hələ tezdir

### Maskalardan istifadə etməmək, sosial məsafəni qorumamaq ölkəmizdə koronavirusa yoluxmanı qarşısıalınmaz edə bilər

Qlobal pandemiya elan edilən yeni koronavirus (COVID-19) infeksiyası dünyada sürətlə yayılmaqda davam edir. Amma bir çox ölkələrdə koronavirus səbəbi ilə tətbiq olunan sərt karantin rejimi nisbətən yumşaldılmağa başlanıb.

COVID-19-un ilk yarandığı zamandan etibarən Azərbaycanda ona qarşı çevik və təsirli addımlar atıldığına görə, hazırda ölkəmizdə sanitar-epidemioloji vəziyyət stabildir.

Ardı 7-ci səh.

# Parlamentin növbədənkənar sessiyası başladı

İyunun 1-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirildi. Spiker Sahibə Qafarova iclası açıq elan etdi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

### Sosial şəbəkədə müzakirələr cinayət hüququna zidd şəkildə aparılır

Deputatlar əvvəlcə onları maraqlandıran məsələlərlə bağlı fikirlərini bildirdilər. İlk söz alan deputat Nurlan Həsənov bildirdi ki, son dövrlər sosial mediada müzakirələrin qəddarcasına, ictimai və siyasi şəxslərə qarşı aqressiv formada və cinayət hüququna zidd şəkildə aparılması hallarının artması müşahidə olunur. Sosial şəbəkələrin qanunla tənzimlənməsinin vacibliyi barədə fikirlərini diqqətə çatdıran deputat bu istiqamətdə Almaniyanın təcrübəsini diqqətə çatdırdı.

Azər Badamov isə avtomobilin idarə olunması üçün digər şəxslərə verilən etibarnamənin ləğv edilməsini təklif etdi. Onun sözlərinə görə, etibarnamə sovet dövründən qalma məsələdir və inkişaf etmiş ölkələrdə avtomobilin idarə olunması üçün bu cür etibarnamə verilməsi sistemi yoxdur. Əgər avtomobil itirsə, texniki imkanlardan istifadə edib onu tapmaq mümkündür.



### Dövlət başçısının fikirləri milli iftixar duyğusu yaradır

Deputat İsa Həbibbəyli Prezident İlham Əliyevin "Qobu Park-3" yaşayış kompleksinin açılışındakı çıxışı ilə bağlı fikirlərini bildirdi. Qeyd etdi ki, cənab Prezidentin 20-ci əsrin əvvəlləri ilə bağlı fikirləri elmi əsaslara söykənir və tarixi faktlar da bunu təsdiq edir.

Ardı 6-cı səh.

# Azərbaycan pandemiya ilə mübarizədə nümunə hesab olunur

Əvvəli 1-ci səh.

Əminəm ki, sizin rəhbərliyiniz dövründə Azərbaycan və Asiya İnkişaf Bankı son 20 ildə olduğu kimi, sıx şəkildə işləməyə davam edəcək. Qeyd etdiyiniz kimi, biz çox güclü tərəfdaşlıq qurmuşuq. Biz hamımız Asiya İnkişaf Bankının illik toplantısının 2015-ci ildə Bakıda keçirildiyini xatırlayırıq. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlaməti idi və görüş çox uğurla keçdi.

Bildiyiniz kimi, biz bir sıra mühüm layihələr üzərində işləyirik. Asiya İnkişaf Bankının Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür. Bu vəsait bizə infrastruktura investisiya yatırmağa kömək edib. Biz elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına çox minnətdarıq. Əlbəttə ki, biz "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və dəstəyinizə, maliyyə dəstəyinizə görə sizə çox minnətdarıq. Mən sizə deyə bilərəm ki, Asiya İnkişaf Bankı bu layihəyə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Sizin çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə, həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi. Bildiyiniz kimi, "Cənub qaz dəhlizi" tamamlanmağa çox yaxındır, 3 layihə artıq tamamlanıb. Dördüncüsü - Trans-Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlamətidir.

Hazırda biz yeni layihələr üzərində işləyirik. Mənə verilən məlumata görə, bizim portfelimizdə suvarma və təhsillə bağlı icra olunacaq bəzi layihələr var. Bütün bunlar çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, qarşıdakı illərdə əməkdaşlığımız davam edəcək. Sizin burada - Bakıdakı və mənzil-qərargahınızdakı komandanız bizim prioritetlərimizi, inkişafımız üçün prioritetlərin nədən ibarət olduğunu bilirlər. Bu, əsasən, özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələləri ilə əlaqədardır.

Əlbəttə ki, pandemiya dövründə göstərdiyimiz bütün səylər insanları necə xilas etmək, onların sağlamlığını, həyatlarını necə qorumaq məqsədi daşıyıb. Azərbaycanın vaxtında gördüyü tədbirlər sayəsində biz minimum itki vermişik. Ümumdünya Səhiyyə Təşkilatının bəyanatlarına əsasən Azərbaycan pandemiya ilə mübarizədə nümunə hesab olunur. Biz, həmçinin böyük həcmdə vəsait ayırmışıq. İqtisadiyyatın pandemiyadan zərər çəkən sektorlarını dəstəkləmək, eləcə də işsizləri, işini itirmiş insanları, aztəminatlı insanları və hətta qeyri-formal məşğulluğa cəlb olunmuş insanları dəstəkləmək üçün 2 milyard avrodan çox vəsait ayırmışıq.

Biz qeyri-formal məşğulluqla mübarizə aparırıq və ciddi tədbirlər görmüşük. Təkcə bu il işçilərlə şirkətlər arasında 100 mindən çox müqavilə imzalanıb. Lakin bununla belə, biz bu insanların bu problemdən əziyyət çəkdiyini başa düşürük. Bu səbəbdən də 4 ay ərzində iqtisadi artımımız çox az olmuşdur, bununla belə, 0,2 faiz təşkil etmişdir. Mən bilirəm ki, hazırda bir çox ölkələr, əfsuslar olsun, resessiyadadır. Beş ayın nəticələri hələ ki bizə məlum deyil, ola bilsin, 1 həftə ərzində məlum olacaq. Lakin düşünürəm ki, biz bu vəziyyətin öhdəsindən gələ biləcəyik. Sizin doğru olaraq qeyd etdiyiniz kimi, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim üçün, əlbəttə ki, çağırışdır. Lakin biz addımlarımızı, büdcəmizi yeni reallıqlara uyğunlaşdırmağa nail olmuşuq və reallıqlar necə olsa, biz bunu nəzərə almalıyıq. Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır. Lakin o layihələr ki, bir neçə il gözləyə bilər, onlar, əlbəttə, ola bilsin bir qədər təxirə salınsın. Düşünürəm ki, ümumilikdə Azərbaycan yaxşı nəticələr nümayiş etdirən ölkələr arasında olacaq.

Mən bilirəm ki, çox ölkələr, eşitdiyimə görə, 150-dən çox ölkə maliyyə dəstəyi üçün artıq beynəlxalq maliyyə institutlarına müraciət edib. Azərbaycan onların arasında deyil. Bilirsiniz ki, biz üzərimizə düşən işi layiqincə yerinə yetiririk və bizim xərclərimiz daim mənfəətimizdən aşağı olub. Mən deyərdim ki, ehtiyatları qorumaq və artırmaq bizim başlıca iqtisadi hədəfimiz olub.

**Masatsuqu ASAKAVA:** Təşəkkür edirəm, cənab Prezident. Pandemiya ilə mübarizə və onun Azərbaycana təsiri ilə bağlı həyata keçirdiyiniz nəhəng islahat paketi barədə mənə məlumat verilib. Sizin rəhbərliyinizlə beynəlxalq platformalarda - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Qoşulmama Hərəkatı çərçivəsində pandemiyaya qarşı səylərin əlaqələndirilməsi məndə dərin təəssürat yaratdı. Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına COVID-19-la mübarizə fonduna toplam 10 milyon ABŞ dolları, o cümlədən bu sahədə ehtiyacı olan Qoşulmama Hərəkatına üzv dövlətlərə 5 milyon ABŞ dolları həcmində ianə ayırması da təqdirəlayiq haldır. Həmçinin bilirəm ki, pandemiyadan əziyyət çəkən 13 ölkəyə, o cümlədən Çin Xalq Respublikası, Pakistan, Qırğızıstan, Tacikistan və Özbəkistana da Azərbaycan tərəfindən yardım göstərilib.



Bununla yanaşı, fürsətdən istifadə edərək hökumətinizin 13-cü Asiya İnkişaf Fonduna töhfə vermək qərarına görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Dünyanın yoxsul və həssas vəziyyətdə olan ölkələri bu imkandan yararlanacaqdır. Təşəkkür edirəm.

COVID-19-la bağlı vəziyyətə gəldikdə, mənə hökumətiniz tərəfindən pandemiya əleyhinə atılan qabaqlayıcı tədbirlər, ölüm hallarının aşağı səviyyədə olması və aparılan test sayının artması barədə məlumat verilib. Bu, onu nümayiş etdirir ki, ölkədə səhiyyə sahəsində risklər çox yaxşı idarə edilir.

Cari ilin ilk 4 ayı ərzində ölkənizin makroiqtisadi göstəriciləri kifayət qədər sabit olmuşdur. Dövlət büdcəsinə daxilolmalarda artımın olması təqdirəlayiqdir, lakin ilin ikinci yarısında güclü azalma riskləri ehtimalı mövcuddur. Bu baxımdan, tərəfinizdən ümumi daxili məhsulun 4,3 faizinə bərabər, geniş iqtisadi yardım paketinin qısa müddətdə qəbul edilməsini, pandemiyanın yayılmasının qarşısının alınması üçün səhiyyə sahəsində addımların atılmasını, sosial tədbirləri və biznesin dəstəklənməsini alqışlayırıq. Bildiyim qədər, Azərbaycanın Mərkəzi Bankı da maliyyə sektorunun dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava rəhbərlik etdiyi qurumun COVID-19-la mübarizə sahəsində dəstək paketi haqqında məlumat verdi. Bildirdi ki, bu paketə tibbi ləvazimat və şəxsi qoruyucu vasitələrin alınması üçün qrantların ayrılması, iqtisadiyyata və cəmiyyətə təsirin azaldılması üçün büdcə dəstəyi, özəl sektorda işlə təminatın və fəaliyyətin dayanıqlı olması üçün kredit və zəmanətlərin verilməsi məsələləri daxildir. O, 2016-cı ildə neftin qiymətinin kəskin aşağı düşdüyü bir şəraitdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı bankın Azərbaycanla əməkdaşlığı məsələsinə də toxundu. Bildirdi ki, bank tərəfindən hazırda ölkələrin bütün ehtiyaclarının qarşılanması və Asiya İnkişaf Bankı ilə uzunmüddətli əlçatanlığın təmin edilməsi məqsədilə müvafiq meyarlara cavabvermənin dəyərləndirilməsi aparılır və beləliklə, hər bir ölkə üçün kreditin maksimal məbləği müəyyən edilir.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, cənab prezident. Əvvəla qeyd etmək istərdim ki, koronavirusla mübarizədə və dünya miqyasında göstərdiyimiz təşəbbüslərlə bağlı yaxşı məlumatlı olmağınız məni çox sevindirir. Belə təsadüf edib ki, Azərbaycan hazırda sizin də qeyd etdiyiniz kimi, iki təşkilata - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına sədrlik edir. Ötən il bizim çox uğurlu Zirvə görüşümüz olmuşdur və Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bu təşkilata sədr seçilmişdir. Buna görə düşündük ki, bütün dünya üçün bu önəmli vaxtda liderlik göstərmək və çox mühüm əməkdaşlıq formatını yaratmaq bizim öhdəliyimizdir. Hər iki Zirvə görüşü uğurla keçdi. Sizə deyə bilərəm ki, biz nəinki təkcə koronavirusla mübarizə sahəsində fikir mübadiləsi apardıq, eyni zamanda, qarşılıqlı dəstək göstərdik. Zirvə görüşündən sonra üzv ölkələrin müvafiq nazirlərinin iştirakı ilə koronavirusla mübarizə sahəsində birgə səylərlə bağlı çox mühüm məsələlərə həsr olunan bir sıra konfranslar keçirilmişdir.

Həmçinin bizim Ümumdünya Səhiyyə Təşkilatına ianəmiz haqqında da sizin yaxşı məlumatınız var. Düşünürəm ki, biz ilk dəfə beş milyon dollar ayıran ölkələr arasında da birinci ölkələrdən idik, sonra isə Qoşulmama Hərəkatının sədri qismində əlavə beş milyon dollar ayırdıq. Biz Azərbaycan tərəfindən verilmiş humanitar dəstəklə artıq 14 ölkəni əhatə etmişik. Bu, həm maliyyə, həm avadanlıq, həm də tibbi ləvazimatlar dəstəyi olmuşdur. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə biz yardıma ən çox ehtiyacı olan 15 ölkəyə dəstək göstərəcəyik. Ümumdünya Səhiyyə Təşkilatı ilə razılaşmada bu 15 ölkə müəyyən olunub. Ona görə də bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 ölkəyə dəstək verib. Düşünürəm ki, bu, bizim üzərimizə düşən məsuliyyətdir. Çünki bu çətin zamanda ölkələr və insanlar bir-birini dəstəkləməlidirlər.

Əməkdaşlığımızla bağlı yeni ideyalara gəlincə, biz bunda çox maraqlıyıq. Çünki mən xatırlayıram ki, 5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi. Həqiqətən də bu, mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bunun əməkdaşlığın çox yaxşı əlaməti olduğunu nəzərə aldıq. Əvvəl qeyd etdiyim kimi, "Cənub qaz dəhlizi" layihəsini ilk dəstəkləyən siz oldunuz. Yeri gəlmişkən, biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantılarını təşkil edirik. Mən xatırlayıram, bəzi başqa banklar layihəyə maliyyə öhdəliyini nəzərdən keçirdiyi vaxtda qeyd etdim ki, "Şahdəniz"dən hasil olunan qaz Avropaya nəql ediləcək. Lakin Avropa banklarında hələ proses getdiyi halda, Asiya İnkişaf Bankı artıq maliyyələşməni təmin etdi. Düşünürəm ki, sizin çox dostcasına verdiyiniz dəstək böyük bir qrupun birləşməsində mühüm rol oynadı.

Sonra çıxış edən Azərbaycanın Maliyyə naziri **Samir ŞƏRİFOV** dedi: Çox sağ olun, cənab Prezident, prezident Asakava. Cənab Prezident, söhbətinizin davamı olaraq bildirmək istərdim ki, hazırda biz Asiya İnkişaf Bankı ilə ölkə üzrə biznes əməliyyatları strategiyası əsasında işləyirik. Bu strategiya çərçivəsində Asiya İnkişaf Bankı qarşıdakı 3-4 il üçün Azərbaycanla bağlı kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Bildirmək istərdim ki, hazırda onlar, həmçinin Azərbaycanla bağlı çox mühüm texniki yardım proqramlarında olduqca fəal iştirak edirlər. Onların bir neçəsi həqiqətən də çox mühümdür, xüsusilə layihəyə hazırlıq mexanizmi. Bu da, həmçinin kredit vasitəsilə tamamlana bilən texniki yardım proqramıdır. Cənab Prezident, başqa bir mühüm layihə startapların yaradılması üçün texniki yardım layihəsidir. Bunlar olduqca mühüm layihələrdir.

Maliyyə naziri Samir Şərifov Azərbaycanda peşə təlimi sisteminin gücləndirilməsi məsələsi ilə bağlı bankla əməkdaşlığa toxunaraq bildirdi ki, hazırda Asiya İnkişaf Bankının təqdim etdiyi peşə təhsili təlimi layihəsi ilə əlaqədar bu qurumla Təhsil Nazirliyi arasında müzakirələr başlayıb. Nazir qeyd etdi ki, digər layihə əsasən özəl və maliyyə sektoru ilə bağlıdır. Bildirdi ki, ənənəvi layihələr arasında suvarma layihələri var. Asiya İnkişaf Bankı dövlətimizin başçısının imzaladığı fərmanla Azərbaycanda sudan istifadə məsələləri ilə məşğul olmaq üçün hökumət yanında Operativ Qərargahın yaradılmasından məlumatlıdır və bu məsələyə töhfə vermək niyyətindədir. Samir Şərifov dedi ki, Asiya İnkişaf Bankı bu sahədə Naxçıvan Muxtar Respublikasında layihəni nəzərdən keçirməyi təklif edir.

**Masatsuqu ASAKAVA:** Azərbaycanın dayanıqlı inkişafına verdiyimiz töhfənin hansı şəkildə olması aydın oldu. İcazə verin, bir neçə məqamı qeyd edim. Asiya İnkişaf Bankı Sizin hökumətinizin iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsinə və inklüziv artımın təşviqinə, eləcə də koronavirus böhranından tez bir zamanda iqtisadiyyatın bərpa olunmasına yönəlmiş strateji inkişaf gündəliyinə verdiyi dəstəyi davam etdirəcək. Bu halda, şaxələndirilmiş iqtisadiyyatın tələbatlarına daha yaxşı cavab vermək, dövlət və özəl sektorlar arasında tərəfdaşlığı təşviq etmək üçün infrastrukturun da inkişafı nəzərdə tutulur. Bütün bunlar Sizin ölkənizlə apardığımız tərəfdaşlığın strateji prioritetləridir. Dövlət və özəl sektorlar arasında tərəfdaşlıq hökumətlə həyata keçirdiyimiz layihələrin əsas mövzusu kimi qalmaqdadır. İdarəçilik sahəsində olduqca fəal mövqedən çıxış etməliyik. Bu sahəyə xarici borcun ümumi daxili məhsula nisbəti məsələsi aiddir və bu nisbət gözlənildiyindən daha sürətli templə azalmaqdadır. Mən mövqeyinizi tam anlayıram ki, Siz innovativ, tam yeni texnoloji layihələrə sərmayələrin yatırılmasını dəstəkləyirsiniz. Bundan irəli gələrək, rəhbərlik etdiyim heyət əlindən gələni edir ki, bütün həmin layihələrin hiss olunan nəticələri yüksək texnologiyalar sahəsində olsun. İstərdik ki, onların hökumətin strateji hesab etdiyi sahələrə böyük təsiri özünü göstərsin. Məsələn, su ehtiyatları, idarəçilik, maliyyə, enerji səmərəliliyi və digər sahələr.

Bir sözlə, yuxarıda qeyd olunanlardan irəli gələrək və hökumət orqanları ilə məsləhətləşərək mənim əməkdaşlarım bir sıra sənədləri hazırlayıblar. Birincisi, cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, suvarma və drenaj sistemlərinin inkişaf etdirilməsi layihəsi xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, ikincisi, peşə təhsili və ticarətin liberallaşdırılması da nəzərdə tutduğumuz proqramın bir hissəsidir. Nəhayət, üçüncüsü katalizator rolunu oynayacaq kiçik və orta sahibkarlığın maliyyələşdirilməsidir. Biz, həmçinin elektrik enerjisinin paylanması sahəsində götürdüyümüz öhdəliklərə sadiq qalırıq. Bu məqsədlə elektrik şəbəkəsinin təkmilləşdirilməsinə sərmayə proqramı nəzərdə tutulur. Əgər Sizin hökumət müsbət qərar verərsə, bu proqramlar icra oluna bilər.

Cənab Prezident, Siz, həmçinin "Cənub qaz dəhlizi" layihəsini qeyd etdiniz. Mən bu layihənin əsas mərhələlərinin başa çatması münasibətilə Sizi təbrik edirəm. Asiya İnkişaf Bankı da bu layihənin cari il ərzində tam başa çatdırılması məqsədilə maliyyə dəstəyini davam etdirəcək.

Sonra bankın Mərkəzi və Qərbi Asiya departamentinin baş direktoru **Verner LİPAX** çıxış edərək dedi: Təşəkkür edirəm, cənab Prezident. Burada olmağıma çox şadam. İcazənizlə xatırladım ki, biz Sizinlə 2018-ci ildə görüşmüşük. Həmin vaxt Siz bizi kənd təsərrüfatı torpaqlarında suvarmanın yüksək texnologiyalarını tətbiq etməyə dəvət etdiniz. Siz Asiya İnkişaf Bankının Naxçıvan Muxtar Respublikasında aparılan işlərə verdiyi töhfəsini qeyd etdiniz. Bunun əsasında, biz Naxçıvanda suvarma sistemlərinin inkişaf layihəsini hazırlamağa başladıq. Bu ilin yanvar ayında suvarma sistemlərinin texniki əsaslandırılması məqsədilə 1,2 milyon dollar həcmində qrant ayrılmışdır. May ayında biz bu sənədi Sizin sərəncamınızla 2020-ci ilin aprel ayında yaradılmış Dövlət Su Ehtiyatları Komissiyasına rəy almaq üçün təqdim etmişik. Əslində, bu layihə su kanallarında geomembran texnologiyasının tətbiqini, kanal istiqamətinin seçilməsində Coğrafi İnformasiya Sistemindən istifadəni, nəzarət qurğularını və məlumat bazasının qurulmasını, o cümlədən SKADA sistemindən istifadəni nəzərdə tutur. Həmçinin kənardan idarə edilməsi, peyklə baxış üsulu ilə suyun məhsuldarlığı və sistemin işləməsi də sınaqdan keçiriləcək. Bütün bu işlər torpaqların şoranlaşmasının azaldılmasına və kənd təsərrüfatında məhsuldarlığın artırılmasına yönəlib.

Verner Lipax peşə təhsili sistemində ölkəmizlə əməkdaşlığın genişləndirilməsi sahəsində görülən tədbirlərdən danışdı. Qeyd etdi ki, bu ilin fevralında peşə təhsilinin inkişafı ilə bağlı təklif edilmiş proqram Dördüncü Sənaye İnqilabına uyğunlaşmaq baxımından seçilmiş sənaye sahələrinə və peşə bacarıqlarının formalaşdırılmasına yönəlir. Bu, həm də Davosda əldə olunmuş razılıq əsasında Bakıda Dördüncü Sənaye İnqilabının regional mərkəzinin yaradılması ideyası ilə üst-üstə düşür. Daha sonra o, kiçik və orta müəssisələr üçün maliyyə işlərinin tənzimlənməsi layihəsi barədə danışdı və bildirdi ki, kiçik şirkətlərin həvəsləndirilməsi, onların maliyyəyə çıxışının təkmilləşdirilməsi üçün hökumət ilkin mərhələ üzrə maliyyələşdirmə portfelini hazırlaya bilər. Verner Lipax bu məqsədlə hökumətə pul vəsaitləri ayırmalarının və həmin kreditlər portfelinin yerli valyuta ilə, yəni, manatla formalaşdırılmasının mümkünlüyünü vurğuladı.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Burada qaldırılmış bütün məsələlər böyük əhəmiyyətə malikdir və mən onların bəziləri ilə bağlı şərhlərimi bildirəcəyəm. Peşə təlimi ilə bağlı məsələlər üzərində uğurla irəlilədiyimizdən məmnunam. Bu, bizim üçün prioritet məsələlərdən biridir. Biz artıq bəzi ölkələrlə təmaslar yaratmışıq və bəzi layihələri icra etmişik. Biz Azərbaycanda binalar inşa etməklə, avadanlıq almaqla bütün infrastruktura sərmayə yatırmışıq və onlar da öz texnologiyalarını gətiriblər. Buna görə də xüsusilə indi, fəal sənaye inkişafını yaşadığımız bir dönəmdə yaxşı mütəxəssislərin hazırlanması böyük əhəmiyyətə malikdir. Bu ilin bir göstəricisini sizə deyə bilərəm. İlk dörd ay ərzində ümumi daxili məsul artımının çox az - 0,2 faiz olmasına baxmayaraq, həmin dörd ay ərzində bizdə qeyri-neft sənayesində 16 faizdən çox artım müşahidə olunmuşdur. Bu, həqiqətən onu göstərir ki, bizim sənayeləşmə, şaxələnmə və sənaye inkişafına təkan verən infrastruktura sərmayə üzrə səylərimiz həqiqətən yaxşı nəticələr verir. Buna görə də qeyri-enerji sektorunun sürətli artımı əminəm ki, davam edəcəkdir və bunun üçün də bizə bu biznesi apara bilən yaxşı mütəxəssislər lazım olacaqdır. Odur ki, mən peşə təlimi ilə məşğul olmağımızı çox dəstəkləyirəm və həmçinin kiçik və orta müəssisələrə yerli valyuta ilə dəstəyin göstərilməsi vasitəsilə özəl sektora dəstəyiniz də çox faydalıdır. Bildiyiniz kimi, bizim borcgötürmə ilə bağlı strategiyamız çox mühafizəkardır və bu, bizə öz milli valyutamızda borc götürməyə imkan verəcəkdir.

Suvarma ilə bağlı məsələlərə gəldikdə, sizin mənim müraciətimə cavabınız üçün minnətdaram. Mənə verilən məlumata görə, Naxçıvandakı suvarma layihəsi indi artıq razılaşdırılmağa çox yaxındır. Mənə məlumat verildi ki, kreditin ümumi məbləği təqribən 100 milyon ABŞ dolları olacaqdır. Hesab edirəm ki, bu, Naxçıvanda kənd təsərrüfatının inkişafı üçün çox faydalı olacaqdır. Biz dövlət investisiya proqramı vasitəsilə Naxçıvanın irriqasiya sahəsində inkişafına hər il sərmayə yatırırıq. Lakin əlbəttə ki, əlavə vəsait, üstəgəl, sizin mütəxəssis təcrübəniz çox faydalı olacaqdır. Bundan əlavə, sizin bütün ölkə ərazisində suvarma ilə bağlı planlarımızı nəzərdən keçirməyinizi istərdim. Biz hazırda vəziyyəti qiymətləndiririk və çox böyük su itkiləri ilə üzləşdiyimizi görürük. Bəzi hallarda köhnəlmiş infrastruktura və səmərəli olmayan su idarəetmə sisteminə görə biz suyun 40-50 faizini itiririk. Buna görə də müxtəlif nazirlərin təmsil olunduğu və Baş Nazirin müavininin rəhbərlik etdiyi, digər nümayəndələrin iştirak edəcəyi xüsusi hökumət komissiyası yaradılmışdır. Onlar bizim bütöv su potensialımızı qiymətləndirəcək və prioritetləri, hansı işləri görməli və hansı investisiyaları yatırmalı olduğumuzu müəyyən edəcəklər. Buna görə sizdən bu layihəni nəzərdən keçirməyi xahiş etmək istərdim. Ümidvaram ki, bir neçə aydan sonra bu komissiyanın fəaliyyətinin ilk nəticələri bizdə olacaq. Biz suvarmanın inkişafı üzrə dövlət proqramının qəbul edilməsi və suvarmanın daha da səmərəli olması ilə nəticələnəcək addımları müəyyən etməyə başlaya bilərik. Buna görə də texniki dəstək və maliyyə dəstəyi baxımından biz bu məsələ üzərində sizinlə çalışmağa məmnun olarıq.

Bu gün toxunmaq istədiyim digər bir məsələ, - siz artıq onu qeyd etdiniz, - enerji səmərəliliyi məsələsidir. Biz indi iki şirkətdə "Azərenerji" və "Azərişıq"da bu işləri aparırıq. Bu il və ötən il yatırılmış müəyyən investisiyalara görə "Azərenerji" minimum 600 meqavat səviyyəsində mövcud elektrik enerjisi stansiyalarının məhsuldarlığını artıra bilmişdir və bu proses davam edir. Bizim ən böyük və Qafqazda ən böyük olan Mingəçevir elektrik stansiyamız tamamilə bərpa edilmişdir və ola bilsin ki, 1 və ya 2 ay müddətində bərpa işlərindən sonra açılacaqdır. Bundan əlavə, biz hazırda bərpa olunan enerji mənbələri üzərində fəal şəkildə işləyirik və bu sahədə fəaliyyət göstərən iki böyük şirkətlə bu ilin yanvar ayında artıq iki ilkin müqavilə imzalanmışdır. Ümumi enerji hasilatının həcmi 400 meqavat olacaqdır. İnvestisiya tamamilə xaricdən gələcəkdir və Günəş və küləklə işləyən iki elektrik stansiyası olacaqdır. Buna görə də kifayət qədər Günəş və külək mənbəyinə malik olduğumuzu nəzərə alaraq enerjinin bu sektorunu inkişaf etdirmək üçün bizim planlarımız var. Ona görə də sizdən bu variantı da nəzərdən keçirməyi xahiş edərdim.

Həmçinin sizin də düzgün qeyd etdiyiniz kimi, Davos Dünya İqtisadi Forumu ilə bizim münasibətlərimiz indi yeni mərhələyə qədəm qoyub. Yanvar ayında cənab Börge Brende və mən Davosda Azərbaycanda region üzrə Dördüncü Sənaye İnqilabının regional habının yaradılması üzrə sənədi imzaladıq. Hesab edirəm ki, bu, bizim sənaye inkişafında gördüyümüz səylərin yaxşı qiymətləndirilməsinin bir nümunəsidir. Biz nəinki təkcə Azərbaycan üçün, eyni zamanda, region üçün çox güclü platformanın necə inkişaf etdirilməsi ilə bağlı sizinlə işləməyə hazırıq ki, çox imkanlar yaratmaq məqsədilə mövcud infrastrukturumuzdan, bağlılıqdan və Azərbaycanın coğrafi mövqeyindən istifadə etmək mümkün olsun.

Toxunmaq istədiyim digər bir məsələ budur ki, biz dəmir yolu layihəsi ilə bağlı artıq birlikdə işləmişik. Lakin biz indi Şimal-Cənub istiqamətində dəmir yolumuzun bərpa edilməsi prosesindəyik. Azərbaycan artıq bu dəhlizə böyük həcmdə sərmayə yatırmışdır. Onun çox böyük potensialı var. Biz artıq şimaldan - Rusiyadan daxil olan, Azərbaycan ərazisindən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən başlayaraq Rusiya ilə sərhədə qədər dəmir yolumuzun keyfiyyəti yaxşı deyil. Buna görə də biz qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq. Çünki belə ola bilər ki, bütün yüklərin öhdəsindən gəlmək üçün bizim mövcud infrastrukturumuz kifayət etməyə bilər. Bu gün artıq bizim Rusiya ilə sərhədimizdə tıxaclar var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə Şimal-Cənub dəhlizinin bir hissəsi olacaq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi xahiş etmək istərdim. Gələcək kommunikasiya prosesində ola bilsin sizə hansı işlərin görüldüyü və bizim planlarımız ilə bağlı daha ətraflı məlumat veriləcəkdir.

**Masatsuqu ASAKAVA:** Çox sağ olun, cənab Prezident. Çox şadam ki, biz Asiya İnkişaf Bankının suvarma, peşə təhsili, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi layihələri vasitəsilə Azərbaycanın dayanıqlı inkişafına hansı şəkildə töhfə verəcəyi ilə bağlı eyni fikirdəyik. Cənab Prezident, Siz, həmçinin bərpa olunan enerjini qeyd etdiniz. Bu sahəyə də biz böyük töhfə vermək istərdik. Eyni zamanda, Siz dəmir yolu sisteminin bərpasını qeyd etdiniz. Asiya İnkişaf Bankının ciddi şəkildə hansı töhfə verə biləcəyi üzərində düşünəcəyik və qısa zamanda Sizə cavab verəcəyik.

**Verner LİPAX:** Bir sözlə, əvvəlki təcrübəmizə əsaslanaraq, yeni işləri icra edə bilərik. Fikrimcə, həmkarlarımız Sizinlə bu gündəliyin icrası üçün işləməkdən çox məmnun olardı. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı.

**Masatsuqu ASAKAVA:** Biz Azərbaycandakı vəziyyətlə bağlı çox faydalı müzakirə üçün olduqca minnətdarıq. Biz qadağalar aradan götürülən kimi mümkün qədər qısa müddətdə və Sizin vaxtınız olarsa, Azərbaycana səfər etməyi arzulayırıq.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, cənab prezident. Bu mühüm məsələlərlə bağlı sizinlə müzakirə aparmaq imkanına görə təşəkkür edirəm. Cənab prezident və iştirakçılar, əminəm ki, pandemiya bitən kimi bizə sizi Azərbaycanda qəbul etmək şərəfi nəsib olacaq. Mən sizi dəvət edirəm, bu məsələləri həll etməyə də sizi dəvət edirəm. Komandalarımız bu gün müzakirə etdiyimiz məsələlər üzərində çalışmağa davam edəcəklər. Çox sağ olun.

**Masatsuqu ASAKAVA:** Sağ olun.

## İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya

Hörmətli cənab Prezident!

Dost İtaliya Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və arzularımı yetirirəm.

Azərbaycan ilə İtaliya arasında mövcud olan sıx dostluq və strateji tərəfdaşlıq münasibətlərinin bugünkü səviyyəsi və dinamikası böyük məmnunluq hissi doğurur. Cari ilin fevral ayında gözəl ölkənizə dövlət səfəri zamanı Sizinlə səmimi şəraitdə keçən görüşlərimizi, apardığımız danışıqları, mənə və Mehriban xanım Əliyevaya göstərilən yüksək diqqət və qonaqpərvərliyi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, enerji, sənaye, təhsil, mədəniyyət, müdafiə və digər sahələrdə mövcud olan yüksəksəviyyəli dialoq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Eyni zamanda, koronavirus xəstəliyinə qarşı mübarizədə Azərbaycan xalqının dost İtaliya xalqı ilə həmrəy olduğunu bir daha qeyd etmək istəyirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, xalqınıza daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Sizi və xalqınızı Azərbaycanın müstəqilliyinin 102-ci ildönümü və Ramazan bayramı münasibətilə təbrik edirəm. Bütün dünyanın pandemiya ilə üzləşdiyi bir vaxtda ölkənizə və xalqınıza həmrəylik, müqavimət və şəfa arzulayıram.

Litva və Azərbaycan arasında münasibətlərin getdikcə möhkəmlənməsindən çox şadam. Bizim videobağlantı formatında son danışığımız da göstərdi ki, maraq olan yerdə fəal ikitərəfli əməkdaşlıq mümkündür. Ümid edirəm ki, keçirilməsi planlaşdırılan Litva-Azərbaycan Hökumətlərarası Komissiyasının iclasında iqtisadi əlaqələrin inkişafını müzakirə etmək imkanımız olacaqdır.

Azərbaycanın və Litvanın informasiya texnologiyaları, nəqliyyat, mebel və qida sənayesi, tibb və təhsil sahələrində böyük potensialı var. Qəti əminəm ki, bütün dünyaya yayılmış pandemiya aradan qalxdıqdan sonra xalqlarımız üçün turizm sahəsində daha geniş əməkdaşlıq imkanları yaranacaqdır.

Hazırda Azərbaycan Türk Şurasında və Qoşulmama Hərəkatında sədrlik edir. Sizin təşəbbüsünüzlə videobağlantı şəklində çoxtərəfli formatda Zirvə görüşləri uğurla keçirildi.

Azərbaycan və Avropa İttifaqı arasında münasibətlər Litva üçün çox önəmlidir. Avropa İttifaqı və Azərbaycan arasında əməkdaşlıq sazişi ilə bağlı danışıqların yekunlaşdırılması bu əlaqələrin möhkəmləndirilməsinə uyğun addım olardı. Litva Azərbaycanın Avropa İttifaqı ilə fəal dialoqunu və Şərq Tərəfdaşlığı ölkələrinin Avropa İttifaqı dövlətləri ilə müzakirələrini dəstəkləməyə hazırdır.

Zati-aliləri, Sizi milli bayram münasibətilə bir daha təbrik edirəm.

Xahiş edirəm, Sizə olan ən dərin ehtiramımı qəbul edin.

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

Cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi Yunanıstan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Fürsətdən istifadə edərək Sizə cansağlığı, dost Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

Zati-aliləri!

Dost ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə ən xoş təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan gözəl münasibətlərin daha da inkişaf etməsini arzulayıram.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, dost Azərbaycana və onun xalqına davamlı tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Sabah əl-Əhməd əl-Cabir əs-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə Tunis xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə cansağlığı və xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

Bu fürsətdən istifadə edərək qəti əminliyimi bildirirəm ki, ölkələrimiz arasındakı qardaşlıq və əməkdaşlıq əlaqələri xalqlarımızın maraqları naminə yeni üfüqlər açaraq daha da inkişaf edəcək və möhkəmlənəcək.

*Hörmətlə,*

***Kays SAYİD,***
***Tunis Respublikasının Prezidenti***

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə Peru xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin, xüsusilə də iqtisadi-ticari və investisiya sahələrində əlaqələrin gələcəkdə daha da möhkəmlənməsini arzuladığımı bildirirəm.

Bəşəriyyətin COVID-19 pandemiyası ilə mübarizə apardığı bir zamanda Azərbaycan xalqına möhkəm cansağlığı, tərəqqi və firavanlıq diləyirəm.

Zati-aliləri, Sizə ən dərin ehtiramımı bildirirəm.

***Martin Vizkarra KORNEXO,***
***Peru Respublikasının Prezidenti***

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Vin MYİN,***
***Myanma İttifaqı Respublikasının Prezidenti***

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə Livan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi, Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzularımı çatdırıram.

Livan və Azərbaycan arasında diplomatik münasibətlər qurulandan bəri ikitərəfli əlaqələrimiz daha da yaxınlaşıb. Əminəm ki, xalqlarımızın daha parlaq gələcəyi üçün ölkələrimiz bu möhkəm təmələ əsaslana bilər.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***General Mişel AUN,***
***Livan Respublikasının Prezidenti***

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm. Həmçinin dost ölkələrimiz arasında səmimi münasibətlərin gələcəkdə də inkişaf etməsini arzulayıram.

*Hörmətlə,*

***Xəlifə bin Salman Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının Baş Naziri***

Əziz dost!

Çox hörmətli cənab Prezident.

COVID-19-a qarşı mübarizədə Ukrayna xalqına Azərbaycan xalqı tərəfindən göstərilən qardaş yardımına görə ehtiramımı və səmimi minnətdarlığımı bildirməyi özümə şərəf hesab edirəm.

Bu addım adi yardımdan qat-qat yüksəkdir. Bu addım Azərbaycan və Ukrayna arasında mehriban qonşuluq, dostluq xarakteri daşıyan münasibətlərin dəyişməzliyinin, müasirliyin yeni çağırışları şəraitində ümumi tarixi yaddaşa malik olan xalqlarımızın qədim qarşılıqlı yardım ənənələrinin davamının sübutudur.

Cənab Prezident, mənim üçün Sizinlə qarşılıqlı fəaliyyət mübadiləsi, mənim prezidentliyim dövründə həllinə birgə nail olduğumuz gündəlikdə duran bir sıra vacib məsələlərdə qarşılıqlı anlaşma siyasi müdrikliyin, qərarları ətraflı düşünmənin, dövrün mürəkkəb tarixi çağırışlarına düzgün reaksiyanın və mahir anlayışın parlaq nümunəsi kimi qalıb.

Bu gün həmçinin dünya geosiyasətində ciddi, tektonik irəliləyişlər dövrüdür, bütövlükdə dünya nizamının transformasiyası başlanıb, yeni geosiyasi təsir mərkəzləri yaranır, milli dövlətlərin siyasi və iqtisadi suverenlik kimi anlayışların vacibliyini anlamağa qayıtması prosesi güclənir. COVID-19 pandemiyası dövlət təsisatlarını möhkəmlətməyin, idarəçilik qərarlarının qəbul edilməsində onların özünəyetərliyini təmin etməyin zəruriliyini əyani şəkildə vurğulayan təhdid olub. Bu, milli dövlətlər miqyasında belə qlobal təhdidləri səmərəli şəkildə aradan qaldırmağa imkan verir.

Sizin rəhbər və lider kimi şəxsi müdrikliyinizi, dövlət təsisatlarının səmərəliliyinin yaradılması, möhkəmləndirilməsi, yüksəldilməsi məsələlərində, iqtisadi suverenliyin təminatında gələcəyi görmə bacarığınızı bir daha vurğulamaq istəyirəm. Azərbaycanın bu təcrübəsi digər ölkələr üçün, ilk növbədə, Ukrayna üçün onun tarixinin indiki mərhələsində böyük diqqətə layiqdir. Bu gün hadisələri və prosesləri dərindən dərk edərək ölkənin idarə edilməsi məsələlərində şəxsən Sizdən bir çox praktik dərslər götürmək mümkündür.

İcazə verin, 2005-2010-cu illərdə Ukrayna Prezidenti olmaq hüququmdan istifadə edərək, dostcasına Sizi inandırım ki, Ukraynaya yardım ayrılması barədə Sizin qərarınız Ukrayna xalqı tərəfindən minnətdarlıqla dəyərləndirilib. Bir dost kimi mənim də şəxsi minnətdarlığımı, Sizə xoş arzularımı və Sizin simanızda bütün Azərbaycan xalqına sülh və firavanlıq diləklərimi qəbul edin.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bizim ölkəmizə göndərdiyi qoruyucu vasitələr yardımına görə ayrıca təşəkkür etmək istəyirəm.

Mən daim Sizin sərəncamınızdayam, ölkələrimiz və xalqlarımız arasında dialoqa var qüvvəmlə hər cür yardım göstərməyə hazıram.

Fürsətdən istifadə edərək Azərbaycanın Respublika Günü ilə əlaqədar səmimi təbriklərimi qəbul edin. Bizim ölkələr qədim demokratik ənənələrə malikdir, biz bu ənənələrə hörmət edir və onu möhkəmləndiririk.

*Hörmətlə,*

***Viktor YUŞŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın Prezidenti***

## “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Auditor xidməti haqqında”, “İnvestisiya fəaliyyəti haqqında”, “Müflisləşmə və iflas haqqında”, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında”, “Yeyinti məhsulları haqqında”, “Notariat haqqında”, “Kredit ittifaqları haqqında” və “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1585-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 481; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 573; 2007, № 12, maddə 1246; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 2-ci hissəsinin dördüncü abzasından “5-ci maddəsində,” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə, “Televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” və “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35; 2019, № 1, maddə 1, № 8, maddə 1365) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”nin 3-cü maddəsinin dördüncü hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin iclaslarına gəldiyi zaman Azərbaycan Respublikasının Dövlət Himni ifa edilir.”.

**Maddə 2.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 583; 2004, № 1, maddə 10; 2005, № 4, maddə 278, № 6, maddə 469; 2006, № 11, maddə 932, № 12, maddə 1005; 2007, № 6, maddə 560, № 8, maddə 749, № 11, maddə 1053; 2009, № 6, maddə 394; 2010, № 7, maddə 600; 2011, № 2, maddə 70; 2015, № 4, maddə 354; 2016, № 12, maddə 1987; 2018, № 2, maddə 153, № 6, maddə 1167, № 12 (I kitab), maddə 2477; 2019, № 12, maddə 1882) aşağıdakı məzmunda 40.2.1-1-ci maddə əlavə edilsin:

“40.2.1-1. Azərbaycan Respublikasının Dövlət Himnini hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində “Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirmək;”.

**Maddə 3.** “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 515; 2005, № 10, maddə 874; 2010, № 4, maddə 276; 2013, № 11, maddə 1303; 2019, № 11, maddə 1683, № 12, maddə 1916) aşağıdakı məzmunda 1.4-cü maddə əlavə edilsin:

“1.4. Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılarkən və ya asılarkən, Azərbaycan Respublikasının Dövlət Himninin mütləq ifa edildiyi hallar “Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.”.

**Maddə 4.** “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 888; 2006, № 3, maddə 224, № 12, maddə 1005; 2007, № 5, maddələr 435, 442, № 12, maddə 1218; 2009, № 10, maddə 772; 2011, № 2, maddə 70; 2012, № 9, maddə 839; 2015, № 5, maddə 493, № 11, maddə 1281; 2016, № 12, maddə 1988; 2018, № 6, maddə 1170, № 12 (I kitab), maddə 2478; 2019, № 4, maddə 599, № 12, maddə 1882) aşağıdakı məzmunda 7.1.1-1-ci maddə əlavə edilsin:

“7.1.1-1. Azərbaycan Respublikasının Dövlət Himninin hər səhər ictimai yayımın əvvəlində “Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirilməsi;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

## “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə”

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12 (I kitab), maddə 2523; 2019, № 7, maddə 1208, № 8, maddə 1372; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1649-VQD nömrəli Qanunu) 36.9-cu maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Güzəştli düzəliş qeyri-neft məhsullarının istehsalı sahəsində investisiyaların stimullaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan istehsal prosesinin hər hansı mərhələsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilən mallara da şamil edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

## “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 75-VIQD nömrəli Qanununun tətbiqi, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi və dərman vasitələri istehsalının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 75-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 51; 2014, № 5, maddə 477; 2016, № 5, maddə 861; 2018, № 12 (I kitab), maddə 2611; 2020, № 1, maddə 17; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 797 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bəndə “27.5-ci maddəsinin birinci cümləsində,” sözlərindən sonra “36.9-cu maddəsinin ikinci cümləsində,” sözləri əlavə edilsin;

3.2. 2.3-cü bənddə “1.3-cü (ikinci halda) və 50-1.4-cü maddələrində” sözləri “1.3-cü maddəsində (ikinci halda), 36.9-cu maddəsinin ikinci cümləsində və 50-1.4-cü maddəsində” sözləri ilə əvəz edilsin.

4. Müəyyən edilsin ki, istehsal prosesinin qablaşdırma mərhələsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilən dərman vasitələri 2020-ci il iyunun 1-dən 5 il müddətinə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq güzəştli düzəlişin tətbiqi məqsədilə yerli mal hesab edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 may 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 23 aprel tarixli 53 nömrəli və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə” 2005-ci il 18 iyul tarixli 262 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 aprel tarixli 53 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 233; 2008, № 3, maddə 168; 2009, № 7, maddə 532; 2018, № 9, maddə 1831, № 11, maddə 2265) 2.4-cü bəndi ləğv edilsin.

2. “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli 262 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 598; 2008, № 6, maddə 496; 2017, № 5, maddə 800; 2018, № 11, maddə 2265) 1.4-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2020-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 28-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 44.2-ci maddədə “on mislinədək miqdarda” sözlərindən sonra “, habelə cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarda” sözləri əlavə edilsin.

1.2. 47.4.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“47.4.5. hərbi qulluqçulara.”.

1.3. 49.3-cü maddənin ikinci cümləsində və 69.3-cü maddədə “üç” sözü “dörd” sözü ilə əvəz edilsin.

1.4. 68-ci maddə üzrə:

1.4.1. 68.1.3-cü maddədə “üç” sözü “dörd” sözü ilə əvəz edilsin;

1.4.2. 68.2-ci maddədə “cəza” sözündən sonra “ictimai işlər,” sözləri əlavə edilsin;

1.4.3. aşağıdakı məzmunda 68.3-cü və 68.4-cü maddələr əlavə edilsin:

“68.3. Cinayətlərin məcmusu və hökmlərin məcmusu üzrə cəzalar qismən və ya tamamilə toplanılarkən azadlığın məhdudlaşdırılmasının bir gününə:

68.3.1. islah işlərinin iki günü;

68.3.2. ictimai işlərin dörd saatı bərabər tutulur.

68.4. Cinayətlərin məcmusu və hökmlərin məcmusu üzrə cəzalar qismən və ya tamamilə toplanılarkən islah işlərinin bir gününə ictimai işlərin iki saatı bərabər tutulur.”.

1.5. 71.1-ci maddədən “və məhkumluğun götürülməsi” sözləri çıxarılsın və maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Məhkəmə şərti məhkum etmənin ləğv edilməsi qənaətinə gəldikdə, məhkumu tamamilə və ya qismən əlavə cəzadan da azad edə bilər. Şərti məhkum etmə ləğv edildikdə məhkumun əlavə cəzası olmadığı və ya o, əlavə cəzadan tamamilə azad edildiyi hallarda məhkəmə, həmçinin şəxsin məhkumluğunun götürülməsi barədə qərar qəbul edir.”.

1.6. 72-ci maddənin “Qeyd” hissəsinin mətni birinci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilsin:

“2. Bu Məcəllənin 72 - 73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda, zərərçəkmiş şəxsə dəymiş ziyan və bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulan dövlət büdcəsinə ödəniş cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə ödənilir.

3. Bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulmuş cinayət şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatmadığı hallarda, şəxsin həmin maddələrdə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən azad edilməsi məsələsinə baxılarkən, dövlət büdcəsinə ödəniş başa çatmayan cinayətə görə qəsdin yönəldiyi əmlakın on faizi miqdarında müəyyən olunur.”.

1.7. 73-1-ci maddə üzrə:

1.7.1. 73-1.1-ci maddədə “179.1” rəqəmlərindən sonra “, 185.1” rəqəmləri əlavə edilsin;

1.7.2. 73-1.2-ci maddədə “bir misli” sözləri “iyirmi beş faizi” sözləri ilə əvəz edilsin;

1.7.3. 73-1.3-cü maddədə “iki misli” sözləri “əlli faizi” sözləri ilə əvəz edilsin.

1.8. 73-2-ci maddə üzrə:

1.8.1. 73-2.1-ci maddədə “209.1, 209.2.2” rəqəmləri “209” rəqəmləri ilə əvəz edilsin;

1.8.2. 73-2.2-ci maddədən “209.2.1, 209.3,” rəqəmləri çıxarılsın.

1.9. 79.3-cü maddədən “, yaxud məhkum edilmiş şəxsi cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərir” sözləri çıxarılsın.

1.10. Aşağıdakı məzmunda 80-1-ci maddə əlavə edilsin:

**“Maddə 80-1. Zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə**

Məhkum edilmiş şəxs cəza çəkdiyi dövrdə cinayət məsuliyyətdən azad etmə ilə bağlı bu Məcəllənin 73.2, 73-1.1, 73-1.2 və 73-2-ci maddələrində, habelə 72, 263 və 306-cı maddələrinin “Qeyd” hissələrində nəzərdə tutulmuş şərtləri yerinə yetirdikdə cəza çəkməkdən azad edilir.”.

1.11. 83.3-cü maddə üzrə:

1.11.1. 83.3.1-ci maddədə “çatdıqda” sözündən sonra “, çəkilməmiş əlavə cəzası olduğu hallarda isə həmçinin əlavə cəza icra olunub qurtardıqda” sözləri əlavə edilsin;

1.11.2. aşağıdakı məzmunda 83.4-1-ci maddə əlavə edilsin:

“83.4-1. Əsas cəzanı çəkib qurtarmış, yaxud əsas cəzasını çəkməkdən vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmiş şəxsin çəkilməmiş əlavə cəzası olduğu hallarda, məhkumluğun ödənilməsi müddəti əlavə cəzanın çəkilib qurtardığı gündən hesablanır.”.

1.12. 85.5-ci maddədə ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Yetkinlik yaşına çatmayanlara cinayətlərin və ya hökmlərin məcmusu üzrə cəza təyin edilərkən məcmuya daxil olan cinayətlərdən birinə görə on il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edildikdə, bu halda qəti cəza az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə təyin edilir.”.

1.13. 99-4.4 - 99-4.7-ci maddələr müvafiq olaraq 99-4.3 - 99-4.6-cı maddələr hesab edilsin.

1.14. 99-7.2-ci maddədə “99-5.3” rəqəmləri “99-5.4” rəqəmləri ilə əvəz edilsin.

1.15. 162.1-ci maddədən “və ya az ağır” sözləri çıxarılsın.

1.16. 167-2-ci maddə üzrə:

1.16.1. 167-2.1-ci maddənin sanksiyasında “və ya” sözlərindən sonra “iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

1.16.2. 167-2.2-ci maddənin sanksiyasında “və ya” sözlərindən sonra “iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin.

1.17. 186.1-ci maddənin sanksiyasında “iki min manatdan dörd min manatadək” sözləri “cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək” sözləri ilə əvəz edilsin.

1.18. 187.1-ci maddənin sanksiyasında “min manatdan iki min manatadək” sözləri “cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək” sözləri ilə əvəz edilsin.

1.19. 188-ci maddə üzrə:

1.19.1. 188.1-ci maddənin sanksiyasında “və ya” sözlərindən sonra “iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

1.19.2. 188.2-ci maddənin sanksiyasında “bir ildən” sözlərindən əvvəl “bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

1.19.3. 188.3-cü maddənin sanksiyasında “üç” sözü “üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki” sözləri ilə əvəz edilsin.

1.20. 190-cı maddə üzrə:

1.20.1. 190.2-ci maddənin sanksiyasında “mislindən dörd mislinədək miqdarda” sözləri “misli miqdarında” sözü ilə əvəz edilsin;

1.20.2. “Qeyd” hissəsində “iyirmi” sözü “əlli” sözü ilə, birinci, ikinci və üçüncü hallarda “yüz” sözü “iki yüz” sözləri ilə əvəz edilsin.

1.21. 192-ci maddə üzrə:

1.21.1. 192.1-ci maddənin dispozisiyasında “vətəndaşlara, təşkilatlara və ya” sözləri “fiziki və ya hüquqi şəxslərə, yaxud” sözləri ilə əvəz edilsin;

1.21.2. 192.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, “altı ayadək müddətə azadlığın məhdudlaşdırılması” sözləri “bir ilədək müddətə islah işləri” sözləri ilə əvəz edilsin;

1.21.3. 192.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.22. 192-1-ci maddə üzrə:

1.22.1. 192-1.1 və 192-1.2-ci maddələrin dispozisiyasında “vətəndaşlara, təşkilatlara və ya” sözləri “fiziki və ya hüquqi şəxslərə, yaxud” sözləri ilə əvəz edilsin;

1.22.2. 192-1.1 və 192-1.2-ci maddələrin sanksiyasında “dörd” sözü “üç” sözü ilə əvəz edilsin;

1.22.3. 192-1.3-cü maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.23. 193.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 193.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.24. 194-cü maddə üzrə:

1.24.1. 194.1-1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə əvəz edilsin;

1.24.2. 194.2-ci maddənin sanksiyasında “yeddi” sözü “altı” sözü ilə əvəz edilsin.

1.25. 195.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 195.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.26. 195-1-ci maddə üzrə:

1.26.1. 195-1.1-ci maddənin sanksiyasında “dörd mislinədək miqdarda cərimə” sözləri “üç mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması” sözləri ilə əvəz edilsin;

1.26.2. 195-1.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin;

1.26.3. 195-1.3-cü maddənin sanksiyasında “mislindən altı mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.27. 195-2.1-ci maddənin sanksiyasında “bir” sözü “iki” sözü ilə, 195-2.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.28. 196.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 196.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarında” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.29. 197.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 197.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarında” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.30. 198.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 198.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.31. 200-2.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 200-2.3-cü maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.32. 201.2-ci maddənin sanksiyasında “yeddi” sözü “beş” sözü ilə əvəz edilsin.

1.33. 201-1.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 201-1.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.34. 202.2-ci, 202-1.2-ci və 202-2.1-ci maddələrin sanksiyasında “üç mislindən beş mislinədək miqdarda” sözləri “iki misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.35. 203.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 203.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.36. 203-1.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 203-1.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.37. 205-2.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 205-2.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.38. 206-cı maddə üzrə:

1.38.1. 206.1-ci maddənin dispozisiyasında “külli” sözü “xeyli” sözü ilə əvəz edilsin;

1.38.2. 206.1-ci maddənin sanksiyasında “beş” sözü “cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə edilməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç” sözləri ilə əvəz edilsin;

1.38.3. aşağıdakı məzmunda 206.1-1-ci və 206.1-2-ci maddələr əlavə edilsin:

“206.1-1. Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə -

cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında cərimə edilməklə iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.1-2. Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

cinayətin predmetin dəyərinin altmış faizindən səksən faizinədək miqdarında cərimə və ya cinayətin predmetin dəyərinin altmış faizindən səksən faizinədək miqdarında cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

1.38.4. maddənin “Qeyd” hissəsinin birinci bəndi aşağıdakı redaksiyada verilsin:

“1. Bu Məcəllənin 206.1-ci maddəsində “xeyli miqdar” dedikdə, əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 206.1-1-ci maddəsində “külli miqdar” dedikdə, iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 206.1-2-ci maddəsində “xüsusilə külli miqdar” dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.”.

1.39. 207-ci maddənin sanksiyasında “səkkiz” sözü “yeddi” sözü ilə əvəz edilsin.

1.40. 209-cu maddə üzrə:

1.40.1. 209.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 209.2-ci və 209.3-cü maddələrin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin;

1.40.2. “Qeyd” hissəsində birinci və ikinci halda “yüz” sözü “iki yüz” sözləri ilə əvəz edilsin;

1.41. 210.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 210.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.42. 211.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 211.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.43. 212.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə, 212.2-ci maddənin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.44. 213-cü maddə üzrə:

1.44.1. 213.1-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə əvəz edilsin;

1.44.2. 213.2-ci və 213.3-cü maddələrin sanksiyasında “mislindən beş mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin;

1.44.3. “Qeyd” hissəsində “iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, “külli miqdar” dedikdə” sözləri “əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, “külli miqdar” dedikdə iki” sözləri ilə əvəz edilsin.

1.45. 213-1-ci maddənin “Qeyd” hissəsi aşağıdakı redaksiyada verilsin:

“Qeyd: Bu Məcəllənin 213-1.1 və 213-1.3-cü maddələrində “xeyli miqdar” dedikdə beş yüz manatdan iki min manatadək olan məbləğ, 213-1.2.1 və 213-1.4-cü maddələrində “külli miqdar” dedikdə iki min manatdan yuxarı olan məbləğ başa düşülür.”.

1.46. 215.1-ci maddədə “təşkilatı və ya vətəndaşı” sözləri “fiziki və ya hüquqi şəxsi” sözləri ilə əvəz edilsin.

1.47. 221-ci maddə üzrə:

1.47.1. 221.2-ci maddənin sanksiyasında “dörd” sözü “üç” sözü ilə əvəz edilsin;

1.47.2. 221.3-cü maddənin sanksiyasında “altı” sözü “beş” sözü ilə əvəz edilsin.

1.48. 222-ci maddə üzrə:

1.48.1. 222.3-cü maddənin sanksiyasında “on” sözü “yeddi” sözü ilə əvəz edilsin;

1.48.2. aşağıdakı məzmunda 222.4-cü maddə əlavə edilsin:

“222.4. Eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda -

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

1.49. 223-cü maddə üzrə:

1.49.1. 223.2-ci maddənin sanksiyasında “yeddi” sözü “altı” sözü ilə əvəz edilsin;

1.49.2. aşağıdakı məzmunda 223.3-cü maddə əlavə edilsin:

“223.3. Eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda -

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

1.50. 225-ci maddə üzrə:

1.50.1. 225.2-ci maddənin sanksiyasında “yeddi” sözü “altı” sözü ilə əvəz edilsin;

1.50.2. aşağıdakı məzmunda 225.3-cü maddə əlavə edilsin:

“225.3. Eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda -

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

1.51. 233-4.3-cü maddənin sanksiyasında “mislindən dörd mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.52. 240-cı maddənin “Qeyd” hissəsinin mətni birinci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

“2. Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri könüllü surətdə təhvil verən, yaxud güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.”.

1.53. 255.2-ci maddənin sanksiyasında “üç mislindən beş” sözləri “iki mislindən üç” sözləri ilə əvəz edilsin;

1.54. 256-cı maddənin “Qeyd” hissəsində “dörd yüz manatdan min manatadək olan məbləğ, 256.2.2-ci maddəsində “külli miqdar” dedikdə isə” sözləri “min manatdan yeddi min manatadək olan məbləğ, 256.2.1-ci maddəsində “külli miqdar” dedikdə isə yeddi” sözləri ilə əvəz edilsin.

1.55. 258-ci maddənin “Qeyd” hissəsində “dörd yüz manatdan” sözləri “min manatdan yeddi” sözləri ilə əvəz edilsin və “külli miqdar” dedikdə isə” sözlərindən sonra “yeddi” sözü əlavə edilsin.

1.56. 265-ci maddə üzrə:

1.56.1. 265.1-ci maddənin dispozisiyasından “və ya ağır” sözləri çıxarılsın;

1.56.2. 265.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

“iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

1.56.3. aşağıdakı məzmunda 265.1-1-ci maddə əlavə edilsin:

“265.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda -

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

1.56.4. 265.2-ci maddənin dispozisiyasında “Eyni hərəkətlər” sözləri “Bu Məcəllənin 265.1-ci maddəsində nəzərdə tutulmuş əməllər” sözləri ilə əvəz edilsin.

1.57. 265-1-ci maddə üzrə:

1.57.1. 265-1.1-ci maddənin dispozisiyasından “və ya ağır” sözləri çıxarılsın;

1.57.2. 265-1.1-ci maddənin sanksiyasında “üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki” sözləri “iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir” sözləri ilə əvəz edilsin;

1.57.3. aşağıdakı məzmunda 265-1.1-1-ci maddə əlavə edilsin:

“265-1.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

1.57.4. 265-1.2-ci maddənin dispozisiyasında “Eyni” sözü “Bu Məcəllənin 265-1.1-ci maddəsində nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin.

1.58. 266-cı maddə üzrə:

1.58.1. 266.3-cü maddənin dispozisiyasında “həlak olmasına” sözləri “ölümünə” sözü ilə əvəz edilsin;

1.58.2. aşağıdakı məzmunda “Qeyd” hissəsi əlavə edilsin:

“Qeyd: Bu Məcəllənin 266.1-ci maddəsində “külli miqdar” dedikdə əlli min manatdan yuxarı olan m?bl?ğ başa düşülür. “.

1.59. 267-ci maddə üzrə:

1.59.1. 267.1-ci maddənin dispozisiyasından “və ya ağır” sözləri çıxarılsın;

1.59.2. 267.1-ci maddənin sanksiyasında “iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə” sözləri “bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması” sözləri ilə əvəz edilsin;

1.59.3. aşağıdakı məzmunda 267.1-1-ci maddə əlavə edilsin:

“267.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda -

üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

1.59.4. 267.2-ci maddənin dispozisiyasında “Eyni” sözü “Bu Məcəllənin 267.1-ci maddəsində nəzərdə tutulmuş “ sözləri ilə əvəz edilsin;

1.59.5. 267.3-cü maddənin dispozisiyasında “həlak olmasına” sözləri “ölümünə” sözü ilə əvəz edilsin.

1.60. 268-ci maddə üzrə:

1.60.1. 268.1-ci maddənin dispozisiyasında “və ya ağır zərər vurulmasına və ya külli miqdarda ziyan” sözləri “zərər” sözü ilə əvəz edilsin;

1.60.2. 268.1-ci maddənin sanksiyasında “altı” sözü “beş” sözü ilə əvəz edilsin, “iki” sözü (hər iki halda) “bir” sözü ilə əvəz edilsin;

1.60.3. aşağıdakı məzmunda 268.1-1-ci maddə əlavə edilsin:

“268.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda -

dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

1.60.4. 268.2-ci maddədə “ölümünə” sözündən sonra “və ya digər ağır nəticələrə” sözləri əlavə edilsin.

1.61. 272.1-ci maddənin sanksiyasında “cərimə” sözündən sonra “və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması” sözləri əlavə edilsin.

1.62. 273.1-ci maddənin sanksiyasında “cərimə” sözündən sonra “və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması” sözləri əlavə edilsin.

1.63. 302-ci maddə üzrə:

1.63.1. 302.1-ci maddənin sanksiyasında “edilməməklə” sözündən sonra “iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

1.63.2. 302.2-ci maddənin sanksiyasında “edilməməklə” sözündən sonra “iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin.

1.64. 306-cı maddənin “Qeyd” hissəsində “məhkəmə tərəfindən hökm çıxarılanadək” sözləri “həmin əməllərlə bağlı hökm qanuni qüvvəyə minənədək” sözləri ilə əvəz edilsin.

1.65. 308.1-ci maddənin sanksiyasında “islah işləri və ya” sözlərindən sonra “üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin.

1.66. 308-2.4-cü maddənin sanksiyasında “mislindən dörd mislinədək miqdarda” sözləri “misli miqdarında” sözləri ilə əvəz edilsin.

1.67. 312.1-ci maddənin sanksiyasında “cərimə və ya “ sözlərindən sonra “üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin.

1.68. 315-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən zor tətbiq etməklə müqavimət göstərmə və ya xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı zor tətbiq etmə -

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

1.69. 318-2-ci maddə ləğv edilsin.

1.70. 322.1-ci maddədə “vətəndaş və ya təşkilat” sözləri “fiziki və ya hüquqi şəxs” sözləri ilə əvəz edilsin.

1.71. 328-ci maddə üzrə:

1.71.1. 328.1-ci maddədə “əhəmiyyətli” sözü “mühüm” sözü ilə əvəz edilsin;

1.71.2. 328.2.1-ci maddədən “və ya mütəşəkkil dəstə” sözləri çıxarılsın;

1.71.3. 328.3-cü maddənin sanksiyasına “iki ilədək müddətə intizam” sözlərindən əvvəl “iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya” sözləri əlavə edilsin;

1.71.4. “Qeyd” hissənin 3-cü bəndində “Döyüş şəraiti” sözləri “Bu fəslin müvafiq maddələrində “döyüş şəraiti” sözləri ilə əvəz edilsin.

1.72. 329-cu və 330-cu maddələr aşağıdakı redaksiyada verilsin:

**“Maddə 329. Tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər**

329.1. Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsə zor tətbiq etməsi -

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

329.2. Eyni əməllər:

329.2.1. təkrar törədildikdə;

329.2.2. iki və ya daha çox şəxsə qarşı törədildikdə;

329.2.3. bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

329.2.4. silah tətbiq etməklə törədildikdə;

329.2.5. zərərçəkmiş şəxsin sağlamlığına qəsdən az ağır zərər vurmaqla törədildikdə;

329.2.6. işgəncə verməklə törədildikdə -

bir ildən iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

329.3. Bu Məcəllənin 329.1 və 329.2-ci maddələrində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına qəsdən ağır zərər vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda -

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 330. Rəisə qarşı zorakı hərəkətlər**

330.1. Rəisə, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar zor tətbiq etmə və ya zor tətbiq etməklə müqavimət göstərmə -

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

330.2. Rəisə, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə onu qulluq vəzifəsini pozmağa məcbur etmə -

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

330.3. Bu Məcəllənin 330.1 və 330.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

Ardı 5-ci səh.

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

330.3.1. bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

330.3.2. təkrar törədildikdə;

330.3.3. iki və ya daha çox şəxs barəsində törədildikdə;

330.3.4. silah tətbiq etməklə törədildikdə;

330.3.5. zərərçəkmiş şəxsin sağlamlığına qəsdən az ağır zərər vurmaqla törədildikdə -

bir ildən iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

330.4. Bu Məcəllənin 330.1-330.3-cü maddələrində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına qəsdən ağır zərər vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda -

üç ildən səkkiz ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

330.5. Bu Məcəllənin 330.1-330.4-cü maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə -

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

1.73. 331-ci maddə ləğv edilsin.

1.74. 332-ci maddə üzrə:

1.74.1. 332.1-ci maddənin dispozisiyasında "pozma, zərərçəkmiş şəxsin şərəf və ləyaqətini alçaltmaqla və ya ona qarşı zor tətbiq etməklə əlaqədar olduqda" sözləri "pozaraq, zərərçəkmiş şəxsin sağlamlığına qəsdən yüngül zərər vurma" sözləri ilə əvəz edilsin;

1.74.2. 332.1-ci maddənin sanksiyasında "iki" sözü "bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir" sözləri ilə əvəz edilsin;

1.74.3. aşağıdakı məzmunda 332.1-1 və 332.1-2-ci maddələr əlavə edilsin:

"332.1-1. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq zərərçəkmiş şəxsə qarşı zor tətbiq etməklə, yaxud hədə-qorxu tətbiq etməklə özgənin xeyli miqdarda əmlakını və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə -

iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

332.1-2. Bu Məcəllənin 332.1-1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə -

bir ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.74.4. 332.2-ci maddənin dispozisiyasında "Eyni" sözləri "Bu Məcəllənin 332.1, 332.1-1 və ya 332.1-2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.74.5. 332.2.3-cü maddədə ", qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə" sözləri "və ya qabaqcadan əlbir olan bir qrup şəxs" sözləri ilə əvəz edilsin;

1.74.6. 332.2.5-ci maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı redaksiyada 332.2.6-cı maddə əlavə edilsin:

"332.2.6. işgəncə verməklə törədildikdə -";

1.74.7. 332.2-ci maddənin sanksiyasında "üç" sözü "iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki" sözləri ilə əvəz edilsin;

1.74.8. 332.3-cü maddənin dispozisiyasında "və ya 332.2-ci maddələrində nəzərdə tutulmuş əməllər" sözləri ", 332.1-1, 332.1-2 və ya 332.2-ci maddələrində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurduqda və ya digər" sözləri ilə əvəz edilsin;

1.74.9. 332.3-cü maddənin sanksiyasında "beş ildən on" sözləri "üç ildən səkkiz" sözləri ilə əvəz edilsin;

1.74.10. maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 332.1-1-ci maddəsində "xeyli miqdar" dedikdə yüz manatdan yuxarı, lakin min manatdan artıq olmayan məbləğ, 332.1-2-ci maddəsində "külli miqdar" dedikdə min manatdan yuxarı məbləğ başa düşülür.".

1.75. 333-cü maddə üzrə:

1.75.1. 333.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"333.1. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantının hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə - ";

1.75.2. 333.2-ci maddədə "Çağırış və ya kontrakt üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun hərbi hissədən özbaşına getməsi və ya xidmət yerinə üzrlü səbəblər olmadan qayıtmaması" sözləri "Bu Məcəllənin 333.1-ci maddəsində nəzərdə tutulmuş əməllər" sözləri ilə əvəz edilsin;

1.75.3. 333.3-cü maddənin dispozisiyasında "Zabit heyətindən olan şəxsin" sözləri "Zabitin" sözü ilə, "olmadıqda, yaxud bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox olduqda" sözləri isə "olmayaraq törədildikdə" sözləri ilə əvəz edilsin;

1.75.4. 333.4-cü maddənin sanksiyasına "iki ildən" sözlərindən əvvəl "iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya" sözləri əlavə edilsin;

1.75.5. Aşağıdakı məzmunda 333.4-1-ci maddə əlavə edilsin:

"333.4-1. Bu Məcəllənin 333.1-ci və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər üç aydan artıq törədildikdə -

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.75.6. 333.6-cı maddənin dispozisiyasında "333.4-cü" sözləri "333.4-1-ci" sözləri ilə əvəz edilsin.

1.76. 334.1-ci maddənin dispozisiyasından "xidmətdən üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi), yaxud" sözləri çıxarılsın.

1.77. 335-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 335. Hərbi xidmət vəzifələrinin icrasından boyun qaçırma**

335.1. Hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərər yetirməklə, özünü xəstəliyə vurmaqla, sənədləri saxtalaşdırmaqla və ya sair aldatma yolu ilə hərbi xidmət vəzifələrinin icrasından müvəqqəti boyun qaçırması -

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

335.2. Eyni əməllər hərbi xidmət vəzifələrinin icrasından tamamilə boyun qaçırmaq məqsədi ilə törədildikdə -

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

335.3. Bu Məcəllənin 335.1 və 335.2-ci maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə-

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

1.78. 338.1-ci maddənin dispozisiyasından "əgər" sözü çıxarılsın, "zərər vura bilərdisə" sözləri "real təhlükə yaratdıqda" sözləri ilə əvəz edilsin.

1.79. 339.1-ci maddənin dispozisiyasından "əgər" sözü çıxarılsın, "zərər vura bilərdisə" sözləri "real təhlükə yaratdıqda" sözləri ilə əvəz edilsin.

1.80. 340.1-ci maddənin dispozisiyasında "mənafelərinə" sözündən sonra "mühüm" sözü əlavə edilsin.

1.81. 341-ci maddə üzrə:

1.81.1. 341-ci maddənin adı və 341.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"Maddə 341. Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma**

341.1. Rəisin və ya vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi və ya xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda-";

1.81.2. 341.1-ci maddənin sanksiyasında "iki ilədək" sözlərindən əvvəl "iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin.

1.82. 342-ci maddə üzrə:

1.82.1. 342.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"342.1. Rəisin və ya vəzifəli şəxsin öz xidməti borcuna vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda -

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.82.2. aşağıdakı məzmunda 342.1-1-ci maddə əlavə edilsin:

"342.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda -

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.82.3. 342.2-ci maddənin dispozisiyasında "Eyni əməllər ağır nəticələrə" sözləri "Bu Məcəllənin 342.1 və ya 342.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə" sözləri ilə əvəz edilsin.

1.83. 347-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, habelə nəqliyyat vasitələrinin və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaqla hərbi əmlakın itirilməsi mühüm zərər vurduqda -".

1.84. 348-ci maddə üzrə:

1.84.1. maddənin adından ", xarab etmə" sözləri çıxarılsın;

1.84.2. 348.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"348.1. Silahı, onun komplekt hissələrini, döyüş sursatlarını, partlayıcı maddələri və qurğuları, hərbi texnikanı və ya sair hərbi əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə ağır nəticələrə səbəb olduqda -".

1.85. 349-cu maddə üzrə:

1.85.1. 349.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"349.1. Silahı, onun komplekt hissələrini, döyüş sursatlarını, partlayıcı maddələri və qurğuları və ya hərbi texnikanı qəsdən məhv etmə və ya zədələmə -";

1.85.2. aşağıdakı məzmunda 349.1-1-ci maddə əlavə edilsin:

"349.1-1. Bu Məcəllənin 349.1-ci maddəsində nəzərdə tutulmayan sair hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə xeyli miqdarda zərər vurduqda -

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.85.3. 349.2-ci maddənin dispozisiyasında "349.1-ci maddəsində" sözləri "349.1 və ya 349.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.85.4. maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 349.1-1-ci maddəsində "xeyli miqdar" dedikdə beş min manatdan yuxarı olan məbləğ başa düşülür.".

1.86. 350-ci maddə üzrə:

1.86.1. 350.1-ci maddənin dispozisiyasında "zərər vurduqda, hərbi texnikanın məhvinə və ya sair ağır nəticələrə səbəb olduqda" sözləri "az ağır zərər vurduqda" sözləri ilə, maddənin sanksiyasında "iki" sözü "bir" sözü ilə əvəz edilsin;

1.86.2. aşağıdakı məzmunda 350.1-1-ci maddə əlavə edilsin:

"350.1-1. Bu Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş əməl ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurduqda və ya sair ağır nəticələrə səbəb olduqda -

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.";

1.86.3. 350.2-ci maddənin dispozisiyasında "əməl" sözündən əvvəl "Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş" sözləri əlavə edilsin.

1.87. 351-ci maddə üzrə:

1.87.1. 351.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"351.1. Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurduqda - ";

1.87.2. 351.1-ci maddənin sanksiyasında "iki" sözü "bir" sözü ilə, "üç" sözü "iki" sözü ilə əvəz edilsin;

1.87.3. aşağıdakı məzmunda 351.1-1-ci maddə əlavə edilsin:

"351.1-1. Bu Məcəllənin 351.1-ci maddəsində nəzərdə tutulmuş əməl ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurduqda -

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**Maddə 2. Keçid müddəaları**

2.1. Bu Qanun 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

2.2. Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə görə bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Onlar, habelə bu Qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

2.3. Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən və ya cəzasını çəkmiş, lakin məhkumluğu olan şəxslərin vəziyyəti bu Qanunla yaxşılaşdırılırsa, həmin məsələlərə, habelə bu Qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş məsələlərə hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən, cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılır.

2.4. Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə dair məhkəmələrin, ibtidai istintaq və ya təhqiqat orqanlarının icraatında olan cinayət işlərinə və materiallara əməlin cinayət olmasını və cəzalanmalı olmasını aradan qaldıran yeni qanunun qüvvəyə minməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilmə əsasları ilə xitam verilir və ya cinayət təqibinin başlanması rədd edilir və bu əməllərin inzibati məsuliyyətə səbəb olması məsələsi araşdırılır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 176 nömrəli və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486; 2000, № 3 (I kitab), maddə 158; 2001, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 4, maddə 231; 2006, № 8, maddə 660; 2008, № 3, maddə 174, № 8, maddə 714; 2009, № 7, maddə 542; 2012, № 11, maddə 1080; 2014, № 10, maddə 1217, № 12, maddə 1552; 2016, № 2 (II kitab), maddə 239; 2017, № 7, maddə 1320, № 12 (I kitab), maddə 2342; 2019, № 3, maddə 436, № 5, maddə 843) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-1-ci bəndə "ikinci" sözündən sonra "(birinci halda)" sözləri əlavə edilsin;

1.2. 2.2-1-ci və 2.2-2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2-1. həmin Məcəllənin 45-ci maddəsinin 4-cü bəndinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2-2. həmin Məcəllənin 45-ci maddəsinin 4-cü bəndinin birinci cümləsində (hər üç halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;";

1.3. 2.2-3-cü bənd ləğv edilsin;

1.4. 2.7-ci, 2.8-ci və 2.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.7. həmin Məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin ikinci cümləsində (ikinci və üçüncü hallarda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir;

2.8. həmin Məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.9. həmin Məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin birinci cümləsinə əsasən ödənilən xidmət haqqının 43 faizi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin hesabına köçürülür.".

2. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.16-cı, 4.17-ci və 4.18-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.16. həmin Məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (üçüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

4.17. həmin Məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (dördüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi (yalnız Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən, o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

4.18. həmin Məcəllənin 106-cı maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

2.2. aşağıdakı məzmunda 4.19-cu bənd əlavə edilsin:

"4.19. Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 106-cı maddəsinin ikinci cümləsinə uyğun olaraq, həmin Məcəllənin 11.5-ci maddəsinə əsasən ödənilən xidmət haqqının 43 faizi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin hesabına köçürülür.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2020-ci il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanununun 2020-ci il iyunun 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257; 2015, № 5, maddə 542; 2018, № 3, maddə 447, № 4, maddə 679) 2.5-ci bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# "Siz hər bir Azərbaycan vətəndaşının yanındasınız"

Koronavirus pandemiyasının bütün dünyada tüğyan etdiyi bir vaxtda Azərbaycan əhalisinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin atdığı qətiyyətli addımlar vətəndaşlarımız tərəfindən böyük rəğbətlə qarşılanır. Azərbaycan vətəndaşları dövlət başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq məktublarında ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.



Sumqayıt şəhərindən şagird **Nərmin Hümbətli** yazır: "Möhtərəm cənab Prezident, mən 8-ci sinif şagirdiyəm. Məktəbimiz Azərbaycanın öndə gedən təhsil ocaqlarındandır və bunda Sizin rolunuz böyükdür. İndiki vəziyyətlə əlaqədar dərslərimizə evdən - "Dərs vaxtı" layihəsindən, onlayn dərslərdən və "Virtual məktəb" proqramından davam edirik. Buna görə də cənab Prezidentimiz, Sizə çox təşəkkür edirik. Dünyanı sarsan COVID-19 pandemiyası dövründə ölkəmizin əhalisinin sağlamlığının qorunması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması üçün gördüyünüz mühüm işlər göz önündədir. Qısa müddət ərzində modul tipli xəstəxanaların tikilməsi, tibbi maska və geyim istehsalı müəssisəsinin istifadəyə verilməsi və bir sıra başqa tədbirlər Sizin xalqa olan sevginizin və uzaqgörən siyasətinizin nəticəsidir ki, dünyada geniş yayılan bu xəstəliyin ölkəmizdə də bu cür sürətlə yayılmasının qarşısına böyük sədd çəkdi. Mən də məktəbli və bir həkim qızı olaraq Sizin sərəncamlarınız, tapşırıqlarınız və çağırışlarınıza diqqətlə qulaq asır və onları layiqincə yerinə yetirməyə çalışıram. Ümid edirəm ki, bu pandemiya tezliklə başa çatar və bütün çətinliklərdən olduğu kimi, bu çətinliyin də öhdəsindən gələrik. Xalqımız Sizi çox sevir, Sizin xarici və daxili siyasətinizə çox güvənir. Hər çətin günümüzdə Azərbaycan xalqının yanında olduğunuz üçün Sizə təşəkkür edir, işlərinizdə uğurlar, sağlam və işıqlı həyat yolu arzulayıram".

Sumqayıt şəhərinin daha bir sakini olan **Aişə Səfərlinin** məktubunda deyilir: "Möhtərəm cənab Prezident, bütün dünyanı çalxalayan koronavirus pandemiyasının ölkəmizə təsirləri Sizin sayənizdə minimum səviyyəyə endirildi. Yürütdüyünüz mükəmməl daxili və xarici siyasətin nəticəsidir ki, bu dövrdə digər başqa ölkələrdə baş verən böhran vəziyyəti ilə üzləşmədik. Bu çətin sınaq göstərdi ki, Azərbaycanın maliyyə dayaqları və infrastrukturu dayanıqlıdır. Biz buna Sizin rəhbərliyinizlə uzun illər görülən məqsədyönlü işlərin, çəkilən zəhmətin sayəsində nail olmuşuq. İnanırıq ki, bu yolu uğurla davam etdirəcəyik. Bütün bunlar üçün Sizə minnətdarıq".

Bakının Sabunçu rayonundan **Sənubər Səfərova:** "Hörmətli cənab Prezident, Sizə və ailənizə olan sevgim sonsuzdur. Sizlərə olan hörmət və sevgini çatdırmaq da mənə xoşbəxtlik hissləri yaşadır. Mən xarici ölkələrdə olanda Vətənim haqqında fəxr və qürur hissi ilə danışıram. Yaşadığım şəhərin gözəlliyindən, ölkəmin inkişafından bəhs edəndə bilirəm ki, bunlar Sizin sayənizdədir. Yorulmaz fəaliyyətinizə, əzmkarlığınıza görə Sizə minnətdarlığımı bildirir, Allahdan Sizə cansağlığı arzu edirəm. Ölkəmizin rəhbəri olduğunuza görə özümüzü rahat və güvənli hiss edirik. Sizin siyasətinizi dəstəkləyirik".

Gəncə şəhərindən **Fazil Səfixanov:** "Çox hörmətli cənab Prezident, pandemiya dövründə ölkəmizdə aparılan dezinfeksiya və təmizlik işlərinə görə Sizə minnətdarlıq bildirməyi özümə borc bilirəm. Mən fəxr edirəm ki, Sizin kimi qayğıkeş və humanist dövlət başçımız var. Azərbaycanın uğurlarını gözü götürməyən insanlara, bu ölkəyə qara ləkə kimi yapışan ünsürlərə, həmçinin xalqın çətin günündə xəyanətkar mövqe tutan şəxslərə qarşı mübarizənizi də dəstəkləyirəm. İnşallah, vətənimizi bəlalərindən təmizləyib ağ günlərə çıxaracaqsınız. Bu yolda bir vətəndaş olaraq hər zaman Sizinləyəm. Allah Sizi qorusun!"

Bakının Nəsimi rayonundan **Heyran Vəkilova:** "Hörmətli cənab Prezident, Sizə sadə, zəhmətkeş, ziyalı Azərbaycan vətəndaşlarının adından müraciət edərək təşəkkür etmək istəyirəm. Bütün dünyanı kabus kimi dolaşan, insanlarda qorxu hissi yaradan koronavirus pandemiyasına qarşı ölkəmizdə görülən tədbirləri dəstəkləyirik. Bütün xalqımız Sizin bizlərə görə amansız düşmənlə mübarizə apardığınızı gördü. Biz Sizinlə - uzaqgörən ölkə başçımızla fəxr edirik. Siz xalqın, yaşlı, aztəminatlı insanların qayğısını çəkir, xalqı bu bəladan qorumaq üçün gecə-gündüz çalışırsınız. Verdiyiniz qərarlarla, gördüyünüz qabaqlayıcı tədbirlərlə dünyaya örnək oldunuz. Allah Sizə, ailənizə, övladlarınıza uzun ömür, cansağlığı versin, xalqımızı bəlalardan qorusun. Ulu Tanrı Sizə kömək, xalqımıza dayaq olsun!"

Bakının Yasamal rayonundan **Sima Xudaverdiyeva:** "Hörmətli cənab Prezident, bu gün bütün dünya koronavirus pandemiyası ilə mübarizə aparır. Sizə və Mehriban xanıma bu pandemiyaya qarşı mübarizədə həyata keçirdiyiniz tədbirlərə görə dərin minnətdarlığımı bildirirəm. Mən karantin dövründə iki dəfə işsizlərə ayrılan birdəfəlik ödəmə, bundan əlavə ərzaq yardımı ilə təmin olundum. Sizin xalqsevərliyiniz, alicənablığınız və xeyirxahlığınız qarşısında baş əyir, Sizə və ailənizə cansağlığı, şərəfli işinizdə yeni uğurlar arzulayıram".

Tərtər rayonunun Yuxarı Qapanlı və Qazyan kəndlərinin sakinləri adından dövlət başçısına minnətdarlıq edən **Qədim Səfərov, Çingiz Cabbarov, Nəriman Əliyev** və **Cəfərov Altay** yazırlar: "Möhtərəm cənab Prezident, Sizin diqqət və qayğınız sayəsində Tərtər rayonunda 10 cəbhəyanı kəndi birləşdirən, uzunluğu 33,5 kilometr olan Səhlabad-Əskipara-Qarağacı-Yuxarı Qaradağlı-Qapanlı-Qaynaq-Yuxarı Qapanlı-Qazyan-Təzəkənd-Hüsənli avtomobil yolu əsaslı şəkildə yenidən qurulur. Ərazidə kommunikasiya xətləri qaydaya salınıb, su ötürücüləri qoyulub. Artıq yolun Səhlabad-Əskipara-Qarağacı-Yuxarı Qaradağlı-Qapanlı-Yuxarı Qapanlı-Qazyan kəndlərini birləşdirən hissəsinə asfalt döşənib. Avtomobil yolunun yenidən qurulması biz Yuxarı Qapanlı və Qazyan kəndlərinin sakinlərinin də böyük sevincinə səbəb olub. Çünki gediş-gəlişimiz rahatlaşıb, yük və sərnişin daşınması asanlaşıb, kənd təsərrüfatı məhsullarını mənzil başına vaxtında və itkisiz çatdırırıq. Möhtərəm cənab Prezident, biz cəbhə bölgəsinin sakinlərinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk. Nə yaxşı ki, Sizin kimi Prezidentimiz var. Tanrı Sizi qorusun! Biz tərtərlilər həmişə Sizinləyik!"

Lənkəran rayonunun Günəhir kəndindən müəllim **Mirzəhüseyn Miriyev:** "Hörmətli cənab Prezident, Sizin uzaqgörən, müdrik siyasətinizin, vaxtında verilən sərəncamlarınızın nəticəsi olaraq, ölkəmiz COVID-19 virusundan ən az itki ilə qurtulmaqdadır. Bu gözəgörünməz virusla mübarizədə vətəndaşların məlum qərarlarınızla dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatələnməsi, kasıb, imkansız, əlil və aztəminatlı ailələrə edilən maddi və mənəvi dəstək bir daha sübut edir ki, Siz hər bir Azərbaycan vətəndaşının yanındasınız. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciəti və eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən aztəminatlı, kasıb ailələrə, əlillərə edilən yardımlar xalqını sevən, onun sağlamlığını hər şeydən üstün tutan rəhbərimizlə fəxr etməyimizə haqq qazandırır. Azərbaycanda qısa müddətdə bu gözəgörünməz düşmənlə mübarizə üçün tikilən klinika və modul tipli xəstəxanalar, innovativ sənaye əsasında yaradılmış tibbi resurslar, o cümlədən tibbi maska və tibbi geyimlər istehsal edən müəssisələrin işə başlaması Sizin uzaqgörən siyasətinizin nəticəsidir. COVID-19 pandemiyası dövründə xalqın sağlamlığı, sosial rifahı üçün göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımı bildirirəm. Bu bəlaya az itki ilə qalib gəlməyiniz üçün Allahdan Sizə güc, qüvvət arzu edirəm. Qətiyyətli qərarlarınızla bir daha sübut etdiniz ki, hər bir vətəndaşın yanındasınız. Sizə və ailənizə Allahdan cansağlığı, uzun ömür və xoşbəxtlik arzu edirəm".

Şəmkir rayonunun Düyərli kəndindən **Kifayət İbrahimova:** "Möhtərəm cənab Prezident, bu pandemiya dövründə gördüyünüz tədbirlər üçün Sizə çox təşəkkür edirəm. Sizin uzaqgörənliyiniz və müdrikliyiniz hesabına Azərbaycan xalqı həmişə bir addım öndə olmuş, böyük təhlükə yarada biləcək hadisələrə qarşı vaxtında və sanballı işlər görmüşdür. Hazırda dünyanın bəlasına çevrilən koronavirusla mübarizə dövrü də bunu bir daha göstərdi. Cənab Prezident, biz hər birimiz əminik ki, Sizin xalqımıza göstərdiyiniz qayğı, həyata keçirilən ciddi və ardıcıl tədbirlər ölkəmizi koronavirus bəlasından tezliklə qurtaracaq. Allah Sizi və ailənizi pənahında saxlasın!"

Salyan rayonunun Sarvan kəndindən şəhid atası **Cahangir Qaraşov** yazır: "Möhtərəm cənab Prezident, son illər ərzində Azərbaycanın bütün bölgələrində olduğu kimi, doğma Salyanın da hər yerində abadlıq və quruculuq işləri geniş vüsət almışdır. Kənd təsərrüfatının inkişafı, insanlara qayğı və diqqət üreyimizcədir. Xüsusilə qeyd etmək istəyirəm ki, aqrar sahənin inkişafına verilən dəstək sahəsində həm əkin sahələri genişlənir, həm də insanların güzəranı yaxşılaşır. Torpağa bağlanmaq və əkin-biçin işləri aparmaq istəyən vətəndaşlar üçün geniş imkanlar və əlverişli şərait yaradılmışdır. Əziz Prezidentimiz, bütün bunlara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə yaşadığım Sarvan kəndinin ağsaqqalları, ziyalıları və şəhid ailələri adından Sizi təbrik edir, Sizə və ailənizə Ulu Tanrıdan cansağlığı və işlərinizdə uğurlar arzulayıram".

Binəqədi rayonunun Biləcəri qəsəbəsindən **Qənbər Hümbətov:** "Möhtərəm cənab Prezident, vətəndaşların rahatlığı və sağlamlığı üçün verdiyiniz hər bir qərara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin rəhbərliyinizlə ölkəmizdə həyata keçirilən tədbirlər həm insanların koronavirus xəstəliyindən qorunması, həm də iqtisadiyyatımızın böhrandan xilas olması ilə nəticələndi. Bu infeksiyanın dünyanın ən qüdrətli ölkələrində böyük tələfatlara səbəb olsa da, Azərbaycana ciddi ziyan vura bilməməsi bir daha göstərdi ki, respublikamızda dövlət və xalq birliyi güclüdür. Xalqın dövlətə, rəhbərliyə sevgisi və hörməti sonsuzdur. Ailəmiz adından bir daha Sizə minnətdarlıq edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Biz həmişə Sizi dəstəkləyirik".

Salyan rayonunun Kürsəngi kəndindən **Ağa Ağamaliyev, Nurlan Bürcəlizadə, Elşən Aydınov, İslam İmanov** və **Şamxal Məhərrəmov** yazırlar: "Hörmətli cənab Prezident, Sizin Salyan rayonuna səfəriniz çərçivəsində Kürsəngi kəndində pambıqçılarla görüşünüz zamanı pambıqçılığın zəngin ənənələrinin bərpa edilməsi və bu sahənin əvvəlki şöhrətinin qaytarılması üçün müvafiq tapşırıqlar verməyiniz bizim üçün əvəzsiz töhfə olmuşdur. Pambıqçılığın inkişaf etdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir və bunun nəticəsi olaraq pambıqçılıqda çoxsaylı iş yerləri yaranmışdır. Bu, kəndimizin əhalisinin maddi vəziyyətini yaxşılaşdıraraq dövlətimizə və ümumi işimizə xeyir vermişdir. Möhtərəm Prezident, pambıqçılığa böyük yer verdiyiniz üçün kənd əhalisi işlə təmin olunub, hamı işləyir, qazanır, evinə çörəkpulu aparır. Kürsəngi kəndinin gənclərinin adından Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun. Allah Sizə cansağlığı, uzun ömür versin!"

Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsindən **Xalidə Tapdıqova:** "Əziz Prezidentimiz, biz fəxr edirik ki, Sizin kimi dövlət başçımız var. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olaraq xalqımızın üzləşdiyi çətin günlərdə həmişə çıxış yolu tapıb xalqı öz arxanızca aparmısınız. Pandemiya dövründə də çox ciddi tədbirlər gördünüz, Azərbaycan xalqını qorudunuz. Dünyanın bir çox ölkələri ilə müqayisədə Azərbaycan az itki verdi. Biz qocalara xüsusi həssaslıqla yanaşılması cəmiyyətdə böyük rəğbətlə qarşılandı. Ona görə də bütün ailəmin adından Sizə çox-çox minnətdarlıq edirəm. Allah Sizə ailənizlə birlikdə möhkəm cansağlığı, uzun ömür versin!"

Bakı Dövlət Universitetinin tələbə-gəncləri adından **Nicat İsmayılov** yazır: "Əziz Prezidentimiz, dünyanı koronavirus adlı gözəgörünməz düşmənin silkələdiyi çətin bir zamanda xalqımızın sağlamlığı naminə gördüyünüz çox böyük işlər bu məktubu Sizə ünvanlamaq üçün mənə ruh və cəsarət verdi. Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatında birləşən minlərlə gənc bu gün Sizin hər bir addımınızı diqqətlə izləyir, xalqımızın rifahı naminə verdiyiniz qərarları çox böyük məmnuniyyət hissi ilə bəyənir və dəstəkləyir. Siz uğurlu siyasətiniz, qətiyyətli addımlarınız, vətənə və xalqa sonsuz sevginizlə bu gün biz gənclərin bənzəmək istədiyimiz qəhrəmanımıza çevrilmisiniz. Möhtərəm cənab Prezidentimiz, Sizin və çox sevdiyimiz hörmətli Mehriban xanımın xüsusi diqqəti, qayğısı sayəsində xalqımız koronavirusla dünyanın ən nəhəng dövlətlərinin belə həsəd aparacağı əzmkarlıqla mübarizə aparır. Azərbaycanda yaşayan, doğma ölkəmizin vətəndaşı olan hər bir insan üçün Siz çətin günün dostu, arxa-dayağı oldunuz. "Biz birlikdə güclüyük!" deməklə xalqımızı səfərbər etdiniz. Hamı bu fikrin ətrafında sıx birləşərək həmrəylik göstərdi. Eyni zamanda, qeyd etməliyik ki, insanların həyatının qorunmasına, təhlükəsizliyinin təmin olunmasına, rifahının yüksəldilməsinə xidmət edən mükəmməl daxili siyasətiniz ölkəmizin beynəlxalq imicinin möhkəmlənməsinə yönəlmiş xarici siyasətlə tamamlanır. Qoşulmama Hərəkatına üzv olan ölkələrin dövlət başçıları ilə Sizin birbaşa təşkilatçılığınızla keçirilən videokonfrans Azərbaycanın dünyada söz sahibi olan dövlətlərdən olduğunu bir daha sübut etdi. Biz tələbə-gənclər bütün bunları görür, Sizinlə həmrəy olur, Sizinlə qürur duyuruq. Qoy hamı bilsin ki, biz hər zaman sevimli Prezidentimizləyik, Sizin qərarlarınızı ürəkdən bəyənirik və dəstəkləyirik".

---

Milli Məclisin iclasında

# Parlamentin növbədənkənar sessiyası başladı

*Əvvəli 1-ci səh.*



Ölkə rəhbərinin fikirləri milli iftixar duyğusu yaratmaqla bərabər, tarixin dərslərindən nəticə çıxarıb dövlətçiliyimizi inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Hazırda Naxçıvandan gəlmək istəyənlər üçün hava yolundan başqa yol olmadığını da diqqətə çatdıran İsa Həbibbəyli bu işlərin mümkün qədər tezləşdirilməsini, həmçinin virusun xaricdən gəldiyini nəzərə alaraq, beynəlxalq uçuşlarla müqayisədə Naxçıvandan gələnlər üçün sadələşmiş qaydalardan istifadə olunmasını təklif etdi.

Deputat Razi Nurullayev ictimai nəzarətlə bağlı fikirlərini bildirdi. Dövlət qurumlarında ictimai şuraların yaradılmasını, deputatlardan ibarət nəzarət mexanizmlərinin formalaşdırılmasını təklif etdi. Aqil Abbas isə kitabxanaların ləğvinin, həmçinin kitabxana işçilərinin ixtisar edilməsinin yolverilməz olduğunu bildirdi.

## Aprel döyüşləri Ermənistan cəmiyyətini parçaladı

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Ermənistanda aprel döyüşlərinin nəticələrini araşdırmaq üçün 2016-cı ildə yaradılmış İstintaq Komissiyasının apardığı təhqiqatla bağlı danışdı. Bildirdi ki, işğalçı ölkədə aprel döyüşlərindən sonra əsas hərbi və siyasi rəhbərlik kreslolarını və bir vaxtlar işğal hesabına qazandıqları nüfuzu itiriblər. Serj Sarkisyan, Seyran Ohanyan, bir neçə ordu generalı nəinki vəzifələrindən gedib, eləcə də istintaqa çağırılıblar. MDB Kollektiv Təhlükəsizliyinə 2017-ci ildə baş katib təyin olunub, amma bir il sonra vəzifəsindən çıxarılan Yuriy Xaçaturov da izahat verməyə çağırılanlar sırasındadır: "İstintaq Komissiyasının işi ətrafında böyük ictimai maraq var və ermənilər aprel müharibəsinə görə cəza tələb edirlər. Bu, Azərbaycan dövlətinin qələbəsidir. Ermənistanın hərbi və siyasi baxımdan parçalanması, keçmiş səhra komandirlərinin məhkəməyə çəkilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin 4 günlük müharibəsinin nəticəsidir. Ermənistanın inqilabi hakimiyyəti aprel müharibəsinin yenidən təkrarlanmaması üçün məhkəmə qurur və günahkarları tapmağa çalışır. Nəticə bizim xeyrimizədir".

## Məcburi köçkünlərə faizsiz ssudaların ayrılması təklif olunur

"Bu gün Azərbaycanda məcburi köçkünlərə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir, onlar üçün müasir qəsəbələr və yaşayış kompleksləri tikilir. Bununla yanaşı, məcburi köçkünlərə fərdi ev tikmək üçün torpaq sahələrinin və faizsiz ssudaların ayrılması onların problemlərinin həllinə böyük dəstək olar".

Bunu isə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bildirdi. Onun sözlərinə görə, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanunda bu məsələ nəzərdə tutulur: "Həmin qanunda yazılıb ki, yaşayış yerindən asılı olaraq məcburi köçkünlərə yaşamaq üçün torpaq sahəsi və faizsiz ssuda ayrılsın ki, onlar özləri üçün fərdi mənzillər tikə bilsinlər. Elə yerlər var ki, orada məcburi köçkünləri kompakt şəkildə köçürmək mümkün deyil. Ona görə də yaxşı olardı ki, rayonlarımızın ərazisində ayrı-ayrı yerlərdə məskunlaşmış və təsərrüfatla məşğul olan məcburi köçkünlərə bu ssudaların verilməsi üçün fond yaradılsın, həmin torpaqda özlərinə fərdi evlər tiksinlər və beləliklə də onların sosial həyat şəraiti də yaxşılaşsın".

## İlham Əliyev demokratik cümhuriyyətin Prezidentidir

"İndi üç-beş adam özünü demokratik cümhuriyyətin varisi hesab edir. Ancaq demokratik cümhuriyyətin varisi bizik". Bunu isə parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirdi. Onun sözlərinə görə, bugünkü müstəqil Azərbaycan dövləti demokratik cümhuriyyətin varisidir: "Bugünkü müstəqil Azərbaycan Prezidenti həm də demokratik cümhuriyyətin Prezidentidir. Həmin yolun davamçısıdır. Bu gün demokratik cümhuriyyətdən xəbəri olmayanlar indi özlərini varis hesab edirlər. Onlar kimdirsə bunu özləri müəyyənləşdirsinlər. Onlar vətən xainləridir, dövlətin, millətin əleyhinə düşmənçilik siyasəti aparanlardır. Erməni lobbisi ilə birləşib Azərbaycana qarşı qarayaxma kampaniyası aparanlardır. Onlardan hansı demokratik cümhuriyyətin varisi ola bilər ki?"

Sosial şəbəkələrlə bağlı çıxış edən Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirdi ki, son zamanlar ölkəmizin nüfuzlu insanlarına qarşı terrora çağırışlar edilir. Qeyd etdi ki, ən çox təhqirə məruz qalan şəxslərdən biri məhz odur: "Hesab edirəm ki, bununla bağlı Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsinə ehtiyac var. Milli Məclisin müvafiq komitəsi tərəfindən bununla bağlı işlər görülməli və tanınmış hüquqşünaslar bu işə cəlb olunmalıdırlar".

Adil Əliyev dedi ki, hazırda dünyada 4,54 milyard sosial şəbəkə istifadəçisi var: "Sosial şəbəkələrin bir çoxu ABŞ-da yaradılıb və ofisləri oradadır. Lakin ABŞ-da sosial şəbəkələrlə bağlı qanun layihəsi hazırlanıb. Layihənin əsas məqsədi terrorçuluqla və digər hallarla bağlı çağırışların qarşısını almaqdır".

Müzakirələr zamanı parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlardan Ceyhun Məmmədov, Erkin Qədirli, Anar İsgəndərov, Rauf Əliyev, Sahib Alıyev, Aydın Mirzəzadə, Azər Kərimli, Fazil Mustafa, Məlahət İbrahimqızı, Jalə Əliyeva və Arzu Nağıyev bir sıra məsələlərə dair fikirlərini bildirdilər.

## Məqsəd vətəndaşları qorumaqdır

Sonra gündəlikdəki məsələnin müzakirəsi başladı. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə (ikinci oxunuş) Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Fəzail Ağamalı məlumat verdi.

Müzakirələr zamanı parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, deputatlardan Azər Badamov, Razi Nurullayev, Əli Məsimli, Cavid Osmanov, Musa Qasımlı, Ceyhun Məmmədov, Naqif Həmzəyev qanun layihəsi ilə bağlı fikirlərini bildirdilər və təkliflərlə çıxış etdilər. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, hazırda fərdi maskalardan istifadənin zəruri olduğu yerlərlə bağlı Nazirlər Kabinetinin qərarı qüvvədədir. Onun sözlərinə görə, burada məqsəd vətəndaşları cərimələmək deyil, onları qorumaqdır.

Müzakirələrin yekununda qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib

İyunun 1-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli iclasda Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılacağını bildirib. Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan hər iki qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılır. Qeyd edilib ki, eyni zamanda "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanun layihəsinə üçüncü oxunuşda baxılacaq.

Əvvəlcə, komitə üzvü Əminə Ağazadə Cinayət-Prosessual Məcəlləsinə ediləcək dəyişikliklər barədə məlumat verib. Qeyd olunub ki, bu dəyişikliklər bir neçə istiqamət üzrə hazırlanıb. Birinci istiqamət Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə verilmiş tapşırıqların icrası ilə bağlıdır. Belə ki, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə məcəlləyə bir sıra dəyişikliklər təklif olunur. Bu dəyişikliklər "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini, müasir informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edilməklə, xüsusi hallarda cinayət prosesinin videokonfrans vasitəsilə davam etdirilməsini təmin edən yeni maddələrin əlavə edilməsini, məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılmasını və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibini nəzərdə tutur.

Növbəti istiqamət cinayət mühakimə icraatında kassasiya şikayəti icraatının təkmilləşdirilməsindən ibarətdir. Digər istiqamət isə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraatın prosessual qaydaları ilə bağlıdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə həmin qaydaları ehtiva edən yeni 59-cu fəslin əlavə edilməsi təklif olunur.

Bu dəyişikliklərin 2020-ci il iyul ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutulub.

Komitə sədri Əli Hüseynli məsələ ilə bağlı çıxışında bildirib ki, son dövrlərdə məhkəmə-hüquq sistemində müxtəlif istiqamətlərdə, o cümlədən kadr, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı islahatlar dərinləşir. Həmçinin bu sahədə müasir informasiya vasitələrinin tətbiqi böyük əhəmiyyət kəsb edir. Deputatlar Tahir Kərimli, Erkin Qədirli, Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Nizami Səfərov qanun layihəsi barədə öz fikirlərini açıqlayıblar, təklif olunan dəyişiklikləri məqsədəmüvafiq hesab ediblər.

Sonra komitə sədri Əli Hüseynli "Məhkəmə-Hüquq Şurası haqqında" Qanuna təklif olunan dəyişikliyi diqqətə çatdırıb. Bildirilib ki, qanunun 13.3-1-ci maddəsinin birinci cümləsinə "o cümlədən məhkəmələrin fəaliyyətinin monitorinqi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar" sözləri əlavə edilir.

Qeyd olunan əlavədən sonra buradakı fikir aşağıdakı şəkildə səslənəcək: "Hakimin (ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla) fəaliyyətində peşəkar çatışmazlıqlar, o cümlədən məhkəmələrin fəaliyyətinin monitorinqi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar aşkar edildikdə, onun fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən olunmuş vaxtda təkrarən, lakin 6 aydan tez və 2 ildən gec olmamaqla qiymətləndirilir".

Bu dəyişiklik ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması sahəsində görülən tədbirlər çərçivəsində məhkəmələrin fəaliyyətinin monitorinq sisteminin təkmilləşdirilməsi məqsədini daşıyır.

Komitə sədri daha sonra üçüncü oxunuşda müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı bildirib ki, sənəddə nəzərdə tutulan dəyişikliklər profilaktik əhəmiyyət daşıyır, hadisələrin qarşısının alınmasına yönəlib.

Diqqətə çatdırılıb ki, məcəlləyə edilən əlavələrə əsasən, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilirlər.

Xətanın təkrar törədilməsinə görə fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilirlər.

Komitə üzvləri Azay Quliyev, Erkin Qədirli, Fəzail Ağamalı məsələnin əhəmiyyəti ilə bağlı fikirlərini açıqlayıblar.

Müzakirələrin sonunda hər üç sənəd Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# İlham Əliyevin 111-ci hədiyyəsi

## Prezident qlobal pandemiya ilə mübarizə dövründə də xoşməramlı missiyasını davam etdirərək daha 1336 məcburi köçkün ailəsinə sevinc bəxş etdi



Əvvəli 1-ci səh.

Kompleksə əsasən Yasamal rayonundakı yataqxanalarda məskunlaşan məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulub.

### Məcburi köçkünlərin məşğulluğu, uğurlu biznes-layihələri həyata keçirilir

"Qobu Park-3" yaşayış kompleksi qaçqın və məcburi köçkünlər üçün salınmış 111-ci qəsəbədir. Kompleksin ərazisində istehsalat sahələri, ticarət obyektləri və digər zəruri infrastruktur yaradılıb. Ərazidə sakinlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə istirahət parkı salınıb, uşaq əyləncə meydançaları quraşdırılıb, geniş yaşıllıq və işıqlandırma işləri görülüb. Burada həm də 3 idman meydançası və 360 yerlik açıq avtomobil dayanacağı sakinlərin ixtiyarına veriləcək.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırılan layihələr isə məcburi köçkünlərin məşğulluğunun biznes-layihələr vasitəsilə təmin olunması məqsədi daşıyır. İlk dəfədir ki, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazidə istehsal müəssisələri qurulub. Yumşaq, plastik oyuncaqlar və tekstil məhsullarının istehsal olunacağı müəssisədə 40-dan çox iş yerinin açılması nəzərdə tutulur. Müəssisədə gün ərzində 1000-ə yaxın yumşaq və 500-ə yaxın plastik oyuncaq istehsal ediləcək. Yumşaq oyuncaq təxminən 15-20, plastik oyuncaqlar isə 10 çeşiddə olacaq.

Sterilizə olunmuş tibbi ləvazimatların istehsalı müəssisəsində isə tibbi heyət üçün üst geyimləri və kombinezonlar istehsal ediləcək. Müəssisədə 25 nəfər işlə təmin olunacaq. Ümumilikdə müəssisələrdə çalışacaq işçi heyətin 80 faizi "Qobu Park-3"ün sakinlərindən formalaşdırılacaq. Şirkətlər icarə xərclərindən azad olunub ki, bu da müvafiq layihələrin kompleksdə reallaşdırılmasını sahibkarlar üçün cəlbedici edir. Layihələr yalnız sosial əhəmiyyəti ilə seçilmir. Onlar eyni zamanda biznesyönümlüdür. Belə ki, hər iki müəssisədə istehsal olunacaq məhsullar rəqabətqabiliyyətlidir və idxalı əvəz edəcək.

### Bu il hədəf 7-8 min məcburi köçkün ailəsinin mənzillərlə təmin edilməsidir

Prezident İlham Əliyev indiyədək həyata keçirilən bu xoşməramlı missiyadan danışarkən vurğuladı ki, məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Yeni kompleksə köçəcək insanlar uzun illər çox ağır vəziyyətdə yaşayıblar. Yeni, tam təmirli mənzillər, əlbəttə ki, bu ailələrə böyük sevinc bəxş edəcək.

Göründüyü kimi, dövlət qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görür. İndiyədək 111 şəhərciyin salınması böyük uğurdur.

Prezidentin də söylədiyi kimi, son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürsə də, Azərbaycanda məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur və heç bir proqram ixtisar edilməyib. Hətta ötən il məcburi köçkünlər üçün rekord sayda (5 minə yaxın) evlər-mənzillər tikilib.

Bu il isə qarşıya qoyulan hədəf 7-8 min məcburi köçkün ailəsinin evlərlə, mənzillərlə təmin edilməsidir: "Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq".

Onu da əlavə edək ki, dövlət məcburi köçkünlərin sosial təminatının yaxşılaşdırılması üçün də ciddi addımlar atır. Keçən il məcburi köçkünlərə verilən müavinətin həcmi 50 faiz artıb. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir.

Bir sözlə, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır. Cənab Prezidentin açılış mərasimindəki çıxışı, məcburi köçkünlərə, qaçqınlara və xalqa olan müraciəti həm dövlət başçısının, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısının, diqqətinin təzahürüdür.

Bütün bunlar qaçqınların və məcburi köçkünlərin Azərbaycan Prezidentinin, Heydər Əliyev Fondunun daim xüsusi diqqət mərkəzində olduğunu aydın şəkildə nümayiş etdirir. Bu diqqət və qayğını daim öz üzərində hiss edən məcburi köçkünlər cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində tezliklə doğma yurda qayıdacaqları günün uzaqda olmadığına əmindirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Pandemiya vəziyyəti davam edir, arxayınlaşmaq hələ tezdir

## Maskalardan istifadə etməmək, sosial məsafəni qorumamaq ölkəmizdə koronavirusa yoluxmanı qarşısıalınmaz edə bilər



Əvvəli 1-ci səh.

Elə bu səbəbdən də artıq karantin rejimi yumşaldılıb və ölkə üzrə mərhələli çıxış planı həyata keçirilir.

Amma təəssüflə bildirmək lazımdır ki, məhdudiyyətlər aradan qaldırıldıqca, ölkəmizdə koronavirus infeksiyasına yoluxma halları çoxalır. Bunun əsas səbəbi isə Operativ Qərargah tərəfindən müəyyən olunmuş qaydalara, sosial izolyasiya tədbirlərinə əməl edilməməsi, xüsusilə maska taxılmamasıdır.

Mütəxəssislər bununla bağlı həyəcan təbili çalır və tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməməyin ağır nəticələr yarada biləcəyi barədə xəbərdarlıq edirlər.

### Tənəffüs yollarınızı qoruyun

Nazirlər Kabineti "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə" qəbul etdiyi qərara əsasən, Azərbaycan Respublikasının ərazisində yeni növ koronavirus (COVID-19) infeksiyasının insanlar arasında kütləvi yayılmasının qarşısının alınması məqsədilə aşağıda qeyd edilən hallarda sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə edilməlidir.

Şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələrində (avtobus, taksi, metro, dəmiryolu və s.) bazarlarda, qapalı ictimai iaşə, ticarət və xidmət obyektlərində (həmin obyektlərdə göstərilən xidmət növündən asılı olaraq tənəffüs yollarını qoruyan fərdi vasitələrin çıxarılmasının zəruri olduğu hallar istisna olmaqla) maska taxmaq məcburidir.

### Açıq havadakı ictimai yerlərdə də maska taxılmalıdır

Həmçinin dövlət orqanlarının (qurumlarının) binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə, fiziki və hüquqi şəxslərə məxsus binaların müştərilərə xidmət göstərilməsi üçün istifadə edilən sahələrində, açıq sahəli ofislərdə və istehsalat yerlərində, tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda, ibadət yerlərində, elm və səhiyyə müəssisələrində, sosial, mədəniyyət və digər qapalı obyektlərdə maska taxmaq zəruridir.

Nazirlər Kabinetinin qərarına əsasən, ictimai nəqliyyat dayanacaqlarında, bilet kassalarının, bankomatların (ATM) və ödəniş terminallarının, ticarət, iş və xidmət obyektlərinin qarşısında növbədə, habelə insanların toplaşdığı və yaxın təmasda olduğu açıq havadakı ictimai yerlərdə onlar arasında sosial məsafənin qorunmasının mümkün olmadığı digər hallarda da maskadan istifadə etmək lazımdır.

Qərarda o da vurğulanır ki, tənəffüs yollarını qoruyan fərdi vasitələrin istifadəsi yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı digər qoruyucu tədbirləri (gigiyena, sosial məsafə və s.) əvəz etmir və həmin qoruyucu tədbirlərin görülməsi davam etdirilməlidir.

### Müəyyən edilən tələbləri pozanlar cərimələnəcək

Bu qərarın 1-ci hissəsinin tələblərinin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Bildirək ki, uzun müddətdir ayrı-ayrı ölkələrdə tətbiq olunan qaydaların pozulmasına, xüsusilə fərdi qoruyucu vasitələrdən istifadə etməməyə görə yüksək məbləğdə cərimələr, hətta həbs cəzası da tətbiq olunur.

Artıq Azərbaycanda da epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə cərimələr müəyyənləşdirilib.

### Koronavirusa yoluxmamaq mümkündür

İndi koronavirusla mübarizənin yeni mərhələsindəyik. Neçə vaxtdır virusla mübarizə apararaq, addım-addım onu yox etməyə doğru irəliləyirik. Həyatımızın normal məcraya düşməsinə çox az bir zaman qalıb. Və bunun tez bir zamanda olması isə birbaşa vətəndaşlarımızın sosial məsuliyyətindən və qoyulan qaydalara riayət etməsindən asılıdır.

Hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməlidir.

Bu bir həqiqətdir ki, koronavirusun yoluxma sürətinin insanlar arasında yüksək olmasına baxmayaraq, adi gigiyenik tələblərə və sosial izolyasiya qaydalarına riayət etməklə ona yoluxmamaq və qorunmaq mümkündür. Xüsusilə də maskadan istifadə, əllərin mütəmadi yuyulması, dezinfeksiya edilməsi və sosial məsafənin qorunması çox vacibdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Koronavirusla səmərəli mübarizə vətəndaş məsuliyyətinə bağlıdır

## İri ticarət mərkəzlərində sanitar-epidemioloji qaydalara riayət olunması mütləqdir

Dünyanı sarsıdan COVID-19-a qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən nümunəvi ölkələr sırasında ölkəmizin adı öndə çəkilir. Azərbaycan xalqının sağlamlığını düşünərək virusun yayılmasının qarşısını almaq üçün dərhal qabaqlayıcı, çevik tədbirlər həyata keçirən azsaylı və ilk dövlətlərdəndir. Məhz vətəndaşlarının həyat və sağlamlıqlarının daha səmərəli qorunması, koronavirusun yayılma sürətinin qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimini növbəti dəfə uzatmaq qərarı verdi. Bununla belə, xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin daha bir qismi növbəti dəfə yumşaldıldı. Qərara əsasən ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"ların fəaliyyətinə qoyulan qadağa aradan qaldırıldı. Beləliklə, iki aydan çoxdur bağlı qalan iri ticarət mərkəzləri və "Mall"lar (nəzdindəki uşaq və digər əyləncə mərkəzləri, kinoteatrlar, ictimai iaşə məkanları istisna olmaqla) iyunun 1-dən yenidən fəaliyyətə başladı. Ancaq, əlbəttə, yeni qaydalar əsasında...

Belə ki, fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) müxtəlif ticarət sahələrində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması, profilaktikası məqsədilə metodik vəsait hazırlayıb. Obyekt sahibləri, vətəndaşlar bu qaydalara mütləq şəkildə riayət etməlidirlər.

### Davamlı dezinfeksiya tədbirləri vacibdir

Metodik vəsaitdə qeyd olunur ki, ticarət mərkəzlərinin daxilində tibbi maskadan istifadə məcburidir. Ticarət mərkəzlərindəki apteklərdə tibbi maskaların satışı təmin edilməlidir. Eyni zamanda bu məkanlarda xüsusi tibb məntəqələri ayrılmalı və tibbi personal müvafiq təlim keçməlidir.

Ticarət mərkəzlərinin girişlərində xüsusi ayrılmış sahədə mərkəzə daxil olan vətəndaşların məsafədən termometriyası aparılmalıdır. Hərarəti yüksək olan və infeksiya simptomları olan şəxslər tibb məntəqəsində izolyasiya edilməli, sağlamlıq vəziyyəti qiymətləndirilməli, zərurət yarandıqda 103 TTTY xidməti dəvət edilərək tibb müəssisəsinə göndərilməlidir.

Ticarət mərkəzinin ayrı-ayrı sahələrində davranış və dezinfeksiya qaydaları müvafiq sahələrin qaydalarına uyğun icra edilməlidir.

Geyim satışı obyektlərində dəyişmə otaqlarında, kosmetika və ətriyyat satışı dükanlarında isə nümunə üçün ayrılmış kosmetik vasitələrin istifadəsi qadağandır. Qızıl, digər bəzək əşyalarının satışı və lombard fəaliyyəti müəssisələrində, eləcə də mobil cihazların, ehtiyat hissələrinin və aksesuarların satışı və təmiri mərkəzlərində müştəri tərəfdən əşyaya toxunmazdan əvvəl və sonra əllər dezinfeksiya olunmalıdır.

Ticarət mərkəzlərində təmizlik-dezinfeksiya işləri iş saatı ərzində mütəmadi olaraq əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatlarından sonra isə bütün sahələrdə həyata keçirilməlidir. Dezinfeksiya işlərinin həyata keçirildiyi sahə bu işlər başa çatdıqdan sonra havalandırılmalıdır. Dezinfeksiyaedici maddələrin istifadə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməlidir.

Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri:

- giriş-çıxışlardakı ayaqaltlıqlar (xlor tərkibli məhlul və ya digər);
- qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- istehlakçıların şəxsi əşyalarının saxlanılması üçün nəzərdə tutulan dolablar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- məhsulların saxlandığı rəflər, stellajlar, daşındığı araba və səbətlər (spirt tərkibli məhlul və ya digər);
- çoxmərtəbəli müəssisələrdəki eskalatorlar və onların tutacaqları, liftlər (spirt tərkibli məhlul və ya digər);
- döşəmələr (xlor tərkibli məhlul və ya digər);
- soyuducuların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- soyunub-geyinmə otaqları (xlor tərkibli məhlul və ya digər);
- sanitar qovşaqlar (xlor tərkibli məhlul və ya digər);
- anbarlar (xlor tərkibli məhlul və ya digər);
- tullantıların yığıldığı sahələr (xlor tərkibli məhlul və ya digər);
- tullantı qabları (spirt tərkibli məhlul və ya digər);
- ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər);
- kassada yerləşən konveyerlər (spirt tərkibli məhlul və ya digər).

### İşçi heyətin şəxsi gigiyenası və müayinəsi

İşə başlamazdan, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşaqdan istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra işçi əllərini təmiz yumalı və ya dezinfeksiya etməlidir. İş zamanı özündə COVID-19-a spesifik olan əlamət hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 TTTY müraciət edilməlidir:

- xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir;
- həmin işçidə laborator üsulla COVID-19 təsdiqləndiyi halda onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdır.

Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərti ilə taxılmalıdır. Maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır). Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır. Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir. Birdəfəlik maskalardan təkrar istifadə etmək olmaz. Birdəfəlik maskaların istifadəsindən sonra onların zərərsizləşdirilməsi və kənarlaşdırılması zəruridir.

Sadalanan tövsiyələrə riayət etmək hər kəsin sağlamlığı naminə mütləq və zəruridir. Yalnız obyekt sahibləri, icarədarlar deyil, vətəndaşlar da bu qaydalara mütləq şəkildə riayət etməli, diqqətli və məsuliyyətli olmalıdırlar. Hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməlidir.

Azərbaycan dövləti koronavirus (COVID-19) infeksiyası ilə mübarizə sahəsində bütün zəruri tədbirləri həyata keçirir. Məhz bunun nəticəsində ölkəmizdə pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq mümkün olub. Ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsəd güdür - vətəndaşları maksimum dərəcədə qorumaq. Lakin xəstəliklə mübarizədə müsbət nəticələrə nail olmaq üçün təkcə dövlət tərəfindən görülən işlər kifayət deyil. Həyata keçirilən tədbirlər vətəndaşların qoyulan qaydalara ciddi riayət etməsi ilə müsbət nəticə verə bilər. Hazırkı dövrdə pandemiya ilə səmərəli mübarizə bilavasitə vətəndaşların davranışı və bu məsələyə məsuliyyətlə yanaşmasından, eləcə də fəaliyyətinə icazə verilən sahələrdə rəhbər şəxslərin karantin rejimi qaydalarına riayət etməsindən birbaşa asılıdır. Pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda bu xəstəliyə qarşı peyvənd tapılmadığından virusla mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir.

Bir də unutmayın ki, qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Ölkənin bütün imkanları əhalinin sağlamlığının qorunmasına və sosial müdafiəsinin təminatına yönəlib

Əvvəli 1-ci səh.

Prezidentin bu bəyanatı sonrakı günlərdə əməli tədbirlərlə davam etdi. İşsiz vətəndaşların, aztəminatlı ailələrin, qeyri-formal məşğulluq fəaliyyəti göstərən insanların sosial müdafiəsini təmin etmək üçün 600 min nəfərə iki ay ərzində 190 manat vəsait ödənildi. Bu gün ölkədə 80 min ailəyə ünvanlı sosial yardım proqramı çərçivəsində orta hesabla hər ay 220 manat vəsait verilir. Eyni zamanda yeni iş yerləri açılır, özünüməşğulluq proqramlarından 12 mindən, ödənişli ictimai işlərdən 90 mindən çox insan faydalanır.

Dünyada neftin qiymətinin kəskin aşağı düşməsi səbəbindən dövlətin gəlirlərinin azalmasına baxmayaraq, Prezident İlham Əliyev bəyan etdi ki, heç bir sosial proqram ixtisar edilməyəcək. Cari ildə məcburi köçkünlər üçün salınan növbəti qəsəbənin açılışı da sübut etdi ki, dövlət başçısı vədinə sadiqdir. Bugünədək 7600 şəhid ailəsi dövlət tərəfindən fərdi ev və mənzillərlə təmin edilib. Cari ildə isə rekord həddə - 1500 şəhid ailəsi yeni ev və mənzillə təmin ediləcək.




İndi dünyada koronavirus pandemiyası bir qədər səngisə də, dövlət başçısı ölkənin səhiyyə sahəsinin maddi-texniki bazasının gücləndirilməsinə xüsusi diqqət yetirir. Hazırda hər cür şəraiti olan 20 xəstəxanada koronavirusa yoluxanlar müalicə olunur və bu sahədə heç bir problem yoxdur. Lakin Prezidentin ayırdığı vəsaitlə əlavə 10 modul xəstəxananın tikintisinə başlanıb. Artıq istifadəyə verilməsinə başlanmış həmin xəstəxanaların tikintisində məqsəd Azərbaycan vətəndaşlarının hər cür xəstəliklərdən daha etibarlı qorunmasını təmin etməkdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Bu da bir tarixdir

# Azərbaycanla birlikdə «AZƏRBAYCAN» bunu da yaşadı


AZƏRBAYCAN
Beynəlxalq səviyyədə tanınan siyasət
İlham ƏLİYEV: “Ən böyük qiymətli Azərbaycan xalqı verir”
Yeni çağırışlara uyğun inkişaf strategiyası
Azərbaycan qlobal proseslərə təsir edən nüfuzlu dövlətə çevrilir
Paşinyanın babası faşistlərə xidmət edib
EVDƏ QAL!


Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!
AZƏRBAYCAN
Tarixin ən qüdrətli Azərbaycanı Heydər Əliyev ideyalarının təntənəsidir
Heydər Əliyev mövqeyi
Dünyanın ən böyük azərbaycanlısı
Xilaskarlıq və quruculuq məramı
EVDƏ QAL!


AZƏRBAYCAN
Vəhdətin zəfəri
“Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz”
EVDƏ QAL!


AZƏRBAYCAN
MEHRİBAN ƏLİYEVA: “Qoy, xoş əməllərin sayı artsın!”
2020-ci il çox dərin və geniş islahatlar ili olacaq
“Göstərdiyiniz qayğı və diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirik”
Zirvə toplantısı qlobal çağırışlara həmrəylik cavab verdi
EVDƏ QAL!

Qəzetlər də insanlar, bir az da geniş anlamda götürsək, xalqlar kimidir. Aralarında bəxtlisi və bəxtsizi də var, şanslısı və şanssızı da. Hədsiz imkanlara malik müasir İKT (informasiya kommunikasiya texnologiyaları) dövründə kütləvi informasiya vasitələrinin (KİV) “ağsaqqal”ı sayılan qəzetlərin nəinki duruş gətirə, hətta bütün sivil ölkələrdə yerini və sanbalını qoruya bilməsi bu klassik “bir parça kağız”ın hələ faydasının tükənməməsindən, yəni bəxt və şansından xəbər verir. Yox, əgər bir qəzet ən müxtəlif səbəblərdən, məsələn, vaxtı ötmüş, dövrün tələbləri ilə ayaqlaşa bilməyən KİV kimi münasibətdən haradasa bağlanırsa, yaxud çox az tirajla çıxırsa, deməli, onun bəxti bağlanıb, şansı tükənib.

Bugünümüzdə qəzetin “kollektiv təbliğatçı, təşviqatçı və təşkilatçı” funksiyalarının icraatçısından daha çox sözün yaxşı və birbaşa mənasında xəbərçilik etməli olduğunu danmırıq. Xəbər tapıb yaymaqsa, bildiyimiz kimi, müasir dövrümüzdə bütün digər məqsədləri ilə yanaşı, eyni zamanda gəlir və biznes sahəsidir (Bu haşiyəyə ona görə çıxdıq ki, qəzetlərin bağlanması və ya az tirajla çıxması üzündən bəxtsizliyinin həm də biznes tərəfi olduğunu biz də bilirik. Amma bütün hallarda KİV-in, o sırada qəzetlərin ilkin vəzifəsinin bu və ya digər tərəfə ideoloji dəstək verməkdən çox pul qazanmaq olduğu hələ indiyəcən sübut edilməyib. İdeologiya isə siyasi, yəni hakimiyyət məsələsidir).

Amma hazırda oxuduğunuz “Azərbaycan” qəzetinin ötən əsrin 90-cı illərinin əvvəlinəcən yaşadığı bəxtsizlik tamam fərqlidir. Hamımızın qürur və öyünc mənbəyi sayılan, iki il əvvəl böyük coşqu ilə yaradılmasının bir əsrlik yubileyi qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) rəsmi mətbu orqanı olmuş bu qəzetin bəxti təmsil etdiyi dövlətin taleyi ilə üst-üstə düşür.

Gəncənin Bulatov küçəsindəki evdə müvəqqəti yerləşən redaksiya 1918-ci il sentyabrın 15-də həmin şəhərdəki Yelizavetpol quberniyasının mətbəəsində “Azərbaycan” adlı qəzetin ilk sayını buraxdı. Azərbaycan və rus dillərində, A-3 formatında, dörd səhifə həcmində çıxan qəzet “Türk və islamçılığa aid məqalələrə “Azərbaycan”ın səhifələri açıqdır” çağırışı ilə çıxmışdır. Özünü rəsmən dövlət qəzeti elan etmədən, amma AXC hökuməti başçısının təşəbbüsü və dəstəyi ilə nəşrə başlayan, dövlət tərəfindən maliyyələşən “Azərbaycan” o dövr həmin vəzifəni uğurla yerinə yetirmişdir.

Çünki məsuliyyəti böyük idi. Bu barədə redaksiyamızın hazırlayıb nəşr etdirdiyi “100 yaşlı “Azərbaycan” adlı kitabında yazılır: “Azərbaycan” bir millətin qürurverici tarixinə sadəcə yol yoldaşı olmayacaqdı. O, Azərbaycan Xalq Cümhuriyyətinin ən mötəbər tribunalarından birinə çevriləcəkdi. Səhifələrindən cümhuriyyət hökuməti öz vətəndaşlarına müraciətlərini ünvanlayacaq, dostlarına, düşmənlərinə mövqeyini nümayiş etdirəcəkdi. Belə müqəddəs vəzifəni daşımaq üçün yaradılan qəzetin ən münasib, ən doğru adı elə “Azərbaycan” idi”.

Bəlkə də buna, yaxud taleyin bəxt oyununa görə o dövrkü “Azərbaycan”ın ömrü məqsəd, məram və ideyalarını təbliğ etdiyi AXC-nin ömrü qədər oldu. Ana dilində 443, rus dilində 438 nömrəsi işıq üzü görmüş “Azərbaycan”ın sonuncu nömrəsi cümhuriyyət hökuməti ilə köçdüyü Bakıda 1920-ci il aprelin 27-28-də çıxmışdır. “Azərbaycan Xalq Cümhuriyyətinin ikinci ildönümünə az qalırdı. Cəmi bir il qabaqkı kimi millətsevərlərin ölkəsi də, qəlbləri də bayram şadyanalığı ilə coşub çağlamayacaqdı. Milli Şura günahsız insanların qətllərinə yol verməmək üçün od-alovla, qan-qadayla gələn XI qırmızı orduya hakimiyyətin könüllü təhvil verilməsi barədə qərar qəbul etmişdi... Azərbaycanın dövlət müstəqilliyi ilə birlikdə “Azərbaycan” qəzetinin fəaliyyətinə də son qoyuldu” (“100 yaşlı “Azərbaycan” kitabından).

“Azərbaycan”ın o dövrkü redaktorlarının da taleləri cümhuriyyətin özündən az fərqlənmişdir. Qəzetin ilk redaktorlarından olmuş Ceyhun bəy Hacıbəyli AXC süqut edərkən Azərbaycan nümayəndə heyətinin üzvü kimi Parisdə keçirilən Versal Sülh Konfransında iştirak edirdi. Bolşeviklərin onu bağışlamayacaqlarını bilən Ceyhun bəy vətənə qayıtmır və ömrünün sonunacan qürbətdə yaşayır, özü də çətin durumda. Üzeyir bəyin Azərbaycandan göndərdiyi vəsait olmasaydı, necə yaşayacağı müşkül idi. Ceyhun bəydən sonra bir müddət “Azərbaycan”a rəhbərlik etmiş Üzeyir bəy Hacıbəylini isə kommunistlərin cəzasından onun musiqi dühası xilas etmişdir. Əvəzində qəzetin rus variantının redaktoru olmuş Şəfi bəy Rüstəmbəyli Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra əvvəl Tiflisə, sonra Türkiyəyə köçməyə məcbur olmuş və elə orada torpağa tapşırılmışdır. Qəzetin 49 nömrəsinə redaktorluq etmiş Xəlil İbrahimin də həyatı faciəli sonluqla bitmişdir. O, 1938-ci ildə “xalq düşməni” kimi güllələnmişdir, baxmayaraq ki, bütün dövrlərdə bütün xalqların onun kimi aydın şəxslərə ehtiyacı olur. Ümumiyyətlə, “Azərbaycan”ın adlarını çəkdiyimiz redaktorlarının və çəkmədiyimiz əməkdaşlarının hər biri hələ bundan sonra neçə illər təkcə milli mətbuatımızın yox, bütünlükdə Azərbaycan tarixində nümunə götürüləsi şəxsiyyətlər və ziyalılar kimi xatırlanacaqlar.

Və xatırlandıqca da ideyaları, əməlləri yaşayacaq, necə ki, bugünkü rəsmi dövlət qəzeti, Milli Məclisin orqanı olan “Azərbaycan” qəzetinin timsalında bunun təsdiqini görürük. Bəli, 1992-ci ildə “Azərbaycan”ın ilk bəxtsiz dövrü 72 ildən sonra artıq 28 ildir müntəzəm nəşr edilən, dövlətin və dövlətçiliyin ideoloji cəbhəsində öndə olan şərəfli, müasir dönəmlə əvəzlənmişdir.

Özlüyündə bu mərhələ də qəzetimiz üçün asan olmamışdır. Təkcə “Azərbaycan” öz sələflilik hüququnu bərpa edib rəsmi dövlət qəzeti statusunu alandan sonra gənc müstəqil ölkəmizdə baş verən ictimai-siyasi hadisələri, sosial-iqtisadi böhranları, mənəvi-psixoloji aşınmaları və nəhayət, vətəndaş müharibəsi reallığını, eləcə də dövlət çevrilişlərinə cəhdləri xatırlamaq kifayətdir ki, həmin dövrün mürəkkəb mənzərəsi bir daha gözümüz önündə canlansın. Canlansın ki, hətta belə bir çətin dövrdə də “Azərbaycan”ın sələfi kimi dövlətçilik prinsipinə sadiq qaldığı və güclü ideoloji vasitə kimi hər zaman dövlətin yanında olduğu bir daha təsdiqlənsin.

Heydər Əliyev 1994-cü il dekabrın 6-da “Azərbaycan” qəzetinin 1000-ci nömrəsinin çapdan çıxması münasibətilə redaksiyanın kollektivinə ünvanladığı təbrik məktubunda yazırdı: “Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini bərpa etdiyi zaman “Azərbaycan” qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutdu. Müstəqilliyimizə düşmən kəsilmiş daxili və xarici qüvvələr öz çirkin məqsədlərinə çatmaq üçün bu gün də azğın niyyətlərindən əl çəkmirlər. Məlum oktyabr hadisələri onların mürtəce təbiətini bir daha aşkarladı. Amma Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq öz qanuni Prezidentini, müstəqil dövlətçiliyini müdafiə etdi. Fərəhli haldır ki, həmin həlledici məqamda “Azərbaycan” qəzeti öz sayıqlığını bir an belə itirmədi”.

Yəqin ki, müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə mövcud olmuş mürəkkəb vəziyyətdə qəzetimizin fəaliyyətinə və tutduğu mövqeyə bundan yüksək qiymət vermək mümkün deyil! Ümumiyyətlə, “Azərbaycan” ölkədə yeganə qəzetdir ki, onun fəaliyyətinə üç dəfə Prezident səviyyəsində məxsusi məktub vasitəsilə qiymət verilmişdir. Bu, böyük etimaddır və o, bizi təkcə şərəfləndirmir, həm də üzərimizə daha məsul vəzifələr qoyur.

Həmin vəzifələrin necə icra olunması isə indi yaşadığımız pandemiya dövründə daha qabarıq üzə çıxır. Bəli, artıq beşinci aydır bütün dünyanı çənginə almış koronavirus ölkəmizin də normal həyat ritmini pozdu. Martın 24-dən tətbiqinə başlanmış sərt karantin tədbirləri əhalinin həm yaşam tərzinə, həm də iş-gücünə təsirsiz ötüşmədi. Tədbirlər mərhələ ilə yumşaldılanadək ölkə sakinlərinə tələb olmadıqda evdən çıxmamaq əvvəl tövsiyə, sonra qadağan edildi, bir sıra vacib müəssisə və təşkilatlardan savayı qalan bütün təsərrüfat subyektlərinin fəaliyyəti müvəqqəti dayandırıldı.

Amma belə bir vaxtda da qəzetimizin nəşri davam etdi. Çünki pandemiya ilə bağlı dövlətin gördüyü tədbirləri, ölkədəki vəziyyəti xalqa çatdırmaq, əhalini virusdan qorumaq üçün maarifləndirmək lazım idi. Eyni zamanda redaksiyanın əməkdaşlarının sağlamlıqlarını da riskə atmaq olmazdı. O üzdən biz internetin imkanlarından istifadə etməklə evdən işləməyə qərar verdik və maksimum çalışdıq ki, oxucularımız bunu hiss etməsinlər.

Bunun üçün baş redaktorun rəhbərliyi ilə redaksiyamızda xüsusi iş rejimi quruldu. Adətən hər gün səhər saatlarında baş redaktorun yanında aparılan planlaşdırma indi baş redaktorun birinci müavini, məsul katib və şöbə redaktorlarının iştirakı ilə telefonla həyata keçirilirdi. Baş redaktor tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq müxbirlərin hazırladığı yazılar elektron poçt vasitəsilə şöbə redaktorlarına ötürülürdü. Şöbə redaktorları lazımi redaktələrdən sonra materialları yenə də elektron poçt vasitəsilə korrektorlara, onlar isə öz vəzifələrini icra edərək redaksiyada iş başında olan katibliyə göndərirdi. Bundan sonra materiallar katiblikdə səhifələnərək PDF formatında baş redaktora təqdim olunurdu. Baş redaktorun müəyyən tövsiyə və tapşırıqları əsasında edilən düzəlişlərdən sonra qəzet çapa göndərilirdi.

Həmin dövr redaksiya regionlarla da əlaqəsini üzmədi. Bölgə müxbirlərimiz imkanlarında olan vasitələrlə ölkənin əksər rayon və şəhərləri ilə əlaqələr quraraq redaksiyanı lazımi materiallarla təmin edirdilər.

Etiraf edək ki, ölkədə sərt karantin tədbirlərinin hökm sürməsinə, o cümlədən çoxsaylı müəssisə və təşkilatların işləməməsinə, təhsil ocaqlarının, ticarət və xidmət obyektlərinin bağlanmasına baxmayaraq, qəzetimiz mövzu sarıdan korluq çəkməmişdir. Bununsa əsas səbəbi pandemiya dövründə Prezident İlham Əliyevin daha intensiv fəaliyyət göstərməsi və həmin səbəbdən əməkdaşlarımızın üzərinə çoxsaylı vəzifələrin düşməsi idi. Dövlət başçısının keçirdiyi beynəlxalq səviyyəli videokonfransları, davam etdirdiyi struktur və kadr islahatlarını, karantin tədbirlərindən ziyan çəkən əhalinin, xüsusən özəl sektorda çalışanların sosial müdafiəsinin gücləndirilməsi üçün atdığı addımları, imzaladığı sərəncamları, müxtəlif təyinatlı mühüm obyektlərin açılışında iştirakını və bu zaman çıxışlarında verdiyi bəyanatları şərh və təbliğ etmək həmin günlər qəzetimizin ən çox diqqət yetirdiyi mövzular olmuşdur. Bununla yanaşı, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlar çərçivəsində əhalinin maarifləndirilməsi də unudulmurdu.

İndi budur, Operativ Qərargahın növbəti yumşaldılma tədbirlərindən sonra biz işimizə - əvvəlki kimi redaksiyamızın ofisinə qayıtmışıq, baxmayaraq ki, ölkəmizdə, bütün dünyada olduğu kimi, karantin tədbirləri davam edir. Bu səbəbdən əməkdaşlarımızın sağlamlıqlarının qorunmasının təmin olunması üçün redaksiyada bütün tədbirlər tələb edilən səviyyədə həyata keçirilir.

Doğrusu, yatsaq yuxumuza da girməzdi ki, vaxt gələcək, biz qəzeti məcburiyyət üzündən işə - redaksiyaya gəlmədən çıxaracağıq. Amma, necə deyərlər, ağlımıza gəlməyən başımıza gəldi və “Azərbaycan” bunu da yaşadı. Həm də təkcə yaşamadı, pandemiyanın sərt sınağından üzüağ çıxdı.

Bununla belə, kim nə deyir desin, müasir İKT nəyə imkan verir versin, jurnalist evin yox, redaksiyanın divarları arasında, məişət qayğılarının deyil, hadisələrin içində, doğmalarından daha çox əhalinin yanında olmalıdır. Əks halda KİV, o cümlədən qəzet o deyil, dünyanın ən qabaqcıl İKT-sindən istifadə edilsə belə. Odur ki, koronavirusun tezliklə ölkəmizdən çəkilib gedəcəyi, qalan karantin tədbirlərinin də ləğv olunacağı, tam normal həyata dönəcəyimiz günü səbirsizliklə gözləyirik.

Bəli, “Azərbaycan” belə bir çətin dövrü yaşadı və bu tarixi də öz səhifələrində tarixə həkk etdi!

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***

2020-ci il “Könüllülər ili”dir

# Mütərəqqi dövlət siyasəti gənclərə geniş imkanlar yaradıb

Hər bir ölkədə və cəmiyyətdə gənclik böyük qüvvə sayılır. Çünki bugünkü gənclik sabahın inkişafı, dövlətin və dövlətçiliyin qüdrətlənməsi, milli genefondun qorunması deməkdir. Ona görə də təsadüfi deyil ki, hər bir ölkənin inkişafı və qüdrətlənməsi bir çox amillərlə yanaşı, gənclərin inkişaf səviyyəsi ilə də bağlıdır.

Ulu Öndər Heydər Əliyev gənclərin cəmiyyət həyatındakı rolunu düzgün qiymətləndirirdi. Təsadüfi deyil ki, Heydər Əliyev 1993-cü ildə respublikamıza yenidən rəhbərliyə başlayandan sonra atdığı ilk addımlardan biri gənclərlə bağlı yeni dövlət siyasətinin həyata keçirilməsi, bu sahədə əvvəlki hakimiyyətlərin dövründə buraxılmış kobud səhvlərin acı nəticələrinin aradan qaldırılması oldu. Heydər Əliyevin təməlini qoyduğu yeni gənclər siyasətində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirildi, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində hərtərəfli tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında vəzifə kimi qoyuldu.

1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilməyə başladı. I Forumda iştirak edən Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”. Heydər Əliyevin bu sözləri hər bir gəncin həyat kredosu oldu. Eyni zamanda geniş meydan verilməsi nəticəsində gənc nəslin təmsilçiləri dövlət quruculuğunda, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak etməyə başladılar.

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasəti bu gün onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Fərəhli haldır ki, bu siyasət 17 ildə müasir dövrün çağırış və tələblərinə uyğun olaraq keyfiyyətcə yeni mərhələyə qaldırılıb. Gənclərin adı ilə bağlı dövlət qurumu - Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, 200-ə yaxın gənclər təşkilatı, o cümlədən son illərdə yaradılan gənclər evləri, gənclərlə bağlı ardıcıl qəbul edilən dövlət proqramları Azərbaycanda gənc nəslə olan yüksək qayğını özündə əks etdirir.

Azərbaycan iqtisadi yüksəlişinə görə dünyada aparıcı ölkələrdən biridir. Bu nailiyyət gənclərlə bağlı məsələlərin qısa müddət ərzində həyata keçirilməsinə təkan verdi. Bu baxımdan gənclər proqramlarına əsasən daim yeni proqram və layihələr həyata keçirildi. Gənclər evlərinin yaradılması da “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”na əsasən həyata keçirilən layihələrdəndir. Həmin layihə bu gün də uğurla davam etdirilir. Artıq 40-dan çox Gənclər evi sosial xidmət müəssisələri şəbəkəsi kimi səmərəli fəaliyyət göstərir. Gənclər evlərinin yaradılmasında əsas hədəf kimi ilk növbədə gənclər arasında sağlamlığın, təhsilin, ailə və ictimai münasibətlərin təbliğ olunması, onların məşğulluğunun təmin edilməsidir. Həmçinin gənc kadrların hazırlanması prosesi diqqət mərkəzində saxlanılır. Belə ki, gənclər burada təşkil olunan peşəyönümlü dərnəklərdə, kurslarda həvəslə iştirak edirlər. Əlillərə də xüsusi diqqət yetirilir. Onların əl işlərindən ibarət sərgilər təşkil edilir. Xüsusilə ölkəmizin tarixi, əlamətdar günləri ilə bağlı tədbirlər keçirilir.

Biz gənclər unutmamalıyıq ki, sabahın təməli bu gün qoyulur. Əldə olunan uğurlarımızla özümüzü, ətrafımızdakıları daha yaxından tanıyırıq. Bakı Gənclər Mərkəzinin kollektivi də üzərinə düşən vəzifələrin məsuliyyətini, aktuallığını dərk edir.



Mərkəzin binasında 300 nəfərlik konfrans zalı, elektron kitabxana, gənclər kafesi, kinozal, dərnək otaqları yerləşir. Kreativ gənclərdən ibarət kollektivimizdə böyük ruh yüksəkliyi var. Onlar mərkəzdə əsl yaradıcılıq mühitini yarada bilmişlər. Qarşıda maraqlı layihələrimiz var və onların həyata keçirilməsi üçün səylərimizi daha da gücləndiririk.

2020-ci il ölkəmizdə “Könüllülər ili” elan olunub. Gənclərin bir çox sahələrdə ilk dəfə könüllü kimi fəaliyyəti onların gələcəkdə işlə təmin edilməsinə təkandır. Prezident İlham Əliyev bu barədə bildirib: “Bu, insanlara və dövlətə ürəkdən gələn, təmənnasız kömək etmək hərəkatıdır. Mən bunu belə qəbul edirəm və şadam ki, artıq Azərbaycanda könüllülər institutu formalaşıb”.

Gənclər evlərində də könüllülər klubu yaradılıb. Hər bir gənc bura müraciət etməklə könüllü surətdə tədbirlərin təşkilində iştirak edir, təcrübə qazanır. Ümumiyyətlə isə Gənclər evinin yeni, müasir düşüncəli, milli-mədəni dəyərlərimizi, tariximizi, məişətimizi dərindən bilən, ictimai həyatımızda fəal həyat mövqeyi ilə seçilən gənclərə böyük ehtiyacı var.

Ötən il Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edən Prezident İlham Əliyev çıxışı zamanı ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu olduğunu, gənclərin müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdiklərini, ölkəmizin ümumi inkişafına böyük töhfə verdiklərini qeyd edərək deyib: *“Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar”.*

Gənclik sağlam təməl üzərində yaranıb inkişaf edirsə, dövlət və gənclər siyasəti sarsılmaz bir qüvvəyə çevrilir. Prezident İlham Əliyevin bu sözləri gənc nəslə inkişaf etmələri, cəmiyyət həyatında daha fəal olmaları ilə bağlı edilən müdrik tövsiyədir.

Azərbaycanda həyata keçirilən mütərəqqi gənclər siyasəti gənc nəslin inkişafı və bilik və bacarıqlarını realizə etmələri üçün geniş qapılar açıb. Dövlətimiz gənclərin məhz sağlam dəyərlər və təməllər üzərində yetişməsində maraqlıdır. Mənəvi, fiziki gücə malik olan gənclərimiz də bu imkanlardan səmərəli yararlanmalı və zamanın nəbzini tutmağı bacarmalıdırlar. Ömrün yeganə baharı olan gənclik illərini hər kəs gözəl və mənalı yaşamalıdır. Gənclik həm də sağlamlıqdır, gözəllikdir, sonsuz ümiddir. Əminik ki, gənclərimiz dövlətin onlara göstərdiyi etimadı və üzərlərinə düşən öhdəlikləri bundan sonra da şərəflə doğruldacaqlar.

***Nərgiz BABAYEVA,***
***Bakı Gənclər Mərkəzinin direktoru***

# Qədim türk inancları

Qədim türk inanc sistemi ilə bağlı tarixi qaynaqlarda ümumilikdə 3 əsas istiqamət müəyyənləşdirilmişdir. Bunlar Göy Tanrı inancı və ya Tenqriçilik, təbiət inancı və “atalar” inancından ibarətdir. Bəzi tarixçilər qədim türk inanclarını Şamanizmin bir qolu hesab edir, eləcə də Totemizmlə əlaqələndirirlər. Ancaq adıçəkilən inanclar türklərin yaşadığı ərazilərə digər bölgələrdən gəldiyi üçün bu inanclar birbaşa qədim türk inancı hesab edilmir.

**Göy Tanrı inancı və ya Tenqriçilik** - Qədim türklərin əsas inancı Göy Tanrı (Tenqri) idi. Qədim dövrdə təkcə türklərdə müşahidə edilən bu inanca görə Tenqri ən uca varlıq və yaradan olaraq qəbul edilirdi. Qədim türk inancında Göy Tanrı dedikdə göy üzü nəzərdə tutulmur, göyün də bir yaradanı olduğuna inanılırdı. Bununla yanaşı, Göy Tanrı inancında günəş, ay, ulduzlar, ildırım və bu kimi təbiət ünsürləri müqəddəs hesab edilirdi. Göy Tanrı inancı bəzi tarixi qaynaqlarda çoxtanrılı inanc kimi qəbul edilsə də, ən üstün tanrı tək idi və o da Tenqri idi. Digər müqəddəs varlıqlar isə Göy Tanrının köməkçiləri qismində çıxış edirdilər.

Göy Tanrı qədim türklərin inancına görə hər şeyə müdaxilə etmirdi. Hər şeyi kənardan izləyir, ancaq türklər dara düşdüklərində və digər müqəddəs varlıqların gücündə olmayan çətinliklərlə qarşılaşdıqlarında ona söykənilirdi. Maraqlı məqamlardan biri də ondan ibarət idi ki, qədim türklər hər hansı istəkləri üçün Göy Tanrıya qurban kəsmir, daha çox müqəddəs köməkçi varlıqlara yönəlirdilər. Qədim türklərin Göy Tanrıya olan etiqadı çox güclü idi. Onlar başlarına gələn hər şeyin səbəbkarının məhz Göy Tanrı olduğuna inanırdılar. Döyüşlərdə əldə etdikləri qələbələri və məğlubiyyətləri də bununla əlaqələndirir, məğlub olduqda onun qəzəbləndiyinə, qalib gəldikdə isə sevindiyinə etiqad bəsləyirdilər.

Qədim türklərdə dövlət idarəçiliyi də Göy Tanrı ilə bağlı idi. Onlar seçilmiş xaqanın Göy Tanrının nəsib etməsi ilə seçilə biləcəyini qəbul edirdilər. Göy Tanrı inancının spesifik xüsusiyyətlərindən biri də Tenqrinin hər hansı təsvirinin qadağan edilməsi ilə bağlı idi. Onlar Göy Tanrının mücərrəd və fövqəladə bir formada olduğuna inanırdılar. Tarixi mənbələrdə qədim türk din xadimlərinə “qam” adı verilmişdir.

**Təbiət inancı** - Qədim türklərdə təbiət ünsürləri müqəddəs hesab edilir və Göy Tanrının köməkçiləri kimi qəbul edilirdilər. Türklər Günəş, Ay, ulduzlarla yanaşı, dağ və təpələri, dəniz, çay və bulaqları, mağaraları, meşələri, dəmiri və qılıncı da müqəddəs hesab edir, bəzən onlar üçün qurban kəsirdilər. Qədim türklərdə dağın və təpənin inanc dəyəri çox yüksək idi. Yüksəklik rəmzi kimi qəbul edilən bu təbiət ünsürlərinin ruhunun olduğuna da inanılırdı.

Qədim türklərdə Yer-Su ruhlarına da inanc var idi. Yer-Su torpaq ana Ötügənə bağlı idi və onlara hörmət vacib hesab edilirdi. Meşəyə girildiyində sakitliyə riayət etmək, meşəyə zərər vurmamaq şərt idi. Meşədən nəsə götürülərdisə, bu, təbiət ruhlarının icazəsi ilə olmalı idi. Meşələrlə bağlı qədim türklərdə inanc mövcud idi. Meşələrdə ov etdikləri üçün türklər meşəni müqəddəs hesab edir və onlara qida bəxş etdiyini düşünürdülər. Meşə ilə yanaşı, qədim türklər ağacı da müqəddəslik simvolu olaraq qəbul edirdilər. Kökü yerin dərinliklərinə, gövdəsi və budaqları isə göylərə yüksələn ağacın həyat ilə ölüm mənasını daşıdığını qeyd edirdilər.



Qədim türk inanclarında bozqurd da müqəddəslik rəmzi idi. Bozqurd milli düşüncə və duyğuları simvolizə edirdi. Bozqurdun müqəddəs simvol (totem) olaraq seçilməsinin əsas səbəbləri tabeçilik qəbul etməyərək əhliləşdirilməməsi, ağıllı, çevik və vüqarlı olması ilə bağlıdır. Bozqurdla yanaşı qədim türklərdə at da müqəddəs idi. Türklər uşaqlıqdan etibarən atda gəzər, onunla böyüyər, hətta öldükdə məzara belə birlikdə basdırılardılar. Təsadüfi deyil ki, qədim türk dastanlarında qəhrəmanların adı atları ilə birlikdə çəkilərdi. Türk dastanlarında Tulpar adı ilə tanınan qanadlı atdan tez-tez bəhs edilir. Bəzi qaynaqlarda türklərdə alovun da müqəddəs hesab edildiyi və inanc simvolu olduğu deyilir. Alovun su ilə birgə ruhu təmizləməsinin ona müqəddəslik qazandırdığı qeyd edilir.

Tarixi araşdırmalar göstərir ki, ümumilikdə təbiət qədim türklərdə bütünlüklə müqəddəs xüsusiyyətlərə malik bir anlayış olmuş və onların inanc sistemində mühüm əhəmiyyət kəsb etmişdir.

**“Atalar” inancı** - Qədim türklərin inanc sisteminin əsas istinad nöqtələrindən biri də ölmüş soykökünə, yəni atalara olan hörmət və ehtiramdır. Türk inancında ata həmin nəslin və ya qəbilənin nüfuzlu şəxsi və lideri, döyüşçülər və din xadimləri hesab edilir. Bu inanca görə ataların ruhu onlar öldükdən sonra da yaşamaqdadır. Məhz bu səbəbdən ataların məzarına böyük önəm verilmişdir. Atalar inancında onlara qurbanlar kəsilər, dualar edilərdi. Hətta ataların adına xüsusi mərasimlər və bayramlar təşkil edilərdi. Atalar eyni zamanda ictimai və dini hökmlərin banisi hesab edilir, adət-ənənələrin qoruyucusu olaraq qəbul edilirdi. Atalar inancı türk xalqları arasında ən qədim inanc növlərindən biri hesab edilir.

Qədim türk inanclarında qeyd edildiyi kimi, fərqli yanaşmalar mövcud olmuşdur. Tarixin müxtəlif dövrlərində qədim türklərdə totemizm (insanla heyvanlar və ya bitkilər arasında metafizik bir əlaqənin olduğunu qəbul edən düşüncə və davranış sistemidir), **animizm** (ölənlərin ruhlarının əbədi olaraq dünyada qaldığı və dünyanı gəzərək “canlılıq” gətirdiyinə inanan inanc sistemidir) və xüsusilə **şamanizm** (təbiətə hökm edən güclərə tapınmanı ehtiva edən və sehirlə əlaqəli inanc sistemidir) inancı mövcud olmuşdur.

Şamanizm sadəcə qədim türklərdə deyil, eləcə də Çin, Hindistan, Malayziyada da geniş yayılmış bir inanc sistemi idi. Şamanların əsas missiyası insanlarla təbiətdəki ruhlar arasında əlaqəni təmin etməkdən ibarət idi. Bir çox tarixçilərin fikrincə, qədim türklərdə şamanizmin bir çox elementləri müşahidə edilsə də, onların tamamilə bu inanc sisteminə sahib olduğunu demək mümkün deyil.

***Ceyhun ƏLİYEV,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini***






# Gənclik






● Gələcəyə dəstək




## Ölkəmizin uğurlu inkişafında öz fəallıqları ilə seçilənlər

### İlham ƏLİYEV: "...Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından"

**Əhalinin rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində ölkədə görülən bir sıra işlər Azərbaycan Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Ona görə də həyata keçirilən tədbirlər etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Eyni zamanda, son illər icra olunan sosial islahatlar proqramının əsas hədəfi də dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasıdır . Bu da birbaşa sosial ədalət, şəffaflıq, ünvanlılıq, bərabərlik kimi mühüm prinsiplərin təmin edilməsidir.**

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda 3 saylı DOST mərkəzinin açılışında iştirak edərkən bildirildi ki, burada paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək, eyni zamanda 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcək.

Məlumat üçün qeyd edək ki, 2019-2025-ci illərdə 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Onlardan 5-i Bakıda, 26-sı isə regionlarda açılacaq. Ümumiyyətlə isə "DOST" mərkəzlərində "bir pəncərə" prinsipi ilə 2,8 milyon nəfərə 132 adda xidmət göstərilməsi nəzərdə tutulub. Ötən il istifadəyə verilən 1 və 2 saylı Bakı DOST mərkəzlərində 100 mindən çox şəxsə xidmət göstərilib. Bütün bu xidmətlərdən razı qalan ölkə vətəndaşlarının məmnunluq səviyyəsi isə 96 faiz olub. "Könüllü DOST" proqramı üzrə artıq 300-dən çox könüllü, o cümlədən 22 yaşlı insan bu mərkəzlərə işə cəlb edilib.

DOST Mərkəzi əməkdaşlarının əksəriyyətinin gənclərdən ibarət olması heç də təsadüfi deyil. Azərbaycan Prezidenti mərkəzlə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibəsində bu məsələyə bir daha xüsusi diqqət ayıraraq bildirdi ki, gənclərin rolu həmişə çox yüksək qiymətləndirilib: "...Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunur: nazir, icra başçısı vəzifələrinə..."

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, gənclər hazırda bir sıra məsul işlərə irəli çəkilir, onlara etimad göstərilir. Ən əsası odur ki, onlar tapşırılan işlərin icrasında xüsusi fəallıq göstərirlər. Artıq beynəlxalq birlik də görür ki, Azərbaycanda dövlət gənclər siyasəti mühüm məsələyə çevrilib. Bu gün bütün sahələrdə çalışanların əksəriyyətini gənclər təşkil edir: "Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda, onu da bildirməliyəm ki, gənclər xoşagəlməz hallara qarşı da mübarizədə bizə böyük dəstək olurlar. Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək".

Azərbaycan Prezidenti dünyanı cənginə almış, pandemiyaya çevrilərək, ölkələri iflic halına salan, insanların sağlamlığına qənim kəsilən, iqtisadiyyatına ağır zərbə vuran koronavirusla bağlı görülən tədbirlərə və əldə edilən son nəticələrə diqqət ayırarkən gənclərin bu sahədə də fəallıqlarını vurğuladı: "İşlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram...Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir".

Səhiyyə sisteminin qısa müddətdə yenidən qurulmasını, xüsusilə İcbari Tibbi Sığorta Agentliyinin və TƏBİB-in fəaliyyətini yüksək qiymətləndirən dövlət başçısı onu da vurğuladı ki, bu sahədə xidmət göstərənlərin əksəriyyəti gənclərdir. Doğrudan da belə çətin bir şəraitdə heç bir ölkənin səhiyyə sistemi buna hazır deyildi. Belə bir çətin şəraitdə bütün təşkilati işləri görmək doğrudan da böyük nailiyyətdir. Bu nailiyyətlərdə gənc mütəxəssislərin, o cümlədən peşəkarlıqları və vətənpərvərlikləri ilə seçilən gənclər oldular. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu kimi amilləri nəzərə alaraq dedi: "Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar... Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək".

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

● Minnətdarlıq

## Gənclər dövlət başçısına güvənir

**Xalqımız bütün dövrlərdə taleyüklü məsələlərin həllində daim dövlətinin və onun başçısının yanında olub. Azərbaycan Prezidenti İlham Əliyev hər bir vətəndaşının ona güvəni qarşısında mətinliklə, əzmkarlıqla dayanaraq, "göydən gələn gözəgörünməz bəla"dan - koronavirus (COVID-19) pandemiyasından xilas üçün ön sırada mübarizə aparır, "soyuq müharibə"nin gətirdiyi fəsadlardan az zərərlə çıxmaq üçün yollar axtarır və şükürlər olsun ki, atılan hər addım uğurla nəticələnir.**





Dövlət başçısı İlham Əliyevin, eləcə də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciətlərinin cavabsız qalmaması da xalq-hakimiyyət birliyinin növbəti dəfə təcəssümüdür.

Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına respublikanın hər yerindən gələn təşəkkür dolu məktublara gəlincə, onlar yalnız səmimiyyətin etirafı deyil, həm də dövlət başçısının hər sözünün xalq üçün daim qanun kimi ciddi olmasından soraq verir. Həmin məktublardan bəzi sətirlər də bir daha təsdiqləyir ki, xalq dövlətinə və onun başçısına güvənir və inanır ki, bu bəladan da tezliklə çıxacaq, birlikdə, həmrəylik nümayiş etdirərək ölkənin ayrı-ayrı sahələrinə dəyən zərəri aradan qaldıracaq.

"Mən bir Azərbaycan gənci kimi ölkəmizdə aparılan uğurlu siyasəti, xalqın rifahının yaxşılaşdırılması üçün atılan addımları qürur hissi ilə izləyir və fəxr edirəm ki, dövlətimizin belə uzaqgörən lideri var. Hörmətli Prezident, Siz təkcə ölkə daxilində yox, həm də xaricdəki vətəndaşlarımızın yaxşı yaşaması üçün lazımi, zəruri addımları atır, beynəlxalq arenada xalqımızı ən yüksək səviyyədə təmsil edirsiniz".

Bu sətirlərin müəllifi **Qara Kərimov** da gəncdir və YAP-ın Yasamal Gənclər Birliyinin fəal üzvlərindəndir. Məktubundan oxuyuruq: "Şahidik ki, Sizin siyasətinizdə gənclər necə mühüm yer tutur. Ölkəmizdə gənclərin özlərini göstərə bilmələri üçün hər cür imkan var. Bu imkanlar genişləndirilməkdə davam edir. Siz dəfələrlə öz çıxışlarınızda biz gənclərə dəstəyinizi ifadə etmiş, nəsihətamiz ifadələrinizlə yolumuza işıq saçmısınız!

Hörmətli Prezidentimiz! Bu günlərdə Sizin uzaqgörən siyasətinizin bir daha şahidi olduq. COVID-19 pandemiyası ilə mübarizə şəraitində atdığınız addımların nəticəsində bu gün ölkəmiz virusdan ən az zərər çəkənlər sırasındadır. Hətta Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizdə atılan addımları təqdir edib, digər dövlətləri də Azərbaycandan örnək almağa səsləyib.

Sizin "Biz birlikdə güclüyük!" şüarınız bu günlərdə xalqımızı bir daha yumruq kimi bir-birinə bağladı! Mən inanıram ki, Sizin kimi liderin rəhbərliyi ilə xalqımızın öhdəsindən gələ bilməyəcəyi çətinlik, məğlub edə bilməyəcəyi düşmən yoxdur.

Sizə xalqımız qarşısında göstərdiyiniz xidmətlərə görə Azərbaycan gənclərinin dərin minnətdarlığını bildirirəm. Sizə möhkəm cansağlığı və daha böyük uğurlar arzu edirik!"

**Əli Babazadə** də siyasi məsləkdaşları kimi Azərbaycan Prezidentinin pandemiyanın qarşısının az itkilərlə alınması istiqamətində atdığı addımları dəstəklədiyini və bununla bağlı təşəkkürünü bildirərək yazır ki, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq bir gənc kimi hər zaman Sizin xalqımıza, o cümlədən biz gənclərə göstərdiyiniz diqqət və qayğıdan kənarda qalmadığımız üçün uğurlu siyasətinizi dəstəkləmişik: "Son 2 ay ərzində bütün dünyada daha şiddətli xarakter alan koronavirus ölkəmizə də təsirsiz ötüşmədi. Bütün bunlara baxmayaraq, Sizin təşəbbüsünüz və rəhbərliyinizlə Azərbaycan pandemiyaya qarşı mübarizədə dünya üçün bir nümunəyə çevrildi. Ən qabaqcıl dünya ölkələrinə belə virus dağıdıcı zərbələrlə təsir etdi. Bu ölkələrdə vətəndaş narazılığını artırdı. Azərbaycanda isə sosial izolyasiya tədbirlərinin ciddi təşkili və buna nəzarət nəticəsində ölkəmizə virus minimum səviyyədə təsir göstərdi.

Möhtərəm Prezident! Dövlətin belə çətin günlərdə sosial qayğıya ehtiyacı olan hər bir vətəndaşının yanında olması, ona maddi və mənəvi dəstək göstərməsi, virusa qarşı mübarizədə tibbi xidmətlərin yüksək səviyyədə təşkili məhz Sizin siyasətinizin nəticəsidir. Hər zaman xalqın yanında olduğunuz üçün biz gənclər də Sizinləyik, birlikdəyik - həmrəyik! Sizə bu çətin işlərinizdə uğurlar arzu edirik!"

**Taleh Mansurov**un məktubundan bəzi sətirlərə diqqət yetirsək görərik ki, doğrudan da, gənclik dövlət başçısının siyasətini birmənalı şəkildə dəstəkləyir. Ümumiyyətlə, Azərbaycan Prezidentinin gənclər siyasətindən bəhrələndikləri üçün onlar Vətənə layiqli övlad olmağı özlərinə mənəvi borc bilirlər: "Hörmətli Prezident! Mən, ilk növbədə, bir Azərbaycan vətəndaşı, gənc, tələbə olaraq Sizə minnətdarlıq məktubunu yazmağı özümə borc bildim. Dünyamızda baş verən virus böhranı Azərbaycandan da yan keçmədi. Lakin bu virusun gətirdiyi ağır və çətin günlərdən də xalq-iqtidar birliyi nəticəsində ən az itkilərlə çıxmağı bacaracağıq. Bu dövr ərzində kiçik və orta sahibkarlara dövlət dəstəyi, işsizlikdən əziyyət çəkənlərə sosial sığorta vəsaitinin ayrılması, onlayn dərs prosesinin gücləndirilməsi, dezinfeksiya işlərinin davamlı şəkildə aparılması, Sizin göstərişinizlə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və onun təxirəsalınmaz tədbirlər görməsinin nəticəsidir ki, Azərbaycan dünyada pandemiyanın ən az əziyyət çəkdiyi ölkələrdən biridir.

Dəyərli Ali Baş Komandan! Sizin görünməyən düşmənə qarşı müharibədə güclü və uzaqgörən siyasətiniz sayəsində Azərbaycanda vəziyyət stabil olaraq qalır. Pandemiyanın dünya iqtisadiyyatına və o cümlədən də Azərbaycanın iqtisadiyyatına vurduğu ziyanlara baxmayaraq, Sizin "Heç bir sosial layihə təxirə salınmayacaq" fikriniz bir daha göstərdi ki, dövlətimizin və hökumətimizin diqqət mərkəzində Azərbaycan xalqı, onun sosial rifahı və sağlamlığı durur.

YAP gənclərindən biri kimi Sizə öz təşəkkürümüzü bildirir, fəaliyyətinizdə uğurlar arzulayırıq!"

***"Azərbaycan"***

● Tribuna

## Prezidentin nümayiş etdirdiyi qətiyyət ölkədəki islahatların dönməzliyinin təminatçısıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında COVID-19 pandemiyası dövründə həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət, eyni zamanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi, xüsusən vətəndaş haqqına göz dikən məmurların ifşa edilərək cəzalandırılması, eləcə də daha cavan və perspektivli kadrların olduqca mühüm vəzifələrə təyin edilməsi ən nüfuzlu beynəlxalq təsisatlar və yerli sadə vətəndaşlar tərəfindən dövlət başçısına olan rəğbətin daha da artmasına səbəb olmuşdur.**



Azərbaycanın xarici siyasətinin son dövrlərdə ən mühüm hadisələrindən biri ölkə Prezidentinin təşəbbüsü ilə dünya dövlətlərinin üçdə ikisini əhatə edən Qoşulmama Hərəkatının Təmas Qrupu formatında koronavirusla mübarizəyə həsr olunan "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünün videokonfrans vasitəsilə keçirilməsidir. BMT-dən sonra dünyanın ən böyük siyasi təsisatı olan Qoşulmama Hərəkatının bu formatda ilk görüşünün keçirilməsi qlobal miqyasda olduqca mühüm tarixi hadisə hesab edilir. Bu hadisə həm də Azərbaycan Respublikasının və onun rəhbərinin bəşəriyyətin, eləcə də əsrlər boyu formalaşmış birgəyaşayış dəyərlərinin yenidən dirçəldilməsi üçün dünya sivilizasiyasına töhfəsi kimi qiymətləndirilir. Çünki bu təşkilatın toplantılarında müzakirə edilən məsələlər Birləşmiş Millətlər Təşkilatında müzakirəyə çıxarılan məsələlərə də böyük təsir göstərir. Təşkilatın yeni formatda keçirilən toplantısına BMT Baş katibi Antonio Quterreşin, Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun və Afrika İttifaqı Komissiyasının sədrinin qoşulması məhz Azərbaycanın bu təşkilata rəhbərlik etdiyi dövrdə xeyli yüksələn nüfuzundan xəbər verir. Həmçinin həm təşkilatın üzvü olan dövlətlərin, həm də beynəlxalq təşkilatların Azərbaycanın pandemiya ilə mübarizə modelinə maraq göstərməsi ölkəmizin prestiji baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, Prezident İlham Əliyevin pandemiya ilə mübarizənin Azərbaycan modelindən bəhs edərək konfransda "Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılmışdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmışdır. Virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibb avadanlığı və ləvazimatlar Azərbaycana gətirilmişdir. Testlərin aparılması üçün ölkədə 23 laboratoriya fəaliyyət göstərir. İndiyə kimi ölkə üzrə 160 mindən artıq test keçirilmişdir. Daxili tələbatı ödəmək üçün qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanmışdır. Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınmışdır" kimi söylədiyi fikirlər Zirvə görüşünün səlahiyyətli iştirakçıları tərəfindən xeyli maraq və rəğbətlə qarşılanmışdır. Həmin fikirlərə cavab olaraq, Azərbaycanın tətbiq etdiyi mübarizə modelinin uğurlu olması görüşdə çıxış edən müxtəlif təşkilatların və dövlətlərin təmsilçiləri tərəfindən xüsusi vurğulanmışdır. BMT-nin Baş katibi cənab Antonio Quterreşin çıxışında BMT-nin Azərbaycanın göstərdiyi bütün səyləri dəstəklədiyini qeyd etməsi, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru cənab Tedros Adhanom Gebreyesusun "Sizin davamlı çoxtərəfli işiniz və uzunmüddətli öhdəliyiniz COVID-19-un qarşısının alınmasında çox vacibdir" deməsi qeyd olunanları bir daha təsdiq edir.

Bəşəriyyətin xilası naminə humanizm ideyalarının carçısı rolunda çıxış edən Azərbaycan dövləti təkcə çağırışları, mütərəqqi ideyaları təbliğ etmir, həm də beynəlxalq təşkilatlara, yardıma ehtiyacı olan ölkələrə müxtəlif formalarda dəstək olur. Necə ki, ölkəmiz dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi koronavirusa qarşı qlobal mübarizəyə dəstək olmaq vəsiləsilə Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı göstərməklə xalq olaraq humanizmə və birliyə qarşı həssaslığımızı bəşəriyyətə bir daha göstərmiş oldu. Təbii ki, Azərbaycan bütün bu addımları dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə uzun illər ərzində təmin etdiyi və möhkəmləndirdiyi maliyyə resursları əsasında atır.

Belə bir şəraitdə mərkəzi və yerli icra hakimiyyətlərində vəzifə daşıyan məmurların dövlətin humanist təşəbbüslərindən sui-istifadə etməyə çalışması, dövlət vəsaitini müxtəlif vasitələrlə mənimsəməsi Azərbaycan xalqına və dövlətinə ən böyük xəyanət, ən böyük zərbədir. Lakin dövlət strukturlarının sağlamlaşdırılması, o cümlədən dərhal zəruri addımların atılması, xüsusən idarəçilik sistemində gənc kadrlara lazımi etimadın göstərilməsi Azərbaycanda islahatların davamlılığı, eləcə də xalq-iqtidar birliyinin daha da möhkəmləndirilməsi baxımından təqdirəlayiqdir.

Azərbaycan Milli Elmlər Akademiyasında çalışan gənc alim və mütəxəssislər də dövlət başçısı cənab İlham Əliyevin bu qətiyyətli addımlarını dəstəkləyir və onun ətrafında sıx birləşir. Prezidentin nümayiş etdirdiyi iradə və qətiyyət ölkədəki islahatların dönməzliyinin qarantıdır. Bu mübarizədə gənc intellektuallar kimi xalqımız da dövlət başçısının yanındadır.

***Famin SALMANOV, AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru, dosent***

● Xoş məram

## Lerikli könüllülərin fəaliyyəti sakinlər tərəfindən razılıqla qarşılanır

**Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına cavab olaraq Lerik rayonunda da könüllü qruplar yaradılıb və onlar öz fəaliyyətini uğurla davam etdirirlər.**



Rayonda koronavirus (COVID-19) pandemiyası ilə mübarizə məqsədilə yaradılmış mobil qruplara 152 nəfər könüllü qoşulub. Burada fəaliyyət göstərən gənc könüllülər koronavirus infeksiyasının yarada biləcəyi təhlükə ilə mübarizədə dövlət tərəfindən həyata keçirilən tədbirlərin dəstəklənməsi məqsədilə istər şəhərdə, istərsə də digər yaşayış məntəqələrində yaşayan tənha vətəndaşları, aztəminatlı ailələri nəzarətdə saxlayaraq, onların zəruri ehtiyaclarının qarşılanmasına köməklik göstərirlər.

Könüllü qruplar yüzlərlə tənha insana, aztəminatlı və şəhid ailələrinə, fiziki məhdudiyyəti olan şəxslərə baş çəkərək, onlara ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamalar, tibbi ləvazimatlar çatdırırlar. Ümumilikdə, Lerik rayonu üzrə 184 nəfər könüllü həssas kateqoriyadan olan 2 mindən yuxarı ailəyə dəstək göstərilməsində iştirak edib.

Rayonda keçirilən "Könüllü qonşu" aksiyası çərçivəsində tənha-ahıl, yaşı 65-dən yuxarı olan vətəndaşlara könüllülər tərəfindən əlaqə nömrələri paylanılıb, bu nömrələrə daxil olan zənglər əsasında könüllülər vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınmasına, kommunal ödənişlərin və bank xidmətlərinin həyata keçirilməsinə köməklik göstərirlər.

Könüllülər, həmçinin əhali arasında koronavirus pandemiyası ilə bağlı maarifləndirmə işlərinin aparılması, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş qərar və tövsiyələrin əhaliyə çatdırılması məqsədilə təbliğat və təşviqat işini davam etdirir, küçədə maskasız gəzən şəxslərə tibbi maskaların paylanması, polis və tibb işçilərinə könüllülər adından təşəkkür mesajlarının çatdırılmasında da böyük həvəslə iştirak edirlər.

Ölkəmizdə koronavirus infeksiyası ilə mübarizə məqsədilə xüsusi karantin rejiminin mayın 31-dək uzadılması nəzərə alınaraq, könüllülər tərəfindən əhali arasında maarifləndirmə işləri davam etdirilir.

# Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiyası döyüş atışlı taktiki-uçuş təlimləri keçirib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) cəbhə və ordu aviasiyasının döyüş atışlı taktiki-uçuş təlimləri keçirilib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi pilotların döyüş bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimlər çərçivəsində HHQ-nin döyüş aviasiyasının təyyarəçiləri praktiki atışlar icra ediblər.

Pilotlar hava hücumundan müdafiə vasitələrindən yayınaraq və ərazinin relyefindən istifadə edərək müxtəlif yüksəkliklərdə manevrlər həyata keçirməklə şərti düşmənin döyüş mövqelərini bombardman ediblər. Bununla yanaşı, şərti düşmənin komanda və müşahidə məntəqələri, artilleriya atəş mövqeləri, müşahidə postları, habelə zirehli maşınlarını təqlid edən tək və qrup hədəfləri zərərsizləşdirilib.

Təlimlər zamanı pilotlar şərti düşmənin yerüstü hədəflərinin koordinatlarını təyin etməklə hava kəşfiyyatı da həyata keçiriblər.

# Azərbaycan vətəndaşlarını COVID-19 haqda ən son məlumatlarla təmin edəcək WhatsApp botu istifadəyə verildi

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və yerli startap şirkəti olan Botbox ilə birgə, günün 24 saatı ərzində əhalinin koronavirus ilə əlaqədar suallarını cavablandırmaq, həmçinin tez, etibarlı və rəsmi məlumat vermək üçün WhatsApp botunu istifadəyə verib.

Bu barədə AZƏRTAC-a TƏBİB-dən bildirilib.

"TABIB bot" eyni anda 1 milyona qədər istifadəçini əhatə edə və istənilən istifadəçi sorğusuna bir saniyədən az müddətdə cavab verə bilir. Əlavə olaraq, gündəlik statistik məlumatlar üçün abunə olmaq mümkündür.

Bugünə qədər bot, on mindən çox insan tərəfindən sınaqdan keçirilib və artıq 2200 abunəçisi var.

"TABIB bot" ilə dialoqa başlamaq üçün "Salam" yazıb +13022020234 nömrəsinə mesaj göndərdikdə, istifadəçilərə COVID-19 haqqında son xəbərlər, statistik məlumatlar, profilaktika tədbirləri və infeksiyanın yayılmasının qarşısını almaq üçün məsləhətlərdən ibarət olan ümumi səhifə təqdim edilir.

COVID-19 ilə bağlı bir sıra mövzular üzrə müxtəlif sual və cavablarla tanış olaraq, botdan məlumat əldə etmək çox asandır.

Qeyd olunmalıdır ki, botun diaqnoz və ya müalicə məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulmayıb və o, klinik müayinə və tibb mütəxəssisləri ilə məsləhətləşmələri əvəz etmir.

Bot dünyadakı bütün Azərbaycan vətəndaşları üçün əlçatandır.

# Azərbaycanda koronavirusa daha 168 yoluxma faktı qeydə alınıb, 80 nəfər müalicə olunaraq sağalıb

Azərbaycanda koronavirus infeksiyasına daha 168 yoluxma faktı qeydə alınıb, 80 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1940, 1952, 1955, 1959 və 1962-ci il təvəllüdlü 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 5662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3508 nəfər müalicə olunaraq sağalıb, 68 nəfər vəfat edib, 2086 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 55 nəfərin vəziyyəti ağır, 69 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 302.933 test aparılıb.

# Baş Prokurorluq: "Bankın külli miqdarda vəsaitini mənimsəmiş vəzifəli şəxsin işi məhkəməyə göndərilib"

Astara Rayon İcra Hakimiyyəti başçısının (RİHB) Şahağacı kəndi üzrə icra nümayəndəliyinin mühasibi vəzifəsində işləmiş Vasif Bağırovun qanunsuz əməlləri barədə daxil olmuş müraciət əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış istintaqla Vasif Bağırovun "Bank Respublika" ASC-nin Astara filialının müdiri vəzifəsində işləmiş Rövşən Quliyev, Astara RİHB-nin Şahağacı kəndi üzrə icra nümayəndəsi vəzifəsində işləmiş şəxslər və qeyriləri ilə qabaqcadan əlbir olaraq rayonun Şahağacı, Şiyəkəran, Kolatan, Siyakü və Kakolos kəndlərindən olan 61 sakinin adlarına ayrı-ayrı məbləğlərdə kreditlər götürərək "Bank Respublika" ASC-nin ümumilikdə 141 min manat məbləğində əmlakını mənimsəməsinə, bundan başqa, vəzifə saxtakarlığı edərək 61 kənd sakininin və "Bank Respublika" ASC-nin ümumilikdə 37 min 100 manat məbləğində əmlakını ələ keçirərək təkrarən dələduzluq etməsinə əsaslı şübhələr yaranıb.

2018-ci il fevralın 3-də "Bank Respublika" ASC-nin Astara filialının müdiri Rövşən Quliyev və qeyrilərinin Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə istintaq yekunlaşdırılaraq məhkəməyə göndərilib.

Vasif Bağırov istintaq orqanından qaçıb gizləndiyindən cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrılaraq istintaqı aparılmış və iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib.

Aprelin 25-də Vasif Bağırov Rusiya Federasiyasının İrkutsk vilayətində tutularaq Azərbaycan Respublikasına ekstradisiya edilib. Ona Cinayət Məcəlləsinin 179.3.2-ci, 178.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.2-ci (təkrar törədildikdə) və 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələrində nəzərdə tutulan ittiham elan edilib.

Cinayət işi üzrə istintaq mayın 25-də tamamlanaraq baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Kürdəxanı qəsəbəsində törədilən qətl hadisəsi ilə bağlı cinayət işi başlanıb

İyunun 1-də səhər saat 6 radələrində 1955-ci il təvəllüdlü Hüseyn Əhmədovun paytaxtın Sabunçu rayonunun Kürdəxanı qəsəbəsi ərazisində işlədiyi mağazanın anbarında üzərində zorakılıq əlamətləri olan meyitinin aşkarlanması barədə məlumat daxil olub.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilən zaman mağazanın seyfindən 40 min manat məbləğində pul vəsaitinin oğurlandığı müəyyənləşdirilib.

Faktla bağlı Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.11-ci (quldurluq, hədə-qorxu ilə tələb etməklə əlaqədar adam öldürmə) və 181.3.3-cü (zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla quldurluq) maddələri ilə cinayət işi başlanıb.

İş üzrə müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq-əməliyyat tədbirləri yerinə yetirilib.

Hazırda cinayəti törətmiş şəxs və ya şəxslərin dairəsinin müəyyənləşdirilərək istintaqa cəlb olunması istiqamətində təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Prokurorluq Bərdə rayonunda ana və qızının öldürülməsi faktı ilə bağlı məlumat yayıb

İyunun 1-də gecə saat 04 radələrində Bərdə rayonunun Alaçadırlı kəndi ərazisində iki şəxsin odlu silahla qətlə yetirilmiş meyitlərinin aşkarlanması barədə daxil olmuş məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilib. Faktla bağlı Bərdə Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Bərdə Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, iş üzrə müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq-əməliyyat tədbirləri aparılıb.

İlkin araşdırmalarla həmin gün saat 03 radələrində Alaçadırlı kəndində yaşayan Toğrul Zeynallının yaşadığı evdə qısqanclıq zəminində tüfəngdən atəş açmaqla anası Nəzirə Zeynalovanı, daha sonra yaşadıqları evdən təxminən 200 metr aralıda isə bacısı Əminə Zeynalovanı qəsdən öldürərək hadisə yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

Hazırda cinayəti törətməkdə şübhəli bilinən Toğrul Zeynallının tutularaq istintaqa cəlb olunması, habelə hadisənin təfərrüatlarının tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətində təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Əbdürrəhim bəy Haqverdiyev - 150

# Ədibin həyatının ən az öyrənilmiş üç ili...



**Azərbaycan ədəbi-bədii, elmi-pedaqoji, ictimai-siyasi fikir tarixinin görkəmli nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev yazıçı, dramaturq, tərcüməçi, publisist kimi olduqca zəngin bir irs qoyub getmiş, bir müddət aktiv ictimai-siyasi fəaliyyət göstərmiş, diplomatik işdə çalışmış, universitetdə ədəbiyyat tariximizdən mühazirələr oxumuşdur. Doğrudur, ömrünün axırlarına yaxın o da silahdaşı Mirzə Cəlil kimi, Azərbaycanda "yuxarı dairələr"də müəyyən mənada unudulmuş, etinasızlıqlarla üzləşmiş, özünə ögey münasibətdən incikliyini məktublarında dönə-dönə qeyd etmişdir, lakin müasirləri, dövrünün tanınmış şəxsiyyətləri onun çoxşaxəli fəaliyyətini hələ sağlığında ikən yüksək dəyərləndirmişlər.**

Akademik Kraçkovski, akademik Bartold, Leninqrad Şərq Dilləri İnstitutunun rektoru Vorobyov və onlarla başqaları ədəbi fəaliyyətinin 35 illiyi münasibətilə 1927-ci ildə yazıçıya göndərdikləri məktub və teleqramlarda ona məhz böyük yazıçı və alim kimi müraciət etmişlər.

Ə.Haqverdiyevin ədəbiyyat, mədəniyyət və mətbuat tariximizdəki rolu və yeri barədə görkəmli tədqiqatçılar Ə.Şərif, M.Cəlal, C.Xəndan, Ə.Sultanlı, C.Cəfərov, A.Zamanov, Y.Qarayev, K.Məmmədov, M.Məmmədov, Q.Kazımov, H.İsrafilov, C.Hacıyev, D.Hacıyev, Ə.Saraclı, T.Mütəllimov və başqaları dissertasiya, monoqrafiya və dəyərli məqalələr yazmışlar. Lakin qeyd edək ki, uzun illər boyu obyektiv və subyektiv səbəblərdən Ə.Haqverdiyevin ömür yolunun bəzi məqamlarının üstündən ya sükutla keçilmiş, ya ötəri bəhs olunmuş, ya da ədibin müasirlərinə, dostlarına yazdığı məktublarında, məqalələrində və xatirələrində müəllifin özünə aid epizodik məlumatlar olduğu kimi verilməklə kifayətlənilmişdir. Halbuki yazıçının özünün 1927-ci ildə yazıb Tiflisə, "Yeni fikir" qəzetinə, şəxsən Əziz Şərifə göndərdiyi "Müxtəsər tərcümeyi-halım" və 1933-cü ildə qələmə aldığı, sonralar seçilmiş əsərlərinə salınan "Tərcümeyi-halım" avtobioqrafiyası araşdırıcılara ipucu verir ki, yazıçının yalnız bir və ya bir neçə cümlə ilə kifayətləndiyi tarixçələr, faktlar daha geniş araşdırılsın, şərh olunsun.

Təhlillər göstərir ki, yazıçının tərcümeyi-halının Gürcüstanla bağlı 1916-cı ilin axırları - 1919-cu ilin fevralınadək olan dövrünün yenidən, dolğun şəkildə araşdırılmasına ciddi ehtiyac duyulur. Bunun zəruriliyini yazıçının həyat və yaradıcılığının tədqiqi ilə məşğul olan tədqiqatçılarımızın bəziləri də xüsusi vurğulamışlar. Professor Məmməd Məmmədov ötən əsrin səksəninci illərində qələmə aldığı, lakin ciddi araşdırıcı məsuliyyəti ilə çapına tələsmədiyi "Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı" monoqrafiyasında yazıçının ömür yolunun, ədəbi irsinin öyrənilməsi sahəsində tədqiqatlar aparmış alimlərimizin zəhmətini qədirbilənliklə vurğulamaqla yanaşı, "indiyə qədər Ə.Haqverdiyevin mükəmməl elmi tərcümeyi-halı yazılmamışdır" qənaətinə təsadüfən gəlməmişdi, əslində, bu sahədəki boşluqların hökmən doldurulması zərurətini irəli sürmüşdü.

Yazıçının sağlığında dərc olunmuş ilk tərcümeyi-halın müəllifi aralarında böyük yaş fərqi olmasına baxmayaraq, onunla uzun illər dostluq etmiş görkəmli tədqiqatçı, professor Əziz Şərifdir. Bugünkü ədəbiyyatşünaslar nəsli Əziz Şərifə minnətdar olmalıdırlar ki, ədəbiyyatımızın bir neçə başqa korifeyi kimi, Ə.Haqverdiyevin də həyatı və fəaliyyəti ilə bağlı olduqca qiymətli tədqiqatlar aparmış, onun məktublarını qorumuş, çap etdirmiş, xatirələrini qələmə almaqla araşdırıcıların ixtiyarına zəngin materiallar vermişdir. 1927-ci il fevralın 4-də Tiflisdə Rustaveli teatrında yazıçının ədəbi fəaliyyətinin 35 illik təntənəli yubileyinin təşkilinin ağırlığını da xüsusi komissiyanın yaradılmasına baxmayaraq, dövrünün tanınmış ziyalısı, "Yeni fikir" qəzetinin redaktoru Rzaqulu Nəcəfov (şair Əliqulu Qəmküsarın qardaşı - Ş.Ş.) və Əziz Şərif çəkmişlər. Ə.Haqverdiyevin məktublarından da görürük ki, ədib onların bu xidmətini heç zaman unutmamış, bənzərsiz bir yubiley gecəsinin baş tutmasında onların zəhmətini dönə-dönə xatırlamışdır. Məhz yubiley ərəfəsində Ə.Haqverdiyev özünün "Müxtəsər tərcümeyi-halım"ı yazaraq "Yeni fikir" qəzetində çalışan Əziz Şərifə göndərmişdir. Əziz Şərif Ə.Haqverdiyevin qeydlərini əsas götürərək, yubiley günündə "Yeni fikir" qəzetinin 1927-ci il 4 fevral tarixli sayında "Ə.Haqverdiyevin tərcümeyi-halı" adlı yazısını dərc etdirmişdir.

Əbdürrəhim bəyin ilk professional bioqrafı kimi Əziz Şərif yazıçının əlimizdəki arxivinin çox da zəngin olmadığını təəssüf hissi ilə qeyd etmişdir: "Öz dilindən eşitdiyimə görə, onun bir çox əlyazmaları və ədəbi materialları 1916-cı ildə Ağdamdan köçəndən sonra arada itib-batmışdı. Ədibimizin Mirzə Fətəli Axundzadə kimi daimi məskəni yox idi. Müxtəlif vaxtlarda o, Peterburq, Bakı, Şuşa, Ağdam, Tiflis şəhərlərində yaşamağa və çalışmağa məcbur olmuşdu. Ancaq həyatının son illərini köçüb Bakıda qalmışdı. Bu köçəri həyat nəticəsidir ki, Əbdürrəhim bəy öz yazıları və materiallarını səliqə ilə saxlaya bilməmişdi. Buna görə də, mən biləsi, əlimizdə olan arxiv onun son on üç illik həyat və yaradıcılığını əhatə edir..." Maraqlıdır, ədib Ağdamdan köçəndən sonra arada itib-batan "bir çox əlyazmalar və ədəbi materiallar" nələrdən ibarət olmuşdur? Yazıçı Əziz Şərifə də konkret heç bir şey söyləməmişdir. 1916-1919-cu illərdə - Gürcüstanda olduğu dövrdə isə Ə.Haqverdiyev bədii yaradıcılıqla çox nadir hallarda məşğul olmuşdur. Təxminən həmin illəri nəzərdə tutan Ə.Şərif yazırdı: "Bu zaman Əbdürrəhim bəy ədəbiyyatdan bir növ uzaqlaşmışdı və heç nə yazmırdısa da, ictimai-mədəni işlərdə olduqca fəal iştirak edirdi". Tədqiqatçı M.Məmmədov ədibin həmin illərdə ədəbi yaradıcılıqdan qismən, ədəbiyyatşünas Ə.Saraclı isə tamamilə uzaqlaşdığını yazmış, onlar Haqverdiyevin əsasən ictimai-siyasi, diplomatik işlərlə məşğul olduğunu vurğulamışlar. Ədəbiyyatşünas alimlər bu qənaətə gəlməkdə ona görə haqlıdırlar ki, həmin illərdə Əbdürrəhim bəyin yalnız üç hekayə yazıb çap etdirdiyi məlumdur: "Həmşəri pasportu", "Röya" və "Mirzə Səfər". Deməli, "itib-batan ədəbi materiallar" deyiləndə yazıçının 1916-1919-cu illərdə qələmə aldıqlarından söhbət belə gedə bilməz. Bəlkə də ehtimal etmək olar ki, "itib-batan"lar yazıçının hələ Ağdamda olarkən qələmə aldığı, lakin çapa vermədiyi əlyazmalardır.

Ə.Haqverdiyevin 1916-1919-cu illərdə Gürcüstandakı fəaliyyəti ilə bağlı əldə detallarına qədər məlumatların olduğunu söyləmək də düzgün olmazdı. Yazıçı özünün tərcümeyi-hallarında bəlkə də fəaliyyətinin ən zəngin, çoxspektrli həmin illərindən olduqca "xəsisliklə" bəhs etmiş, cəmi 9-10 cümlə ilə kifayətlənmişdir. Zənnimizcə, bu da təsadüfi deyildir. Yazıçı öz tərcümeyi-hallarını Sovet hakimiyyəti illərində qələmə aldığından ola bilsin ki, olduqca mürəkkəb 1916-1919-cu illərdəki həyat və fəaliyyətindən təfərrüatı ilə bəhs etməyi məhz siyasi baxımdan lazım bilməmişdir. Yazıçının əldə olan arxivinin əsasən həyatının yalnız son on üç ilini (1920-1933) əhatə etməsi də bir qədər düşündürücüdür. Bəlkə də Haqverdiyev 1920-ci il aprel çevrilişindən əvvəlki illərlə bağlı bəzi əlyazmalarının, məktublarının, sənədlərinin saxlanılması qayğısına bilərəkdən qalmamışdır. Bu ehtimalı Haqverdiyevin qeydlərindəki bəzi nüanslar da qüvvətləndirir. Məsələn, "Tərcümeyi-halım"da Cümhuriyyət dövründə Ermənistandakı diplomatik işindən geri çağırılmasını özünün "xətti-hərəkətinin" "hökumətin xətti-hərəkətinə" zidd gəlməsi ilə bağlamasını da təsadüfi hesab etmirik. Bunu yazıçının siyasi senzuradan yayınmaq istəyi ilə əlaqələndirmək daha doğru olardı.

Ədibin tərcümeyi-halı ilə bağlı mövcud bilgilərin zənginləşdirilməsi üçün əsasən həyat və fəaliyyətinin 1916-1919-cu illəri əhatə edən dövrlərini daha geniş araşdırmaq lazımdır: Şəhərlər İttifaqının Qafqaz şöbəsindəki işini; Borçalı qəzasında komissarlıq fəaliyyətini; Gürcüstan Demokratik Respublikası parlamentində təmsilçiliyini; Dağıstanda və Ermənistanda Azərbaycanın diplomatik nümayəndəsi kimi çalışmalarını.

Ə.Haqverdiyev Şəhərlər İttifaqının Qafqaz şöbəsində cəmi üç ay və yaxud bir qədər çox işləmişdir. Yazıçının qeydlərindən görünür ki, 1916-cı ilin axırlarında həmin qurumda işə başlamış, 1917-ci il fevral inqilabından sonra işindən ayrılmışdır. Haqverdiyevin yazdığına görə, qurumun "Qafqaz şöbəsi əxbarının rus dilində aylıq jurnalının müdiriyyətini" ona həvalə etmişlər. Söhbət hansı ad altında çıxan jurnaldan gedir? Ədibin özü bu barədə heç nə yazmamışdır. Ə.Haqverdiyevin həyat salnaməsinə çox yaxından bələd olan Əziz Şərif də, görünür, konkret bilgiyə malik deyildir. Çünki tədqiqatçı Ə.Haqverdiyevlə bağlı xatirəsində açıqca yazır ki, o, Əbdürrəhim bəy Ağdamdan Tiflisə köçüb gəlməzdən bir qədər əvvəl, 1915-ci ildə Moskvada ali məktəbdə oxuyurmuş, 1917-ci ilin yayından 1918-ci ilin yanvarınadək isə Naxçıvanda olmuş, Tiflisə yalnız 1918-ci ilin yanvarında qayıtmışdır. Ona görə də Ə.Şərifin Haqverdiyevin Şəhərlər İttifaqı Qafqaz şöbəsinin jurnalında fəaliyyəti ilə bağlı ətraflı məlumata malik olmaması tamamilə təbiidir. "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabında isə ədibin "Şəhərlər ittifaqının Qafqaz şöbəsi əxbarı" adlı məcmuəyə müdirlik etdiyi göstərilmişdir. Professor Əflatun Saraclı isə ədibin adıçəkilən qurumun "Xəbərlər" adlı rus dilində çıxan aylıq topluya müdirlik etdiyini yazmışdır. Tədqiqatçı K.Məmmədov sözügedən mətbuat orqanının "Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri" olduğunu qeyd etmişdir. Prinsipcə, hər üç mənbədə jurnalın (yaxud məcmuənin, toplunun) adı təxminən eyni cür göstərilmişdir.

Ə.Haqverdiyev 1927-ci ildə qələmə aldığı "Müxtəsər tərcümeyi-halım"da "Molla Nəsrəddin", "Zənbur", "Həyat", "Təzə həyat", "İrşad", "Yeni irşad", "Tərəqqi", "Açıq söz" kimi qəzet və jurnallarda çalışdığını qeyd etmiş, lakin Şəhərlər İttifaqı Qafqaz şöbəsindəki redaktorluğundan ətraflı bəhs etməmiş, rəhbərlik etdiyi jurnalın adını da çəkməmişdir. Bu, bir neçə səbəblə bağlı ola bilər. Əvvəla, Şəhərlər İttifaqının Qafqaz şöbəsindəki fəaliyyəti uzun sürmədiyindən, təxminən üç ay çəkdiyindən Ə.Haqverdiyev bu barədə ətraflı danışmağı bəlkə də lüzumsuz saymışdır. Digər bir səbəb isə, görünür, yenə siyasi motivlərlə bağlı olmuşdur.

1916-1919-cu illərdə Gürcüstanda yaşadığı dövrlərdə Ə.Haqverdiyevin imzasına "Molla Nəsrəddin", "Qardaş köməyi", "Tartan-partan"da və rusca çıxan "Qruziya" qəzetində rast gəlirik. Əbdürrəhim bəy bu zaman öz fəaliyyətini əsasən siyasi əqidə çərçivəsində məhdudlaşdırmaqdan uzaq olmuş, mənsub olduğu xalqın üzləşdiyi çoxçeşidli problemlərin həllinə əsl vətəndaşlıq yanğısı ilə qoşulmuşdur. Ümumiyyətlə, uzun illər boyu müxtəlif mətbuat orqanlarında ayrı-ayrı siyasi baxışlara malik şəxslərlə çiyin-çiyinə işlədiyi zamanlarda da ədib öz fəaliyyətini milli problemlərin həllinə yönəlmiş çalışmalarla uzlaşdırmağı bacarmış, bu məqamda hər cür siyasi əqidə məsələsinin fövqündə olduğunu göstərmişdir. M.Ə.Rəsulzadə, Ə.Qarayev və onlarla başqalarının timsalında bir-birinə tamamilə zidd siyasi cəbhələrdə olan şəxslərlə birgə çalışmaları onu göstərir ki, əslində, Ə.Haqverdiyevin ən böyük amalı harada olursa-olsun xalqına xidmət etmək, onu mədəni millətlər sırasında görmək idi. Təsadüfi deyil ki, biz onu "Molla Nəsrəddin"də Mirzə Cəlil, "Həyat", "İrşad" və "Tərəqqi"də Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə, "Təzə həyat"da Haşım bəy Vəzirov, "Açıq söz"də M.Ə.Rəsulzadə, "Tartan-partan"da Əliheydər Qarayevlə birgə görürük...

Ə.Haqverdiyevin özünün qələmə aldığı tərcümeyi-hallardan və ədibin bioqraflarının qeydlərindən də göründüyü kimi, görkəmli yazıçı tanınmış ictimai xadim olaraq 1917-ci il fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsi və onun Mərkəzi Şurasının üzvü seçilmişdir. Ə.Haqverdiyev Tiflisdə Tamadovun sədrliyi ilə təzəcə fəaliyyətə başlayan 115 nəfərlik Müsəlman Komitəsi və onun idarə heyətinin üzvü idi. "Açıq söz" qəzeti yazırdı: "Tiflisdə Tamadov sədarəti altında 115 əzadan ibarət müsəlman komitəsi təşkil edilmişdir. Komitə müsəlmanlarla məskun olan yerlərdən hədsiz teleqramlar alır. Teleqramlarda indiki hadisədən dolayı müsəlmanların şadlığı bəyan edilir..." Komitənin heyət üzvləri arasında Ə.Haqverdiyevlə yanaşı, H.Minasazov, M.Abaşidze, E.Sultanov və bir çox başqa müsəlman ziyalılar var idi. Həmin ilin mart ayında isə Ə.Haqverdiyev Borçalı qəzasında yerli idarə məclisinin komissarı vəzifəsini icra etmək üçün Şulaver qəsəbəsinə getmişdir. Ədib Şulaverdə Gürcüstan Demokratik Respublikası elan olunana qədər işləmişdir.

Ə.Haqverdiyevin Gürcüstan Milli Şurasının - parlamentinin üzvü seçilməsi ilə ictimai-siyasi fəaliyyətinin ən parlaq dövrü başlanmışdır. O, 1918-ci il sentyabrın 29-dan 1918-ci il yanvarın 31-dək - parlamentin fəaliyyətinin dayandırılması və Müəssisələr Məclisinin yaradılmasınadək deputat kimi olduqca səmərəli fəaliyyət göstərmişdir. Qeyd edək ki, Gürcüstanın müstəqilliyinin elan olunmasından sonra Ə.Haqverdiyev Borçalıdan Tiflisə gəlmiş və paytaxtda azərbaycanlılar üçün təzə açılmış ali-ibtidai məktəbə inspektor təyin edilmiş, bu vəzifədə çalışarkən Gürcüstan Müsəlmanları Milli Şurası tərəfindən qurumun sədri Əliheydər Qarayev, Tiflis şəhər 2-ci Xarpux Azərbaycan ibtidai məktəbinin müəllimi Mirzə Hüseyn Həsənzadə və o dövrdə şəhərin ictimai-siyasi-mədəni həyatında fəal rol oynayan gənc Əziz Şəriflə birlikdə parlamentə üzv göndərilmişdir. Əbdürrəhim bəy M.Həsənzadə ilə birlikdə parlamentdə gürcü deputatlar - L.Natadze, N.Sinsadze, T.Kiknadze və N.Çiqoqidzenin daxil olduğu maarif komissiyasının tərkibində fəaliyyət göstərmişdir. Ə.Haqverdiyev deputat kimi ölkə konstitusiyasının verdiyi imkanlardan istifadə edərək gürcüstanlı soydaşlarının ana dilində təhsil alması, bu sahədəki mövcud problemlərin aradan qaldırılması, məktəblər şəbəkəsinin genişləndirilməsi, bütövlükdə milli mədəniyyətin qorunması, inkişafı üçün yorulmadan çalışmışdır. Tanınmış tədqiqatçı Gülnara Qoca-Məmmədova arxiv sənədlərinə istinad edərək Gürcüstan Demokratik Respublikası parlamentində türk deputatların, o cümlədən Ə.Haqverdiyevin milli-mədəni, xüsusən də maarifin inkişaf etdirilməsi sahəsindəki çalışmalarına dair maraqlı faktlar üzə çıxarmışdır. Məsələn, parlamentin maarif komissiyasının 1918-ci il 18 dekabr tarixli iclasında Ə.Haqverdiyev ölkə ərazisində toplam 15 müsəlman məktəbi olduğunu, onlardan isə yalnız 10-nun fəaliyyət göstərdiyini vurğulamış, tədbirlər görülməsini istəmişdir. Yaxud parlament məktəblərdə dini tədrisin ləğvi məsələsini müzakirə edərkən Ə.Haqverdiyev dövrün tələblərindən çıxış edərək "şəriət din dərsi deyil, Məhəmməd dini əsasında əxlaq təlimidir" deyərək öz mövqeyini ortaya qoymuşdur. Qeyd edək ki, Gürcüstan Demokratik Respublikası dövründə (1918-1921) türklərin təhsil aldığı geniş məktəblər şəbəkəsi yaradılmış, milli-mədəni sahədə sonrakı illərdə əldə olunmuş gəlişmələrin sağlam bünövrəsi qoyulmuşdur. Bu işdə deputat kimi fəaliyyət göstərmiş Ə.Haqverdiyevin də müstəsna xidmətləri olmuşdur. Hazırda qarşıda duran ən mühüm vəzifələrdən biri Gürcüstan arxivlərində türk parlamentarilərin fəaliyyətini özündə əks etdirən bütün sənədlərin toplanması və dilimizə tərcümə edilərək çap olunmasıdır. Məhz həmin sənədlər sayəsində həm də ədibin ictimai-siyasi fəaliyyətinin bütün spektrləri ilə tanış olmaq imkanı əldə edə bilərik.

Nəhayət, Ə.Haqverdiyevin Dağıstanda və Ermənistandakı çox qısa sürən, obyektiv və subyektiv səbəblərdən uğursuzluqla nəticələnən diplomatik fəaliyyəti barədə. "Tərcümeyi-halım"da oxuyuruq: "1919-cu sənədə müsavat hökuməti məni Bakıya çağırıb Dağıstana göndərdi. Orada mənim işləməyim Denikinə xoş gəlməyib onun əmri ilə 24 saatda Bakıya sürgün olundum. Bakıda bir az qaldıqdan sonra Ermənistana göndərdilər. Lakin orada mənim xətt-hərəkətim hökumətin xətt-hərəkətinə müğayir gəldikdən və Xanxoyski ilə uzun-uzadı mübahisədən sonra istefa verdim".

Denikinin Ə.Haqverdiyevin simasında Azərbaycan diplomatına Dağıstanda işləməyə imkan verməməsi, ədibin təbirincə desək, onu "sürgün etməsi" sırf siyasi motivlərlə bağlı olmuşdur. 1919-cu ildə regionda olduqca mürəkkəb vəziyyət hökm sürürdü. Müstəqilliyini təzəcə elan etmiş Güney Qafqaz ölkələri Denikinin israrlı təhdidləri ilə üzbəüz qalmışdı. Aralarındakı sərhəd mübahisələrinə baxmayaraq, Denikin ordularının hücumlarından qorunmaq məqsədilə Azərbaycan və Gürcüstan 1919-cu il iyunun 16-da Tiflisdə 10 maddədən ibarət hərbi müdafiə sənədi imzalamışdı. Müqavilənin birinci bəndinə görə razılığa gələn dövlətlər razılığa gələn respublikalardan birinin, yaxud hər ikisinin müstəqilliyini və ərazi toxunulmazlığını hədələyən hər cür hücumlara qarşı bütün silahlı qüvvələrlə və hərbi vasitələrlə birgə çıxış etməyi öhdələrinə götürürdülər. İkinci tərəfdən, Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri müəyyənləşdirilərkən Dağıstan vilayətinin Kürə və Samur dairələri ilə bağlı ortaya müəyyən mülahizələr çıxmışdı. Yetkililərin yazılı ifadəsinə görə, həmin məsələnin yaxın gələcəkdə Dağlı Respublikası ilə danışıqlar yolu ilə həll olunacağı planlaşdırılmışdı. Ümumiyyətlə, müstəqil Azərbaycanın müstəqil xarici siyasət yeritməsi, ona boyun əyməməsi səbəbindən Denikin Xalq Cümhuriyyətinə qarşı düşmənçilik siyasəti yeridirdi. Qeyd edək ki, Azərbaycan və Gürcüstandan fərqli olaraq Ermənistanda Denikin ordusunun yolunu səbirsizliklə gözləyirdilər. V.Qurko-Kryajin yazırdı: "Gürcüstanın və Azərbaycanın əksinə olaraq Ermənistan hökuməti Denikin ordusu ilə o dərəcədə dostluq əlaqəsi saxlayırdı ki, İrəvanın siyasi xadimlərindən birinin dediyi kimi, "Ermənistan respublikası öz qüvvələri ilə birlikdə Denikin ordusunun 7-ci korpusudur". Ona görə də Azərbaycan diplomatı kimi Ə.Haqverdiyev Denikinin xüsusi tapşırığı ilə təcili surətdə Bakıya qaytarılmışdır.

